**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**Memarlıq və İncəsənət İnstitutu**

*AMEA Memarlıq və İncəsənət İnstitutunun*
*Elmi Şurasının qərarı ilə çap olunur*
*(12 aprel 2019-cu il, protokol №4)*

## Qaracan Borçalı

# OZAN ÖMRÜ

**BAKI - 2019**

*Elmi redaktor:* *Vüqar Kərimli*
*kulturologiya ü.f.d.dosent*

*Rəyçilər:* *İradə Köçərli*
*sənətşünaslıq doktoru, professor*

*Elxan Məmmədli*
*Filologiya ü.f.d.dosent*

*Sumqayıt, «Azəri» nəşriyyatı, 2019, 200 səhifə*

$$D \frac{525000 - 731}{781 - 09} M$$

# ÖN SÖZ

Milli varlığımızın əsas daşıyıcılarından olan aşıq sənətinin tarixi Azərbaycan mədəniyyətinin dərin və çoxşaxəli qatlarında özünəməxsus yer tutur. Mifoloji düşüncəmizdə Adəm atadan üzü bəri ozan-aşıq sənətinin hər kəlməsində, hər avazında dərin mənalar, hikmətlər var. Ustad sənətkarlardan bizə tarixi-genetik yaddaşla ötürülən mənəvi dəyərlərimizi yaşadmaq və tədqiq etmək borcumuzdur. Qloballaşan dünyada bir sıra mənəvi irs nümunələri ilə yanaşı, aşıq sənəti ənənələridə unudulmaq təhlükəsi ilə qarşılaşmışdı. Zövqlərin korlaşması, yad musiqiyə meyillərin artması aşıq sənətinin gələcək inkişafını təhlükə altına qoyur. Bu gün Azərbaycan hökuməti aşıq sənətinə diqqət və qayğısını yüksək səviyyədə göstərir. Ancaq bununla yanaşı müasir dövrdə aşıq sənətini yaşatmaq, zənginləşdirmək və gələcək nəsillərə ötürmək vacib məsələ olaraq qalmaqdadı.

Bu missiyanı yerinə yetirən ustad sənətkarlardan biri aşıq-şair Qaracan Borçalıdı.

Qaracan Borçalı qədim türk diyarı Borçalı mahalının Təkəli kəndində dünyaya göz açıb. Onun doğulub boya-başa çatdığı bu mühit bir tərəfi Babəkər dağı, bir tərəfi Anaxatın (Xram) çayının füsünkar mənzərələri də yaradıcılığa ilham verən, şeriyyətə qanad verən amillər olmuşdur. Ustadın poeziyaya, aşıq sənətinə meyli kökdən gələn genetik yaddaşla da bağlıdır. Qaracan Borçalı təhsilcə yüksək ixtisaslı, peşəkar maliyyəçi olsa da özünü bir gün

də sazsız, şeirsiz təsəvvür etməyib. Ustadın təbincə desək:

***Saz mənim qəlbimin, duyan könlümün***
***Döyünən ürəyimin öz ahəngidir***
***Sazsız ağlamadım, sazsız gülmədim***
***Sazsız keçən ömrüm bir əfsanədir***

Ustad Qaracan hələ Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda təhsil alarkən məşhur tarizan Əhsən Dadaşovun bədii rəhbərliyi altında İnstitutun ansamblında artıq nüfuz qazanmışdı. O, tələbə-müəllim heyyəti qarşısında müxtəlif tədbirlərdə öz ifası ilə qəlbləri fəth etmişdi. İllər keçdikcə ustad sənətkar səhnələşdirilmiş tamaşaların qəhrəmanına çevrilir. Sumqayıt Dövlət Dram Teatrında səhnələşdirilmiş "Aşıq Ələsgər" tamaşasında (1984) – baş rolun ifasını ustad Qaracana həvalə etmişdilər. Müstəqilliyin ilk illərində Türk dövlətlərinin milli bayram tədbirlərində Azərbaycan nümayəndə heyətinin tərkibində Qaracan Borçalı aşıq sənətini layiqincə təmsil etmişdir.

Sadaladığımız bu uğurlar göstərir ki, Qaracan Borçalının bədii yaradıcılığa, aşıq sənətinə, şeirə, sözə meyli ötəri bir hiss deyildir. O, hələ 1984-cü ildə Azərbaycan Aşıqlar Birliyinin IV qurultayında, Birliyin İdarə Heyyətinin üzvü, 1991-ci ildə Birliyin İdarə Heyətinin sədrinin birinci müavini vəzifəsinə seçilmiş və 1992-ci ildə Aşıqlar Birliyinin banisi Xalq şairi Hüseyn Arif dünyasını dəyişdikdən sonra 2003 - cü ilə dək Azərbaycan

Aşıqlar Birliyin Sədr vəzifəsini icra etmişdir. 2004-2008-ci illərdə AAB-nin İdarə Heyyətinin sədri vəzifəsində çalışıb. "Aşıq Pəri" məclisinin təşkil olunmasında xüsusi fəaliyyəti olmuşdur. Qaracan Borçalı 20 dən artıq şəyirdə ustadlıq edib. Onların arasında Türkiyə, Gürcüstan, İran İslam Respublikasının vətəndaşları olmuşdur. "Ünvanımı sazdan soruş" 1998, "Mən Borçalı balasıyam" 2015, adlı kitabların müəllifidir. Sovet dövrü mətbuatında və müstəqillik illərində KİV-ə çoxsaylı şeirlərini oxuculara təqdim etmişdi.

Qaracan Borçalı 1990-1991-ci illərdə keçirilən Ümumittifaq Xalq Yaradıcılığı festivalının laureatı olmuşdur. 2017-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən fəxri mədəniyyət işçisi ordeni ilə təltif edilmişdir. Azərbaycan Yazıçılar İttifaqının üzvüdür.

Oxucuların mühakiməsinə təqdim olunan "Ozan ömrü" kitabı da Qaracan Borçalının incə duyumlu bir söz xiridarı, qələm sahibi kimi səciyyələndirməyə imkan verir. Müəllif "gəraylı", "təcnis", "divani", "qoşma", "müxəmməs", "bayatı", və s. formalarda yazılmış şeirləri bu kitabda öz əksini tapmışdır.

Aşığa təsadüfi olaraq "Haqq aşığı" deyilmir, çünki o, Haqqın nəğməkarı və çarçısıdır. Ustadın qələmə aldığı bu şeirləri oxuyarkən bunun şahidi olarsız.

Qaracan Borçalı tariximizin, mədəniyyətimizin, xalq yaradıcılığının, aşıq sənətinin dərin qatlarını incələyən

vətənpərvər şair və əsl vətəndaşdır. Vətəndaş mövqeyindən çıxış edən, millətini vətəninə, torpağına bağlı olmağı səsləyən, gəncləri vətənpərvərlik ruhda böyüməyə çağıran ustad sözünü şeir ilə deyir:

***Mən bu ömrü yaşamaram  Azərbaycan olmasa***
***Sızlayar qan verər yaram, Azərbaycan olmasa***
***Çörəyi burnumdan gələr əgər itirsəm onu***
***Demərəm dünyada varam, Azərbaycan olmasa***

və ya digər bir şerində:

***Səfərdəyəm sərhədimdən çıxmışam kənarlara***
***Baxıram yol kənarında boylu sərv çinarlara***
***Yetmiş ildi bağlanmışdı, axır açıldı ara***
***Anadolda Qarş, Qazıman, İranda Zəncan görürəm***
***Hansı yana boylanıram Azərbaycan görürəm***

Ustadın qəhramanlıq mövzusunda yazdığı, torpaq uğrunda şəhid olan Milli qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr etdiyi şerində vətən oğullarını əsil vətənpərvər olmağa, el uğrunda, torpaq uğrunda canlarını belə əsirgəməməyə çağırmışdır:

***İgid libası əynində***
***Yağıları biçə-biçə***
***Vətənin dərdi çiynində***
***Düşmən qanı içə-içə***
***Keçdi zəfərlər yolunu***
***İlahi sən pənahında***

*Saxla bu vətən oğlunu*
*Tarixlərin səhfəsində*
*Mübariz adı qalacaq*
*Hələ vətən, millət üçün*
*Mərd  analar sayəsində*
*Mübarizlər doğulacaq*

Bu yerdə ustadın ölməz şəhidlərin əbədiyaşar ruhlarına ithaf etdiyi şeirin bir bəndini xatırladım:

*El oğluyam, el yaşadır, övladı Qaracanı*
*El yolunda verməliyəm qurban, bu qara canı*
*Doğulmuşam, sevməliyəm yurdum Azərbaycanı*
*Rəhmət olsun, nurla dolsun məzarınız, şəhidlər*

Vətən, torpaq intizarı ilə yaşayan usdad aşıq, tarixlər boyu Türkün torpağına gözünü dikmiş, sərvətini talamış, dəyərlərinə sahib çıxmış bədnam qonşular haqqında gələcək nəsillərə andırmışdır;

*Səni atmışdılar qarın altına*
*Gördüm ki, bürüşüb, zığıldayırsan*
*Gətirdim evimə, böyütdüm səni*
*Indisə üstümə mırıldayırsan*

*O yediyin çörək gələr burnundan*
*Sonra nə olacaq, görəcəksiniz*
*İndi zəbt etdiyiniz o torpaqlardan*
*Zaman gələcək ki, köçəcəksiniz.*

Sovet hakimiyyəti illərində xalqımıza qarşı törədilən haqsızlığı, ədalətsizliyi, təcavüzü vurğulayan ustad sözü yenə şeirə verir:

***Yetmiş il boğulduq SSRİ-də***
***İşıqlı dünyanı qəti görmədik***
***Dilimiz, dinimiz alındı əldən***
***Müsəlmanlıq ləyaqəti görmədik***

və ya digər bir şeirində:

***Yaşayırdıq "Kommunistin" eşqinə***
***O da düşdü "Demokratiya" köşkünə***
***Belə getsə düşəcəydik düşgünə***
***Şükür olsun qiyaməti görmədik***

***Axır qovduq bu sarı murdarları***
***Bunlar üçün çox axıtdıq qanları***
***Yetmiş ildə yaralanan canların***
***Yarasını sağlamağın vaxtıdır.***

Atalar deyiblər: -"Aşıq gördüyünü çağırar". Ustad Qaracan insanların qarşılaşdıqları haqsızlıqlara qarşı hikmətli kəlamı ilə ifadə edir:

***Çənən sazdı, qarğa kimi ötürsən***
***Yaltaq payı, kim nə versə götür sən***
***Bu sənəti övladlarına ötür sən***
***Səndən beş qat artıq ötər a yaltaq***

Ustad həmişə aşıq-ozan sənətini bizə miras ötürənlərin havalarını, dastanlarını adət-ənənələrini olduğu kimi gələcək nəsillərə çatdırmağı şəyirdlərinə tövsiyyə edir. Üzdən iraq sənətgarların qondarma oyunlarından davranışlarından hiddətlənərək deyirdi:

***Aşıqsan nağıl söyləmə, al sazı dastan danış,***
***Həqiqətdən, mərifətdən, ərkəni-yoldan danış***
***Vətən dərdi, millət dərdi, çəkənlər qeyrətindən***
***Koroğludan, Cavanşirdən, Rüstəmi-Zaldan danış***

Dağlar həsrəti, yaylaqlar həvəsi ilə yaşayan daim özünü təbiyyət qoynunda, ilham dəryasında çağlayan ustad təbiəti belə vəsf edir:

***Yaz ayları dərgahına mən gələm***
***"Sarı tel"ə, "Süsəmbər"ə köklənəm***
***Çəmənində dirsəklənəm, dincələm***
***İstəmərəm cəhi-cəlalı yaylaq***

Ömrünün ixtiyar dövrünü yaşayan ustad Qaracan həmişə yaşınnan yox ürəyi ilə danışır. Həmişə deyir: yaşa baxmayın ürək cavandı

***Kamil sənətkaram meydan girimli***
***Dəvasız dərdlərə sinə gərimli***
***Rəbbidən güc alan şair Kərimli***
***Sənət meydanında səngiməmişdi***
***Ürəyi cavandı, yaş yetmişdi***

Ustadın bu mövzuda yazdığı digər bir şeirini diqqətinizə gətirim:

***Sığalın çəkərdi Tanrı mələyi***
***Darağın olardı dağlar küləyi***
***Bağlanıb qoluma cəllad biləyi***
***San ki, çəkir məni dara saçlarım***

Qaracan Borçalı ömrünün ahıllıq dövrünü yaşayan usdad yaşına baxmayaraq hələdə yazıb, yaratmaq həvəsindədir:

***Çox şükür yetişdi ahıllıq yaşım***
***Galladarlıq dövrüm indən belədir***
***Tanrının əmridi ağardı başım***
***Ağsaqqallıq ömrüm indən belədir***

Övladlar atası, nəvələr babası, el ağsaqqalı usdad Qaracan Borçalıya sənətində yaradıcılıq nailiyyətlərində uğurlar arzulayırıq. Allah ömür versin. Hazırda oxuduğunuz "Ozan ömrü" adlı bu kitab müəllifin son illər ərzində qələmə aldığı məzmunlu, məntiqli, oxunaqlı bir şeirlər toplusudur.

***Redaktordan***

# DİVANİLƏR GƏRAYLILAR QOŞMALAR

# SALAM OLSUN

***Biz dünyadan gedər olduq,***
***Gələnlərə salam olsun.***
***Yunis İmrə***

Məndən o doğma ellərə
Obalara salam olsun!..
Ağbirçək nur nənələrə,
Babalara salam olsun!..

Gecəsindən dan açdığım
Qoynundan uzaqlaşdığım
Həsrətinnən yaşadığım
O dağlara salam olsun!..

Çəmənində var töhvəsi
Gözəllərə gül dəstəsi
Kəkliklərin qəhqəhəsi
Yaylaqlara salam olsun!..

Haqqın qədəri, qüdrəti
Ürəklərdə hərarəti
Kəsilməyən ziyarəti
Bulaqlara salam olsun!..

Qaracan eldən, obadan
Qüdrətin verib yaradan
El içində el yaşadan
Oğullara salam olsun!..

# BORÇALI

Cənnət- məkanımsan, din-imanımsan
Şah sənətim, səltənətim Borçalı
Müqəddəs Kə`bəmsən, səcdəgahımsan
Qibləgahım, ziyarətim Borçalı

Mənim doğma yurdum, üz bəri döndər
Qarlı dağlarında qurmuşam səngər
Məndən uzaqlaşıb, yad olsan əgər
Yaman olar qiyamətim, Borçalı

Adım,Sanım bu ellərdə ucalıb
Yorğun canım qucağında qocalıb
Səndən qanadlanıb, səndən güc alıb
Qol qüvvətim, diz taqətim, Borçalı

Əziyyətnə qatlanmağa, girməyə
Boynum əyib, sinəmidə gərməyə
Yolunda canımı qurban verməyə
Var qeyrətim, cəsarətim, Borçalı

Gəlir xəyalıma cavan çağlarım
Çobanlı dağlarım, göy yaylaqlarım
Tarla zəmilərim, meyvə bağlarım
Bol nemətim, bərəkətim Borçalı

Əzəldən bunlardır əl peşələrim
Qaya külünglərim, səng tişələrim
Əlvan mədənlərim, göy meşələrim
Yataqlarım, bol sərvətim, Borçalı

Bir qəribəm qürbət eldə nazirəm
Əlim qələm, sinəm dəftər, yazıram
Ver cəzamı, çəkməyimə hazıram
Olubdursa qəbahətim, Borçalı

Qartal ömrüm yaşayır fəsillərə
Yadigarım gələcək nəsillərə
Müdrik bəndələrə, mömin kəslərə
Var hörmətim, ibadətim Borçalı

Həm yananam, həmdə yandıran odam
Bəsdir nə qədər ki, yurdumdan yadam
Qərarımdı gərək yazam, yaradam
Budur axır qənaətim, Borçalı

El içində var qədirim,qiymətim
Əyilməyən başım, məğrur qamətim
Mərifətim, ləyaqətim, ülfətim
Azda olsa səlahətim, Borçalı

Qaracanam, bəllidir əslim, soyum
Camalı hüsnündən mən necə doyum
Vacib budur eldə bir miras qoyum
Rəhmət alsın axirətim, Borçalı

# YAYLAQ

Hər tərəf laləzər, çiçəkli çəmən
Əzəldən yaranıb səfalı yaylaq
Yarpızlı bulağın gözündən əmən
Düşərmi heç sizdən aralı, yaylaq

Yaz ayları dərgahına mən gələm
"Sarı tel"ə "Süsənbər"ə köklənəm
Çəmənində dirsəklənəm, dincələm
İstəmərəm cəhi-cəlalı, yaylaq

Uca Tanrı nurundan nur ələyir
Təbim məni ilhamıma bələyir
Tər çiçəklər gözəlləri gözləyir
Qoymaram güllərin saralı, yaylaq

Xəstələr şəfası, dərdlər davası
Gəlsin nəfəsimə dağlar havası
Kim ki, sizdə qurar ömrün binası
İnanmıram o kəs qocalı, yaylaq.

Çox gəlmişəm bu dağların qoynuna
Dolanmışam dolayların boynuna
Zaman-zaman bu fələyin oynuna
Düşübdü Qaracan Borçalı, yaylaq

# DAĞLAR

Niyə dalğınsınız, niyə məlulsuz
Hanı sizlərdəki qürur a dağlar
Qoynunda atlanan igidlər, indi
Boynunu kənardan burur, a dağlar

Dolanır tərsinə dövranın valı
Yorğun kəhərimin, düşübdü nalı
Azalır canımın taqəti, halı
Yavaş-yavaş zaman yorur a dağlar

Yadımdadır “əyri qar”ın oylağı
“Armudlu”nun, “Yastı qar”ın yaylağı
“Anaxatın” “Tona” çaynın çaylağı
Gah bulanır, gah durulur a dağlar

Dolanardım yoxuşu doloyuna
Dırmanardım,qayaların boynuna
Baxma ki, həsrətəm cənnət qoynuna
Ürəyim sizinlə vurur a dağlar

Qaracanın məsgənisiz əzəldən
Ola bilməz ülfətmizi nəzildən
Ömür gəlib dolansa da yüz ildən
Etibarnız məndə durur a dağlar

***May 2017***

# YAZIM A DAĞLAR

Baxdıqca boyuna baxmaq istərəm
Çəkilmir hüsnündən gözüm a dağlar
Yerindədir sizdə qoyub getdiyim
Xatirəm a dağlar, izim a dağlar

Yaltaqlar yoluma ox, tələ qurdu
Bəxtim də özümün qəsdimə durdu
Qəriblik qəddimi, səbrimi yordu
Tükənir təmkinlə, dözüm a dağlar

Köç karvanlar yaylağına gələcək
Qoç qurbanlar yan-yana kəsiləcək
Od üstündə, kabablar çəkiləcək
Ocağım a dağlar, közüm a dağlar

Gül dəstə bağlayan hürilərə bax
Bulaqlar başında pərilərə bax
Çoban tütəyinə, sürülərə bax
Çıxsın köynəyindən sazım a dağlar

Bir yanda süfrədir, dostlar həvəsdə
Bir yanda gözəllər, gülləri dəsdə
Şair Qaracanam söz sinəm üsdə
Düzülübdü düzüm-düzüm a dağlar

## DAĞLAR

Gedirdim elimin ziyarətinə
Yenə sizdən düşdü yolum a dağlar
Elə bildim qartal qanadındayam
Açıldı qanadım, qolum a dağlar

Xeyli vaxtdır yaylaqları görmürəm
Çiçəkləri yar tellərnə hörmürəm
Çeşmələr üsrtündə səfa sürmürəm
Olarmı belə də zülüm a dağlar

Qaracanam gəldi ahallıq yaşım
Töküldü dişlərim, ağardı başım
Nə dərd bilənim var, nə də sirdaşım
Dərdimi sizinlə bölüm a dağlar

## DAĞLAR

Dərd çəkməkdən bu ürəyim
Bağlayıbdı yara, dağlar
Müddətdi həsrət qalmışam
Əlim çatmır yara, dağlar

Vəfalı dost öz əlinnən
Doğraya məni dərinnən
Bu könlümü dörd yerinnən
Xəncər alıb yara dağlar

İnsanlara yansın canın
Dadına yet Qaracanın
Bircə dəfə bu qocanın
Gəl işinə yara, dağlar

## YERİNDƏMİ

Dostum, danış ellərimdən
O təmtəraq yerindəmi
Qurd dərəsi, yastı yaylaq
Söönbulaq yerindəmi

Atamın kəhər kəndiri
Anamın üzlü pendiri
Nənəmin çörək təndiri
O, od-ocaq yerindəmi

Bulaq üstə erkəkləri
Yaylaqlarda əmlikləri
El toyları, şənlikləri
O kef-damaq yerindəmi

Oy dərəsində oylağım
Xramda tilov qarmağım
Tüfəngim, patron darağım
Titək, çaxmaq yerindəmi

Çoban İsa yadigarı
Ağ sürünün yataqları
Yapıncısı, çarıqları
Qarmaq çomaq yerindəmi

Ay Qaracan can sağladan
Dəm güldürən, qəm ağladan
Mizrab tutan, sim çağladan
Qızıl barmaq yerindəmi

# GÜNLƏR OLAYDI

Keçən günlərimə boylananda mən
Deyirəm gördüyüm günlər olaydı
Həyatda yaxşıdan, pisdən, yamandan
Görüb, götürdüyüm günlər olaydı

Əziyyət verərdim bu cavan cana
Gözləməzdim gecəni sübh açana
“Qırrı”dərəsindən “İbad uçan”a
Karvan ötürdüyüm günlər olaydı

El toylarnın güləşində, oynunda
Cıdır meydanında, Çəhlim yolunda
Kəhərimin yalmanında, yalında
Sürüşdə ötdüyüm günlər olaydı

Kəlmələr sinəmdə, dastan dilimdə
Qılınc qurşağımda, Yaraq əlimdə
Qalxan kürəyimdə, daraq belimdə
Çənə büründüyüm günlər olaydı

Altısı sağımda, beşi solumda
Dördü kürəyimdə, üçü qolumda
Kəndimizin palçıq, kəsək yolunda
Şələ sürüdüyüm günlər olaydı

Qaracan, sidq ilə Rəbbini səsdə
Hər zaman imdadı sən ondan isdə
Yaylaqlar qoynunda, çeşmələr üsdə
Dövranlar sürdüyüm günlər olaydı

# HARDA QALDI FƏHLƏLİYİM

Gözmü açdım qayğılara büründüm
Qəm həyatın zülümündə süründüm
Necə oldum eləcə də göründüm
Öz qismətim, öz duzum, öz çörəyim
Harda qaldı o halal fəhləliyim

Şaxtalı günlərdə əlimdə çomaq
Çobanlıq həyatım, çöllərdə yatmaq
Palçıq qarışdırmaq, divar suvamaq
Malalı tavanım, qumlu ələyim
Harda qaldı o halal fəhləliyim

Hər zaman zəhmətin çətinnə vardım
Dəryaz tayaladım, tarla suvardım
Əllərimdə külüng qayalar yardım
Dayanmadı, yorulmadı biləyim
Harda qaldı o halal fəhləliyim

O günlərim yadımda, dilimdədi
Hələ getmir qabarlar əlimdədi
Çal papağım, yapıncım əynimdədi
Belə keçdi cavanlığım, gəncliyim
Harda qaldı o halal fəhləliyim

Bəzəndə olurdu töhmət, qınağım
Bəlkə belə imiş həyat sınağım
Təsəllim, təmkinim, səbrim, dayağım
Oldu mənə Tanrım, ömür mələyim
Harda qaldı o halal fəhləliyim

İnanmazdım xoşbəxt bir gün gələcək
Yatan bəxtim taleyimə güləcək
Ay Qaracan göz yaşını siləcək
Səni imtahana çəkən fələyim
Harda qaldı o halal fəhləliyim

## GƏLƏ

Tanrı gülə taleyimə işlərim səhman gələ
Xəstələrə şəfa verən həkimi-loğman gələ
Boğazımdan qismət getmir qabağımda qalıbdı
Yeddi gündü gözləyirəm, bir mömin mehman gələ

Boğazlar bir az yaşlana, qara bığlar yağlana
Dövrələnə hədəf bəndlər-bərələr də bağlana
Təbiyyət təlaş eyləyə, hər bir tərəf çağlana
Göy gurlaya, şimşək çaxa, dağlara duman gələ

Əlimdə ixdiyar ola, qızıl taxta əyləşəm
İlahi bir nicat verə, yerlə, göylə əlləşəm
Qollarımda qılınc-qalxan yağılarla helləşəm
Bəxtim ola dövranıma bir belə fərman gələ

Yaranandan Haqqa doğru vardı ibadətimiz
Yaşadırıq, yaşayacaq milli adətlərimiz
Tarixlərdən miras qalan sənət alətlərimiz
Qara zurna, sədəfli saz, neylə, tar, kaman gələ

Təbiyyət əlvan geyinə al-yaşıla boyana
Qaracanam, yatan bəxtim, bəlkə qalxa, oyana
Göycədən şair Şəmistan, ordan bir az o yana
Borçalıdan köhnə dostlar Ziyəddin, Osman gələ

# MƏNDƏDİ

Bir bəşərəm kainata cümlə-cahan məndədi
Bağdad, Hələb, Diyarbəkir, Qars, İsfahan məndədi
Gecələrdən dan açaram, sabahlarım günəşli
Xoş sədalı bir səhərəm sirli-sübhan məndədi

İnsanlar var, dilində bal, dodaq zəban, şəkərli
İnsanlar var, kəlmələri əfi-ilan zəhərli
Məclislərdə sazlı-sözlü, meydanlarda kəhərli
Sınaqlardan sağ çıxmışam elm imtahan məndədi

Çənəsinə çənə verməm çənədən yazanlara
Tas qurub, rəm atanlara, yuxular yozanlara
Hər kəs göstərər mətahın çıxarar bazarlara
Sərraf mənəm, qiymət kəsim, ucuz, bahan məndədi

Dalğın gəmim çalxalanır dalğalar ləngərinə
Şair könlüm lövbər salıb dayaz nədi, dərin nə
Acı nədir, şirin nədir, isti nədir, sərin nə
Ləzzətini təam edən, dadlı dahan məndədi

Yolunda yoxuşlar durur, dar enişli döngələr
Səhra dünya bir karvandı, kimlər gedər, kim gələr
Qaracanam məclisimdə əyləşibdi gör kimlər
Ağsaqqallar, Bəyzadələr, əhli-ruhan məndədi

# GECƏLƏR

Axşamın çağından, dan səhərinə
Tanrı körpüsünü salan gecələr
Şəfalı canların yuxularına
Şirin laylasını çalan gecələr

Xəyalım göylərdə, boş səmalarda
Dumanlar qoynunda, sərt qayalarda
Xülyalar içində, xam xəyallarda
Düşür varlığıma talan gecələr

Bilmirəm yarandım mən nə günündə
Bəd zamanın naləsində, ünündə
Alnamaz yanında, nadan önündə
Doğrumda olubdu yalan gecələr

Yaş gözümdə gah boşalıb gah dolub
Ömrümün bar verən bağları solub
Dürlü yaralarımın məlhəmi olub
Məlalı qeydimə qalan gecələr.

Bulud kimi səmalarda bulannam
Nurlu ayın dövrəsində dolannam
Sübhə qədər ulduzlara boylannam
Qaracana həmdəm olan gecələr

## ŞEYTAN
*Təmsil*

Əstaafurullah; - yenə göründün
Mənim gözlərimə xəlvət a şeytan
Mələklər donunda, cin libasında
Alırsan qəlblərə dəvət a şeytan

Tayın ya annaxdı, ya ağlı xamdı
Yerin xarabalıq, ya qara damdı
Cahanda yaşamaq sənə haramdı
Dəyməyib başına əhlət a şeytan

Düzülübdü fitvə-fəsad canına
Süzülübdü ağı, zəhər qanına
Qaracanam, oxuyuram şanına
Gündə yeddi dəfə lənət a şeytan

## YERİNDƏMİ

Badi-səba söylə mənə, oylaqlar yerindəmi
Yurdumuzda alovlanan, ocaqlar yerindəmi
Qalxan qolda, qılınc əldə, yəhər köhlən belində
Meydanda atlar oynadan qoçaqlar yerindəmi

Sürülərin süd bitonu, yağ qazanı, çəlləyi
Babamın pendir çanağı, nənəmin un ələyi
Qulunun qarmaq çomağı, xan babamın tütəyi
Ağ sürülər, göy yaylaqlar, yataqlar yerindəmi

Qaracanam nəsillərə yadigar buyurduğum
Zəhmətimlə yaratdığım, əllərimlə qoyduğum
Dərgahında dirsəklənib, laylasına uyduğum
Orta qılıc, yasdı dərə, bulaqlar yerindəmi

# ZAMANMI DƏYİŞİB, ÇAĞMI DƏYİŞİB

Gözümə talalı görünür dağlar
Aranmı dəyişib, dağmı dəyişib
Nə tez sovulubdu meyvəli bağlar
Fəsilmi dəyişib, bağmı dəyişib

Seçə bilməyirəm, hamsı qarışıq
Kimlərdi xanəndə, kimlərdi aşıq
Artıq böyük olub çömçədən qaşıq
Zamanmı dəyişib, çağmı dəyişib

Halva qazanında dolma, aş bişir
Çaqqal qəh-qəh çəkir, meymun irişir
Şamama tağında qarpız yetişir
Bostanmı dəyişib, tağmı dəyişib

Bir qaşıq yal üçün girib qılığa
Mənə meydan açıb “hamparsın dığa”
Qatıq yağa dönüb, yağ da qatığa
Qatıqmı dəyişib, yağmı dəyişib

Şəriyyətin dəryasından keçilmir
Şirin şərab haram olub, içilmir
Səma yerdən, yer səmadan seçilmir
Qaramı dəyişib, ağmı dəyişib

Qaracanam, kiməm, hələ bilmirəm
Qəti bir qərara gələ bilmirəm
Qocayam, cavanam bilə bilmirəm
Saqqalmı dəyişib, bığmı dəyişib

# SALAMƏLEYKÜM

Vəzifəmdən gedən gündən, getdi, salaməleyküm
Gözlərimdən uzaqlaşdı, itdi, salaməleyküm
Cib boşalan bir günümdən, yanlarım da boşaldı
Bununla da xətir-hörmət bitdi salaməleyküm.

Bu gününü yaşa hələ, güman yoxdur sabaha
Sığın evdə baş yoldaşna, göydə o bir Allaha
Taxtım döndü, bəxtim yatdı, gətirmir əlim daha
Əl gətirən dövran başa yetdi, salaməleyküm.

Üzbəüz, qabaq-qabağa çörəyimi yeyənlər
"Arxanda dayaq durmuşuq" söyləyənlər, deyənlər
Üzümə gülə-gülə, izimə daş döşəyənlər
Gözlərimə pərdələri örtdü, salaməleyküm.

Kürəyimdə kotan çəkən, şumumda turp əkənlər
Qollarıma qandal vurub, qıçlarımdan çəkənlər
Ayağmın altını qazan, yerimə göz dikənlər
Özünü karol  kürsümə dürtdü, salaməleyküm.

Sanırdım ki, dərrakalı, kamil pür ağılmışam
Sən deməynən başdan-başa bir qara nağılmışam
Ayılıb, qalxıb gördüm ki, sökülüb dağılmışam
Bilmədim ki, inandığım qurddu, salaməleyküm.

Dost dayanar dayağında, düşmən səngərindədi
Qurmaq, yaratmaq, yaşatmaq, Tanrının əlindədi
Çarxı fələk fərmanında qərarı hökmündədi
Ay Qaracan oynadığın nərddi, salaməleyküm.

## AĞIL VERMƏDİYİNİ ALLAH DA VERMƏZ

Allaha yalvarma, ağlına yalvar
Ağıl vermədiyini Allah da verməz
Nə Fələkdən, nə bəndədən incimə
Ağıl vermədiyini Allah da verməz

Allah dağna baxıb ona qar verir
Bağbanına baxıb  bağa bar verir
Ağılına baxıb sənə var verir
Ağıl vermədiyini Allah da verməz

Ay Qaracan ömür pənahına bax
Savabından dönüb günahına bax
Ön ağlına, sonra Allahına bax
Ağıl vermədiyini Allah da verməz

## QARALANMASIN

Bu çərxi fələkdən istəyim budur
Heç kəsin qisməti paralanmasın
Taleyi yar ola, iqbalı gülə
Yarda öz yarından yaralamasın

Alından pozulmaz yazılan yazı
Haqqın hökümünə oluruq razı
Kəssin kəbinini bir mömin qazı
Sevən də sevəndən  aralanmasın

Qaracan, yadmıza yaxınlarmıza
Vacibdir hörmətmiz baxanlarmıza
Tanrının əlinnən alınlarmıza
Yazılan yazılar qaralanmasın

# BİLMİRƏM

*Rüşvətxor, vicdansız məmurun dili ilə*

Sən “bu” qədər verməlisən
Azmı, çoxdumu bilmirəm
Dərindən soyulmalısan
Varmı, yoxdumu bilmirəm

Eşidirmi qulaqların
“Paçka”ların “Qalaq”ların
Evdə arvad, uşaqların
Acdı, toxdumu bilmirəm

Söyləmə nahaqq, haqqımı
Danışma çuqqu, çaqqımı
Tez ol get gətir haqqımı
Alma vaxdımı, bilmirəm

Gedib torpaqlar, mənə nə
Əsir dustaqlar, mənə nə
Analar ağlar, mənə nə
Yaşlar axdımı, bilmirəm

Mənim adım Zalımmirdi
Sözüm qətidi, əmirdi
Canın poladdı, dəmirdi
Yoxsa qaxdımı bilmirəm

Qənim oldu; Günahımmı....
Yoxsa mənim tamahımmı...
Qaracanmı, Allahımmı
Yıxdı taxtımı, bilmirəm

## DİLİM

Düşdün təlxəklərin təlxək oynuna,
Neçə dost-sirdaşı itirdin, dilim.
Nə gecən var idi, nə də gündüzün,
Anadil quşu tək ötürdün, dilim.

Halal zəhmətimi harama qatdın,
Tələyə tuşlandın, tilsimə batdın.
Mənfur bəndələrin sehrinə yatdın,
Günahlar, böhtanlar götürdün, dilim.

Qaracanam, səni dağlamalıyam,
Çəkib kəməndinən bağlamalıyam.
Dilim-dilim kəsib doğramalıyam,
Axırmı gör hara gətirdin, dilim.

## BU GECƏ YUXUMDA ANAMI GÖRDÜM

Bu gecə yuxumda anamı gördüm,
Elə bil açıldı qolum, qanadım.
Bir anlıq yuxuda görməklə onu,
Yüz illik analı ömür yaşadım.

Mələkləri gördüm qolunda onun,
Hurilər sağında-solunda onun,
Yönüm qibləgaha, üzüm Allaha,
Baş əydim ruhunun önündə onun.

Nə yaxşı yuxuma girdin, ay ana,
Uşaqlığım xeyli gəldi yaxına,
Cəmi köçənlərin ruhuna gərək
Hər cümə axşamı yasin oxuna.

## DAĞLARA, DAĞLARA

*Şair dostum Şəmistan Göycəliyə*

Ay Şəmistan, dur, atlanaq,
Çıxaq dağlara, dağlara.
Açaq sinə dəftərini,
Yazaq dağlara, dağlara.

Qonaq olaq çeşmələrə,
Çobanlara, binələrə.
Qalxaq qarlı zirvələrə,
Baxaq dağlara, dağlara.

Seyr eyləyək yaylaqları,
Sərin lilpar bulaqları.
İgidləri, qoçaqları
Yığaq dağlara, dağlara.

Yalnı aşaq gədihlərin,
Yalmanında kəhərlərin.
Əsir, asta sərin-sərin,
Sazaq dağlara, dağlara.

Borandan, qardan ötüşdüm,
Oymaqlar ilə görüşdüm.
Qaracanam, heyif düşdüm
Uzaq dağlara, dağlara.

## NİYƏ MƏN BU QƏDƏR KÖVRƏK OLMUŞAM

Ömürmü qocalıb, yoxsa ağılmı,
Niyə mən bu qədər kövrək olmuşam.
Yazdığım dastanmı, yoxsa nağılmı,
Niyə mən bu qədər kövrək olmuşam.

Sehrini görmürəm gül barmaqların,
Səsini duymuram sazın, nə tarın,
Axır gözlərimdən yaş narın-narın,
Niyə mən bu qədər kövrək olmuşam.

Qaracanam, qəddi əyən deyildim,
Nədən belə qürurumdan əyildim?
Əzəmətli bir alınmaz qalaydım,
Niyə mən bu qədər kövrək olmuşam.

## AĞRIMA, DİŞİM

Azdımı ağrılar canımda mənim
Sən də bir tərəfdən ağrıma, dişim.
Birdimi, beşdimi, bilmirəm dərdim
Yaralar sarılmır sarğıma, dişim.

Gecənin yarısı, yatıbdı həkim
Sübhə dək ağrını mən necə çəkim
Salım kəlpətini kökündən çəkim
Yaxşı düşdü mənim ağlıma, dişim.

Qaracanın dərdi başdan aşıbdı
Dostlar  uzaqlaşıb, iş dolaşıbdı
Qızıl da, gümüş də bahalaşıbdı
Gərək düzəltdirəm bağlama, dişimi.

## BU GECƏ DƏ ATAM GİRDİ YUXUMA

Bu gecə də Atam yuxuma girdi
Bir anda yuxudan oyanıb qalxdım
Surəti gözlərim önünə gəldi
Divardan asılmış əksinə baxdım

Xatirə xəncərni aldım əlimə
Sonra ehtiyatla qınına saldım,
Ruhuna dualar gəldi dilimə
Keçmiş xəyallarla xəyala daldım

Qaracanam, açdım xatirələri
Gördüm qardaşımın nərdi qalıbdı
Qeyrətli düşmənin yadigarları
Beyqeyrət qohumun dərdi qalıbdı

## BACILAR

Gör necə mehriban, necə səmimi
Belə ülvi-ləyaqətli bacılar
Bir-birinə bağlanıblar tel kimi
Səadətli, sədaqətli bacılar

Yaradanım yaradıbdı gül üzlü
Dilləri nəğməli, dodağı sözlü
Əlləri urvalı, ocağı közlü
Bol nemətli, bərəkətli bacılar

Yeri gəlsə qansızlara qan verən
Can üstündə cansızlara can verən
Məzlumlara rəhim qılıb, nan verən
Səxavətli, mərhəmətli bacılar

Qanadlanıb zirvələrdən yol aşan
Pərvazlanıb səmalarda dolaşan
Keçmişləri gələcəynə çulaşan
Saf arzulu, xoş niyyətli bacılar

Oğullarınız yəhərlənə, atlana
Qızlarınız nazlana, qanadlana
Qul Qaracan qulluğnuzda qatlana
Dəyanətli, kəramətli bacılar

## QALDI

Özüm yaylaqlarda, dağlar qoynunda,
Meyvəli bağlarım aranda qaldı.
Gəldi payız fəsli, köçmək vaxtıdı,
Deməsinlər şair boranda qaldı.

Bağlandı barxanam, yükləndi yüküm,
Yazıldı fərmanlar, oxundu hököm.
Əslim-nəcabətim, nəsilim, köküm,
Nənə-babalarım İranda qaldı.

Keçmiş tarixləri gəl salaq yada,
Hansı bir yamanlıq qalıb dünyada.
Haramdan doymayan, ay haramzada,
Yediyin haramlar haranda qaldı.

Varmı yad eyləyən, yadına salan
Çarəsiz dərdinin qeydinə qalan
İllərlə sızlayan, göynəyən, yanan
Hicranın, sağalmaz yaranda qaldı.

Palıdın kökü var, binanın himi,
Ürəyimin teli var, qəlbimin simi,
Elin mükafatı, Qaracan kimi
Yaradanda qaldı, quranda qaldı.

## ÜRƏYİM CAVANDI, YAŞ YETMİŞDİ

Nər düzüldü karvanıma, köçümə,
Tər süzüldü damla-damla içimə,
Zaman-zaman saqqalıma, saçıma.
Tanrı öz nurundan qar ələmişdi,
Ürəyim cavandı..,
Yaş yetmişdi!...

Kamil sənətkaram, meydangirimli,
Davasız dərdlərə sinə gərimli,
Rəbbidən güc alan şair Kərimli
Sənət meydanında səngiməmişdi,
Ürəyi  cavandı..,
Yaş yetmişdi!...

Əl üzmərəm ətəyindən Əlinin,
Davamıyam Ələsgərin, Alının,
Dağlar oğlu Qaracan Borçalının
Köhləni heç zaman büdrəməmişdi,
Ürəyi cavandı..,
Yaş Yetmişdi!...

***2017***

# TƏKƏLİDƏDİ

***Borçalı mahalının Kür üstü Kosalı kəndindən bir nəfər qohumum məndən soruşdu; - İsa dayıma Kosalıda könül sevdiyi gözəl olmadımı, getdi Təkəlidə evləndi və ömrünü axıradək orada yaşadı? Cavabında dedim:***

Dostum, Kosalıda çoxdu gözəllər,
Amma göyçəkləri Təkəlidədi.
Kosalının doğru kəlamları var
Məna gerçəkliyi Təkəlidədi.

Kosalı mənim də obam, elimdi,
Sinəmdən süzülən kəlmələrimdi.
Ata yurdum; - bir yaralı yerimdi,
Dövrümün ləngəri Təkəlidədi.

Bu elin hər kəsi istiqanlıdı,
Əslimiz, nəslimiz Babaxanlıdı.
Kosalı əzəldən qohumcanlıdı,
Qohum pərvərləri Təkəlidədi.

Bir cənnət yaranıb Kür qırağında,
Çıraqlar gur yanır hər bucağında.
Şeirin, sənətin nur ocağında,
Yanan səməndəri Təkəlidədi.

Bir az da danışaq dədə Bilaldan,
Deyirlər qocalıb, düşübdü haldan,
"Zəkalı ağıldan", şanalı dildən
"Dürlü kəlmələri" ...Təkəlidədi.

Qaracan yad eldə, yad diyardadı,
Vətən həsrətində, intizardadı.
İsa dayının yurdu Kosalıdadı,
Mənzili-məzarı Təkəlidədi.

## BAĞIŞLA A KƏNDİM, BAĞIŞLA MƏNİ

Çoxdandır görüşə gələ bilmirəm.
Bağışla a kəndim, bağışla məni
Məndən inciyibdir bilirəm yaylaq
Bağışla a kəndim, bağışla məni

Burda dağ görmürəm doloya qalxam
Zirvədən boylanam, ellərə baxam.
Ordadır çomağım, çarığım, cuxam
Bağışla a kəndim, bağışla məni

Şehli çəmənlərdən çəkilmir nəmlik
Yallı yamaclardan yığılmır yemlik
Güllü yaylaqlarda kəsilmir əmlik
Bağışla a kəndim, bağışla məni

Alovlanmır nənələrin təndiri
Mayalanmır sürülərin pendiri
Hörüklənmir kəhərlərin kəndiri
Bağışla a kəndim, bağışla məni

Tələsirdik gəlsin payız ayları
Oxusun məclisdə el aşıqları
Aşbaz qazanları, çadır toyları
Bağışla a kəndim, bağışla məni

Sənsən son ümidim, pənahım mənim
Dünənim, bu günüm, sabahım mənim
Əgər olubdursa günahım mənim
Bağışla a kəndim, bağışla məni

Demə ki,qoynundan uzaqlaşmışam
Qərib bir diyarda məskunlaşmışam
Sənin çörəyinlə boya  çatmışam
Bağışla a kəndim, bağışla məni

Bu kənddə bir kasıb kişinin oğluyam
Yurdun  ağasıyam, elin quluyam
Bütün ömrüm boyu sənə borcluyam
Bağışla a kəndim, bağışla məni.

Daha dönməz qocalığma gənçliyim
Yaylaqlarda, çəmənlərdə dinçliyim
Bəlkə olub qammazlığım gincliyim
Bağışla a kəndim, bağışla məni

Qaracanam, qaraları siləcəm
Qoynunda reyhanlar, güllər əkəcəm
Hüzuruna dizin-dizin gələcəm
Bağışla a kəndim, bağışla məni

# QARĞALAR

Gündüz qalxarsınız Qəlbi dağına
Gecə yığılarsız kola, qarğalar.
Tökülərsiz bostanların tağına
Baxmazsız dəymişə, kala, qarğalar.

Nə bülbül, nə tərlan, nə də sonasız
Çöllərdə çöplənən qara zağasız
Dedim bəlkə özünüzdən qanasız
Özüm dillənmirəm hələ, qarğalar.

Eşib dənləməyin toxumu yerdən
İstədiyiniz qədər gəlin verim dən
Öz-özümə durub, deyirəm hərdən
Bəlkə gələcəklər yola, qarağalar.

Məhsul gətirməyir nə yazım, yayım
Dənlənir toxumum, dağılır tayım
Nişanlanar oxum, çəkilər yayım
Düşərsiniz pələn-pələ, qarğalar

Deyirlər ki, qara qarğa bəzənməz
“Ala qarğa şux tərlanı bəyənməz”
Qul Qaracan  belə dərdə dözənməz
Ay qara qarğalar, ala qarğalar

## SƏHƏR YELLƏRİ

***Belarusya Respublikasının Qomel vilayətində hərbi qulluqda olanda, may 1967-ci il.***

Bu qərib ölkədə, müşgül çağımda
Məlhəmdi ətirin səhər yellri.
Boranlı dağımda, barlı bağımda
Lalələr bitirin səhər yelləri.

Açılmayan qönçələrimin gülündən,
Danışmayan telli sazımın dilindən,
Borçalı mahalı, Qafqaz elindən
Bir xəbər gətirin səhər yelləri.

Salamlayın atamın əllərini,
Sığallayın anamın tellərini,
Qərib Qaracanın  kəlmələrini,
Ellərə yetirin səhər yelləri

## DÜNYA

Dönür dövran, gedir karvan
Dumanlanır halım, dünya
Qanlar axır qılıncından
Yaranıbsan zalım dünya.

Zaman qatil, insan əsir
Vaxt, vədə yaman tələsir
Zalım doğru, mən müqəssir
Dərdi kimə qılım, dünya.

Duman, çən durur dağımda,
Xəzanlar tökür bağım da,
Qoyma məni bu çağımda
İntizarda qalım, dünya

Bəkləyirəm soylarını
Bəsləyirəm boylarını
Nəvələrmin toylarını
Gərək özüm çalım, dünya.

Qaracana fəndi-kələk
Hey qururdu felli fələk
Yaylaqlar qoynuna, gərək
Ömür yolmu salım, dünya

***May 2017-ci il***

## İNDƏN BELƏDİ

Çox şükür yetişdi ahıllıq yaşım
Galladarlıq dövrüm indən belədir.
Tanrının əmridir ağardı başım
Ağsaqqallıq ömrüm indən belədir.

Bilirəm hökmdü fələk dediyi
Dolandım dolayı, aşdım gədiyi
Rəbbimin ömrümə bəxş eylədiyi
İxdiyarım, əmrim indən belədir.

Yaradıram nəsillərə qalmağa
Qəm həyatın dəm havasın çalmağa
Dərgahında duaları qılmağa
Ziyarətim, pirim indən belədir

Qoymaram ki, nalı qopsun, laxlasın
Köhlən atım mənzilini haqlasın
Uca Tanrı son eybindən saxlasın
Gizli, pünhan sirrim indən belədir.

Yaranmışam haqq işini düzməyə
Dəmi yaşatmağa, qəmi üzməyə
Qaracanam, hər əzaba dözməyə
Təmkinim, səbrim indən belədir

***İyun 2017***

## "KİŞİ"LƏNİBSƏN

Burnunu dikəldib, bığları burub
Axır vaxtlar yaman "kişi"lənibsən
Ardağanın toyunda möhkəm vurub
Dırdağanıın üstə şeşələnibsən

Əyləşənlər Tamadadan söz alıb
Bəylər şərəfinə dualar qılıb.
Sən isə arxası üstə yıxılıb,
Uzunqulaq kimi eşələnibsən

Sənətin bunlardır yaramaz, axmaq
Düşmənlə dost olub, dostunu atmaq
Ara vurmaq, qiybət qırmaq, aldatmaq
Gör nələr üstündə peşələnibsən.

# HAQQ AŞIĞIYAM MƏN

Biri dedi sinədə
Qaynayıb, aşıb, daşan
Bulaq aşığıyam mən

Biri dedi zülmətə
Nurlu şəfəqlər saçan
Çıraq aşığıyam mən

Biri dedi ellərdən
Şad xəbərlər gətirən
Soraq aşığıyam mən

Biri dedi ürəkdə
Od-alovu sönməyən
Ocaq aşığıyam mən

Biri dedi bir yolluq
Cəmiyyətin üzündən
İraq aşığıyam mən

Qaracanam, bunların
Hamısından uzağam
Sənəti mətin duran
Əyilməyən bir dağam
Həm də odlu çırağam
Anlayanlar yanında
Həqiqət aşığıyam
El yaraşığıyam mən
Rəbbimin dərgahında
Haqq aşığıyam mən

## .....BALA

Sənin söylədiyin o keçmişləri
Özüm gözlərimlə görmüşəm, bala
Dözülməz, çəkilməz, zülüm dərdləri
Boynumda, çiynimdə çəkmişəm, bala

Hər yanım toy, məclis, alayım oldu
Yaylaqlar qoynunda yaz, yayım oldu
Rəbbidən qurulan sarayım oldu
Belə bir şən ömür sürmüşəm, bala

Qəlbimdə divan var, divanələr var
Sinəmdə düyün var, dürdanələr var
Ömür çırağımda pərvanələr var
Mən də bu şamlara yanmışam, bala

Sir açmaram hər qafaya, hər daza
Baş qoşmaram hər tulaya, hər taza
Satmamışam mətahımı qanmaza
Zərmi zər qanana satmışam, bala

Qaracanam, fikrim dumanlanıbdı
Sənət dünyam, hər havanı çalıbdı
Cavanlığım çox uzaqda qalıbdı
Daha uşaq deyiləm, yetmişəm, bala

***İyul 2017***

## XORUZ

Az oyna sən mənim əsəblərimlə
Qoy yatım səhərin yuxusun, Xoruz.
Hər tərəf ətirşah, cənnəti-behişt
Alım yaz-baharın qoxusun, Xoruz.

Sərsəm oyanmışam, çox az yatmışam
Lovğalanma, yuxumu da qatmışam
Kilid vurub hinində banlatmışam
Sənin kimisinin çoxusun, Xoruz.

Dinlə Qaracanın dür kəlməsini
Sənət dünyasının xəzinəsini
Bəsdir banladığın, batır səsini
İndi şeyda bülbül oxusun, Xoruz.

## SABAH KƏNDİMİZDƏ QONAQ OLACAM

***14 iyul 2017-ci il***

Axşamdır, yığışıb düşürəm yola
Sabah kəndimizdə qonaq olacam
Atamın bağında bar ağacının
Barlı qollarında budaq olacam

Yayılar gəlişim bütün mahala
Tutular görüşüm sorğu-suala,
Kərimliyəm dolanmaram dal-dala
Dost qohum önündə sınaq olacam.

Qaracan səbr eylə, qəzəbini ud
Zikr eylə Xudanı, şeytanı unud
Kiminin gözündə bir qara bulud
Kiminin gözündə çıraq olacam.

***15 iyul 2017-ci il, Təkəli kəndi***

Açıldı səhərim, çatdı kəhərim
Gəlib kəndimizin qonağı oldum
Atamın bəhərli, barlı bağında
Meyvəli ağacın budağı oldum

Məni görcək alovlandı ocaqlar
Şöləlndi şamlar, yandı çıraqlar
Açıldı çiçəklər, coşdu bulaqlar
Dahanların dadı-damağı oldum

Sinə Qaracanam, sinəm doludu
Tarixim, keçmişim çox-cox uludu
Kiminin gözünün qara buludu
Kiminin gözünün çırağı oldum.

## HƏLƏ BU USTADDAN YAZMAMIŞAM MƏN

*Borçalı mahalının Qaçağan kəndindən (əsli İncədən) olan ustad sənətkar aşıq Göycəyə*

Ozan dəryasında üzən əllərim
Dərinlər, incilər gəzən əllərim
Dastanlar, qoşmalar yazan əllərim
Hələ bu ustaddan yazmamışam mən

Borçalının böyük ustadı Göycə
Bir yanı Borçalı, bir yanı İncə
Dastan söyləyərdi qırx gün, qırx gecə
Hələ bu ustaddan yazmamışam mən

Qaməti qürurlu, qala bürcülü
Meydan yaraşıqlı, igid ölçülü
Hafizəsi dərin, kamalı güclü
Hələ bu ustaddan yazmamışam mən

Bu elin tarixi uludur, ulu
Cəmil, Zakir, Vəkil, Vəli, Rəsulu,
Əvəz olunmazdı Göycənin yolu
Hələ bu ustaddan yazmamışam mən.

Ustadı Tağoğlu Mustafa oldu,
Ağacandan, dərin dərsini  aldı
Yerində şah kimi Şahbazı qaldı
Hələ bu ustaddan yazmamışam mən.

Qaracanın zaval yoxdur zəndinə
Ləl düzülür kəlməsinə, bəndinə
Nə qədər yazsam da, deyəcəm yenə
Hələ bu ustaddan yazmamışam mən...

***İyul 2017-ci il***

# DƏMİR ATIM

Məkana az qalıb, yarı yol keçib
Yolun kəndirini qır dəmir atım
Qarşıda eniş var, yoxuş var hələ
Az özünü incit, yor dəmir atım

Asta get qabaqda yol aşırımdı
Sağ tərəf yarğandı, sol sıldırımdı
Yolumu gözləyən vəfadarımdı
Mənzili sağ başa vur dəmir atım

Fəsilin boranlı, qarlı çağında
Aylı gecələrin qaranlığında
Dumanlı dağların doloylarında
Kəsər yollarını qar dəmir atım

Buradan düz gedir yol kəsəsinə
Yanacaq doldurma məntəqəsinə
Beş yüz klometr son nöqtəsinə
Yüz də ordan anrı var dəmir atım

Qaracanı xəta-bəladan ötür
Karvanı salamat mənzilə yetir
Mənbədən-mənsəbə min kilometr
Eyləmə səbrini dar dəmir atım

## YAĞILCANIN YAYLAĞINDA

Mən cənnəti gördüm, lələ
Yağılcanın yaylağında
Söz sinəmdə gəldi dilə
Yağılcanın  yaylağında

Nisgilim sərdən ötüşdü
Həsrətim güldü, görüşdü
Keçmişlərim yada düşdü
Yağılcanın yaylağında

Yal-yamaclar laləlləndi
Köç-karvanım binələndi
Qaracan əhli əyləndi
Yağılcanın yaylağında

## OZANLARIN XƏLƏFİYƏM

Xalqımın başın ucaldan
Söhbətiyəm,şərəfiyəm
İlməsində düyünlənən
Açılmayan kələfiyəm

Yaranmışam, el oğluyam
Elinən güləm, ağlıyam
Mən bu torpağa bağlıyam
Öz xalqımın tərəfiyəm

Qaracanam yurd elimdə
Tanrı əli kürəyimdə
Haqqın kəlamı dilimdə
Ozanların xələfiyəm

## DANIŞAQ

Aqillərdən, möminlərdən danışdıq
Gəl bir az da naqqallardan danışaq
Gözləri gözündə, barmağı mizdə
Tərəzidən, baqqallardan danışaq.

Səhər, axşam ulum-ulum ulayan
Harınnayan, el malını talayan
Zahiri dost, daxili parçalayan
Canavardan, çaqqallardan danışaq.

Ulduz gecə parlar, günəş də gündüz
Əyriynən əyri ol, düzünən də düz
Qaracanla qarşı əyləş üzbəüz
Nurani ağsaqqallardan danışaq

## İLANLAR

Kimsə bizdən yenə qiybət eyləyir
Gəl bu ilanlardan danışma lələ
Ovsunlanıb, tilsimlənib sehrinə
Boynundan sallanıb, sarışma lələ.

Unut bu lənəti, gəl salma yada
Ağına da lənət, qarasına da.
Dolansa boynuna bir ani anda
Canın qurtarmağa çalışma lələ.

Fərqi yoxdur ya qarası, ya ağı
Çənə damağında, dişində ağı
Dilinin ucunda zəhər sancağı
Heç vaxt ona dəyib, dolaşma lələ

Deyirlər ilanı görənə lənət,
Onu görüb, öldürməyənə lənət.
Öldürübən basdırmayana lənət,
İlanın qanına bulaşma lələ.

Tanrı ona bir camal naxış verib,
Göz verməyib, zəhimli baxış verib.
Qaracana bircə yol çıxış verib,
Lənətə gəlmişə calaşma  lələ.

## KEÇƏCƏKDİR

Hansı ilin yayı isti keçərsə
Deyirlər ki, qışı sərt  keçəcəkdir.
İl quraqlıq keçsə, məhsul olmasa
Əhvalı-şərifmiz pərt keçəcəkdir.

Hər kəs keçməlidir öz ələyindən
Halal zəhmətinnən, pak əməyinnən.
Dövran belə qalmaz, haqq köməyinnən
Ürəklərdən ağrı, dərd keçəcəkdir.

Qaracan, qulusan sən yaradanın
Pozulmaz əhvalın, qaralmaz qanın.
Şükür olsun ömrün, günün, dövranın
Bax belə mərd gəlib, mərd keçəcəkdir

## BAHALIQ

Anda başımızı bürüdü böhran
Üstümüzü tez aldırdı bahalıq.
Elə bil qəfildən  devrildi dövran
Lövbərini zərb saldırdı bahalıq.

İqbalımız yatdı, cəhənnəm olsun,
Malı ucuz satdı, cəhənnəm olsun,
Qazancımız batdı, cəhənnəm olsun,
Mayamızı da yandırdı bahalıq.

Bahalıq qanunu çıxandan bəri
Dayanıbdı baqqalların ləngəri
Xalqın qanın soran maşennikləri
Az da olsa bir qandırdı bahalıq.

Əyildi qururlar, qamət də itdi,
Yox oldu qədir də, qiymət də itdi,
Xətir yoxa cıxdı, hörmət də itdi,
Hardan gəldi, nə andırdı bahalıq.

Nə vəzifə qaldı, nə də kabinet
Ay Qaracan səbirlı ol, şükür et.
Kənarlanma, haqqın yolu ilə get
Bəlkə qolunu qaldırdı bahalıq.

# ÖZÜNƏ GƏL

Bir az əlinə var düşüb
Dalgalanma, özünə gəl.
Yerişin yaman dəyişib
Yorğalanma, özünə gəl.

Beş manat tapıbsan, qağa
Havalanıb qalxma dağa
Ləngər vurub sola, sağa
Yırğalanma, özünə gəl.

Dövranın yana əyilib
Başına da hava gəlib
Manat görüb gədələnib
Dığalanma, özünə gəl.

Lovğalar qatıb sözünə
Sürmələr cəkib gözünə
Telləri tökub üzünə
Cığalanma, özünə gəl.

Qaracan qurşayıb yaraq
Qılınc, qalxan, tüfəng, daraq
Qulaqlarından asaraq
Sırğalanma, özünə gəl.

## QORU

Üzüm Allahdadır, yönüm qibləyə
İlahi, sən məni böhtandan qoru.
Tələsi tilsimli, fəndi də felli
Mələk donlu şərli-şeytandan qoru

Təlxək olub, tələ qursa oynuma
Ovsunlayıb gəlib girsə qoynuma.
Tilsimləyib dolanarsa boynuma
Şahmardan açıllam, kəltəndən qoru.

İnsan külək kimi hər yana əsməz
Səbri olan səbr eyləyər, tələsməz.
Sildırım qayalar yolumu kəsməz
Kəsəkdən, çınqıldan, qaltandan qoru.

Deməyin ki, yanılaram, çaşaram
Qayalardan, sıldırımdan aşaram
Kasıblarla, yoxsullarla yaşaram
Kərəmsiz ağadan, Sultandan qoru.

Qarşıma tuş olsa əjdaha, aslan
Ya pələng, ya şahmar, ya əfi ilan.
Qaracanam, qollarımdan asılan
Qandaldan qırıllam, qaytandan qoru.

# KÖÇƏSGƏRDƏ

***Ağstafa bölgəsinin Köçəsgər kəndinə (bu kəndin şair oğlu) Məmmədlə məclisə getməli olduq. O, mənə dedi: Səfərimiz haqda təəssüratını yazarsan. Gördüklərim bunlar oldu.***

Məclis təzə başlamışdı
Gəldik Köçəsgərə Məmməd
Bir  tərəfdə yayma xəngəl
Bir yanda bal, kərə Məmməd.

Parladı şamlar, çiraqlar
Gurladı yasaq yaraqlar
Dalbadal gələn qonaqlar
Açıldı bənd, bərə Məmməd.

“Süzüldükcə yavaş-yavaş”
Dumanlanır dumanlı baş
Onluqlar aşığa şabaş
Yüzlüklər nəmərə Məmməd.

Baş qoymadılar balınca
Vurdular sübh açılınca
Bozartma, kabab dalınca
Gəldi beçə, fərə Məmməd.

Ay Qaracan belə yerdə
Dərman olar hər bir dərdə
Arzularam Köçəsgərdə
Birdə süfrə sərə Məmməd.

***1997-ci il***

## QONAQLAR
## (Turşməzə)

“Qonaq var ki, ancaq çörəklə pendir.
Qonaq var, beçəynən yola salarsan
Qonaq var ki, qoç kəsirsən bəs etmir.
Gərək ona tuncu bir mal kəsəsən”

***Görək bu qonaq hansındandır...***

Tutun qolundan qonağın
Ayaq üstə düz gətirin
Səhər-səhər paxmeliyə
“Əlli” azdı, “yüz” gətirin

Qonaq yolu açıq yoldu
Şükür olsun, hər şey boldu
Gördünüz ki, “yüz” az oldu
Bir  “əlli” də süz;-gətirin

Bu adət var; elmizdədi
Qonaq müqəddəs bəndədi
Qalxıb nəyi ki, istədi....
Söhbətsiz-sözsüz gətirin

Olmamaq biz üçün qınaq
Gərək inciməsin qonaq
Süfrəyə şərabdan qabaq
Qaymaq, xama, üz gətirin

Eyvanda qoyulsun masa
Aşbazlar qazanlar asa
Qoç kəsin, qonaq doymasa
Bir tuncu öküz gətirin

Tez gəlsin qızarmış cücə
Yanında da yarım "cecə"
Səhər kabablar bişincə
Xaşı sümüksüz gətirin

Gördüm ki, dəmlənib dəmi
Deyir ki, dur süz badəmi
Gəlibdir yuxu həmdəmi
Keçə, həsir, bez gətirin.

Baxdıq ki, batıbdı yastıq
Yediyni qaytarıb artıq
Əgər varsa üzlü qatıq
Yoxsa da üzsüz gətirin

Dəm saxlamağa dəbində
Əllərin olsun cibində.
Qaracan tək dost evində
İz saxlayıb üz gətirin.

## BÜLBÜL VƏ BAYQUŞ

Bir bayquşun xanəsində
Bülbül gördüm, qəfəsdədi
Baş düşüb, qanad sərilib
Baxdım ki, son nəfəsdədi.

Dərhal ona su yetirdim
Boynundan tutub içirdim
Onu həyata gətirdim
Artıq can ayaq üstədi

Gözümə duman göründü
Vicudum qana büründü
Bayquş dörd yerə bölündü
Vicdanım belə səsdədi...

## OĞUL

Addım-addım səndən yazan
İzinnən gedəndi, oğul
Ayağnın altını qazan
Üzünə güləndi, oğul

Düyünü  var hər ilmənin
Deyimi var hər kəlmənin
Sənin birinci düşmənin
Sirrini biləndi oğul

Çağrılmamış yerə varma
Un əvəznə çəkmə yarma
Oğrunu çöldə axtarma
Evinə gələndi oğul

Yalandan meydan sulayan
Ac canavar tək ulayan
Qarşında quyruq bulayan
Cibini güdəndi oğul

Yanında boynunu buran
Qıraqda qəsdinə duran
Bil, səni arxadan vuran
Çörəyni yeyəndi oğul

Qaracan, dost olma toxla
Dostun əvvəl zatın, yoxla
Yaddaşında möhkəm saxla
Bax bu altı bəndi oğul

## GƏRƏK

Hər bir kəsin, hər bəndənin
El-obası kəndi gərək
Aşığın nağıl, dastanı
Düyün, qıfılbəndi gərək

Kişinin budur sərvəti
Saxlamasın ədavəti
Əllərinin səxavəti
Dilində də qəndi gərək

Hər kimin varsa kamalı
Xoş olar onun amalı
Gözəlin göyçək camalı
Bir də əqli, zəndi gərək

Qarıların baş çalmağı
Qocaların əl çomağı
Cahalların qurşamağı
Qızların ürbəndi gərək

Haramlar yığan yüz əlin
Yerin verməz bir düz əlin
Hər şeirin, hər qəzəlin
Heca vəzni, bəndi gərək

Çox boylanma sola, sağa
Qaracanla gəl qabağa
Kor atın demirəm qağa
Qır atın nalbəndi gərək

## GƏDƏ

Özün-özünə qapanıb
İçində dərdləşmə, gədə
Atını tərsinə çapıb
Çox belə sərtləşmə, gədə
İşlərinin yönünə get
Bu qədər pərtləşmə, gədə
Səbrlə, təmkinlə davran
Bir belə tərsləşmə, gədə
Sirrini sinəndə saxla
Tək məsləhədləşmə gədə
Keç kənardan heç kimsəynən
Savaşma, idləşmə, gədə
Yağlı yeməmişdən əvvəl
Bığlarını eşmə, gədə
Belin əgər ağrımırsa

Yalandan gərnəşmə, gədə
Dedim əl çək, xeyir verməz
Saxta sənədləşmə, gədə
Vəzifədən düşdün; - çəkil
Yetənlə dilləşmə, gədə
Qaracanam, çox söylədim,
Dedim ki, gəl hər yetənnən
Belə də üzləşmə, gədə
Baxmadın bu məsləhətmə,
Ləl hikmətli nəsihətmə
İndi də düşüb canına
Ulaşma, mələşmə, gədə

## NƏSİHƏTNAMƏ

Xudaya yönün çevirmək
Səhər, axşam dua etmək
Sidqinən inam gətirmək
İbadətdi, ziyarətdi

Səqirlərə fitrə vermək
Xəstənin yanına getmək
Yoxsullara kömək etmək
Şərafətdi, kəramətdi

Dost, qohumu yada salmaq
Müşgülün könlünü almaq
Məzlumun qeydinə qalmaq
İnsanlıqda mərhəmətdi

Uzaqlaşıb gözdən itmək
Yalandan böhtanlar etmək
Şeytan fitvəsinə getmək
Bağışlanmaz qəbahətdi

Qudurub, həddini aşmaq
Dostu darda qoyub qaçmaq
Namus, vicdana sataşmaq
Dözülməyən xəyanətdi

Ay Qaracan yananlara
Əsli-zatın dananlara
Nəsihəti qananalara
Bu sözlərim kifayətdi

## MÜXƏNNƏT

Əlləri qurşaqda, sirri qarnında
İnsanlardan uzaq durar müxənnət
Nə tələsməz, nə təntiməz, nə dinməz
İşini planla qurar müxənnət

Görmək olmur, buynuzu içindədi
Bəd niyyətdi, bayquşun seçimindədi
Qiyafəsi tülkünün biçimindədi
Gah qızarar gah bozarar müxənnət

Burula-burula sakit, lal axar
Altından-altından ətrafa baxar
Qəfildən qalxaraq arxadan çaxar
Vuranda kürəkdən vurar müxənnət

Belələri nə qazanıb, nə qoyub
Nəyi tapıb, nəyi uduzub, udub
Birni qurtarmamış, dubarə durub
Növbəti hədəfi arar müxənnət

Dəyməyibdi dəyənəklər əngina
Hələ qaçır yaltaqların zənginə
Keçəcəkdir Qaracanın cənginə
O qaban boynunu qırar;-müxənnət

## BARIŞANMIRAM

Bu gün bir könülün xətrinə dəydim
Heç cürə özümlə barışanmıram
Nə buz tək əriyib suya dönmürəm
Nə də ki, odlanıb alışanmıram

Çuğul kəndir atdı, xəbər culadı
Tülkü tələ qurdu, çaqqal uladı
Şeytan barmaq saldı ayran buladı
Zamanın işinə qarışanmıram.

Tanrı verir dədə, insana qüvvət
Hanı məndə o bəxt, o böyük qüdrət
Qolumda gücüm yox, dizimdə taqət
Qaracanam daha yarışanmıram.

## VERMƏMİŞƏM

Ağlım üsdümdədi, hüşüm başımda
Mən sənə heç vədə söz verməmişəm
Nə vaxdı sən mənim yanıma gəldin,
Mən də durub sənə üz verməmişəm?..

Əllərimlə tac qoymuşam başına
Belə sözlər yaraşarmı yaşına?
Başdan ayağa dək əyin-başına
Zər-ziba vermişəm, bez verməmişəm

Gələndə xoş üzlə qarşılamışam
Gedəndə sovqatla yola salmışam
Qaracanam, hər qeydinə qalmışam
Mən bu əllərmilə az verməmişəm...

## BAXIN

Təzə qurtarmışdım dərədən, dağdan
İndi də çıxdığım yoxuşa baxın
Ay deyil ayrıldım borandan, qardan
Başımdan tökülən yağışa baxın

Saxlayır nəzərdə yazanım məni
Çəkir imtahana Ozanım məni
Qəfildən oxladı o zalım məni
Sinəmdə göz kimi naxışa baxın.

Nagahdan canıma təlatüm hopdu
Dedim ya mərmidi ya da ki, topdu
Şimşəkmi parladı, gurşadmı qopdu
Başımın üstündə çaxışa baxın

Qeyrəti olarmı dildən qoçağın
Odu közərərmi sönmüş ocağın
Bir yetimə çörək verən alçağın
Başına qaxdığı qaxışa baxın.

Qaracanam, qalxıb kəhərlənmişəm
Bilmirəm haraya səfərlənmişəm.
Özümdən xəbərsiz sehirlənmişəm
Məni ovsunlayan baxışa baxın

## DOSTUM ABBASA

Dövrandan danışma ay Abbas qağa
İndi başqa dövran, başqa zamandı
Dünya əzəl başdan belə yaranıb
Bir yan Günəşdirsə, bir yan dumandı

Dalğın gəmim dəryadadı, yan almaz,
Uçdu şahlıq quşum, bir daha qonmaz.
Keçdi cavanlığım dala qayıtmaz
Keçənləri yada salma, amandı.

Ay Qaracan az çabala, az əlləş
Bu fələklə az cəng eylə, az güləş
Keçən keçdi, bu gününü fikirləş
Sabah nə olacaq; - hələ gumandı

# MƏNƏ DƏ DÜŞDÜ

Bir insanın qarşısında borcluyam
Hələ çıxmamışam xəcalətindən
Hatəm səxavətli, loğman kamallı
Aləm doymur onun məharətindən

Fərqi yoxdur yaxındır, ya qıraqdı
Gələn qərib bu bəndəyə qonaqdı
Tanrı onu pir yaradıb, ocaqdı
Ayaqlar kəsilmir ziyarətindən

Bilmirəm nə vaxta bu yazıq millət
Qandallı qul kimi çəkəcək zillət
Yəqin ki, gün gələr çıxarlar əlbət
Yağı düşmənlərin əsarətindən

Qoru ömür boyu candan mərəzi
Saxla ibadəti, çəkmə qərəzi
Axirət dünyası mizan tərəzi
Haqq özü saxlasın qiyamətindən.

Şükür olsun xəta bizdən ötüşdü
Arzularımız xoş günlərlə görüşdü
Qaracanam, bir pay mənə də düşdü
Qoca təbiyyətin səxavətindən

## SAÇLARIM

Vaxt var idi darağa gəlməzdiniz
Nə tez töküldünüz qara saçlarım
Sizmi məndən küsdüz, yoxsa mən sizdən
Çox vədəsiz dəydi ara, saçlarım

Sazı qurşağıma taxa bilmirəm
Yar-yoldaş içinə çıxa bilmirəm
Aynada özümə baxa bilmirəm
Vurduz ürəyimə yara, saçlarım

Qılıncımın kəsən vaxdı var idi
İqbalımın oyaq baxdı var idi
Dövranımın qızıl taxdı var idi
Dözənmirəm intizara saçlarım

Sığalın çəkərdi tanrı mələyi
Darağın olardı dağlar küləyi,
Bağlanıb qoluma cəllad biləyi
San ki, çəkir məni dara saçlarım.

Tez dolandı nəs aylarla, nəs illər
Keçdi cavan çağlar, ötdü fəsillər
Layiqdirmi indi “qoca” desinlər
Qaracan tək sənətgara saçalarım

## BAYRAM GÜNLƏRİ

Bahar fəsli, yaz ayları, gəldi bayram günləri
Min sevinclə, mətanətlə, güldü bayram günləri
Təbiyyət əlvan geyinib, çıl-çıraqdı hər tərəf
Ürəklərə ətir saçan güldü, bayram günləri

Gurlanır tonqal tayalar, alovlanır ocaqlar
Dalğalanır daşqın çaylar, coşur çeşmə bulaqlar
Əllərdə əlvan çiçəklər, könüllərdə arzular
Sizi dəstə qarşılayan eldi, bayram günləri

Bəxtimizə günəş doğar, yediyimiz bal olar
Sinələrdən kədər gedər, gözlərə sevinc dolar
Tale gülər üzümüzə, qismətimiz bol olar
Bu il barlı-bərəkətli ildi, bayram  günləri

Çatar imdad əllərimiz hər fəqirə, müşgünə
Var dayağmız, köməyimiz hər qaçqına, köçgünə
Bu bayramın, bu baharın, bu büsatın eşqinə
Söz sinəmdə aşıb daşan seldi, bayram günləri

Ağrısı var, acısı var, haqq yanında hər canın
Hökümü var hər zamanın, hər bir saatın, hər anın
Kədəri də, sevinci də olur hər bir insanın
Əsən xəzri, gilavardı, yeldi, bayram günləri

Adam var ki, çəkiləsən, getməyəsən izinnən
Adam var  ki, imam kimi nur tökülür üzünnən
Könül qıran, qəlb güldürən, kəlməsinnən, sözünnən
Ağızda bir parça ətdi, dildi, bayram günləri.

Var elimdə öz elindən qırılan, iraqlanan
Uzaqlara yaxınlaşan, yaxınlardan yadlanan
Dar gününə kədərlənən, şad gününə şadlanan
Ürəyimdə həzin dinən, teldi bayram günləri

Hər ömürü yaşadan da, qocaldan da olar söz
İnsan oğlu hər çətinə, hər əzaba hər an döz
Nə qulaqdı, nə dodaqdı, nə ayaqdı, nə də göz
Verəni də, alanı da, əldi, bayram günləri

Yağış göydən leysan tökür, külək hələ əsir də
Bu zülümə qan ağlayır gün də, il də, əsir də
Torpağımız top altında, oğullarımız əsirdə
Bu dərd milyon ürəkləri dəldi, bayram günləri

Zaman gəldi, dövran döndü, daş qayaya dirəndi
Nənələrin, babaların yurdu pərən-pərəndi
Borçalının vətən yükü çiyinində kərəndi
Balalarmız yad əllərdə quldu bayram günləri

Torpağına kəm baxanın ağzında yanar dili
Səbirliyik, gözləyirik, öndə var ümid ili
Nə yaxşı ki, siz gəldiniz, sizin ilə Kərimli
Sevincini, kədərini böldü bayram günləri

Təbəssümü, gülüşü var nur tökülən üzlərin
Günəşi var, ulduzu var, gecənin, gündüzlərin
Qaracanın sinəsində sıralanan sözlərin
Hər kəlməsi cəvahiri-ləldi bayram günləri

***Mart 2017-ci il***

# GÖZLƏRİM

A dostlar heç nədə tamahım yoxdur
Qarnım ac olsa da, toxdu gözlərim
Allahdan öz ruzum, öz qismətim var
Özgənin malında yoxdu gözlərim

Məntiqi var hər kəlmənin, hər sözün
El gözündə hər əyrinin, hər düzün
Xainlərin, xəbislərin, dargözün
Qorları gözünə soxdu gözlərim

Halal saxla oğul, eyləmə ucuz
Müqəddəs nemətdir çörək ilə duz
Kiminin gözündə parlayan ulduz
Kiminin gözünə oxdu gözlərim

Sevgilimin saxlayıram xətrini
Ləl süzülən kəlmələrinin sətrini
Şəfa nəfəsini, məlhəm ətrini
Əsən küləklərdən qoxdu gözlərim.

Qaracan, sözlərin düzdə qalmasın
Ürəklərdə qalsın, üzdə qalmasın
Heç kəsin arzusu gözdə qalmasın
Arzular, ümidlər çoxdu, gözlərim

# QƏLYANÇILAR

Səhərdən axşama çayxanalarda
Salacaqlar lövbəri qəlyançılar
Məclis-məramlarda, meyxanalarda
Belədir adətləri qəlyançılar.

Oxuyanlar varsa məclislərində
İstər aşıq olsun, istər xanəndə
Nəmər, şabaş məqamları gələndə
Açacaqlar cibləri qəlyançılar.

Tütünlərin çeşidlərini arayar
Hansı tütün kimə, necə yarayar
Dodağında bığlarını darayar
Üzlərində xətləri qəlyançılar.

Deməzlər ki, bu haqlıdır, bu haqsız
Bir kimsəni qınamazlar günahsız
Dinləməzlər, eşitməzlər, mənasız
Sözləri, söhbətləri qəlyançılar.

Sevəndilər məclisləri, yığnağı
Olandılar Qaracanın qonağı
Əldə təsbeh başında bəy papağı
Saxlayırlar dəbləri qəlyançılar

## ÖLMƏZ SƏNƏTİ OLSUN

Kişinin ağzında, dilində gərək
Sözləri kəsərli və qəti olsun
Dəyanəti, Kəraməti, Mürvəti
Namusu, Vicdanı, qeyrəti olsun

Tərsliyinin göstərməsin üzünü
Danışanda düz danışsın sözünü
İnsanın hər şeydən əvvəl, özünün
Gərək qanacağı, mərfəti olsun

Dəyişər insanlar, dolanar dövran
Belə bir sənətkar yetirməz zaman
Tarixdə yaşayan, eldə tanınan
Qaracan tək ölməz sənəti olsun

## XOŞ GÖRDÜK

Yenə gəldik görüşnüzə
Dağlar, xoş gördük, xoş gördük
Budaqları bar bəhərli
Bağlar, xoş gördük, xoş gördük

Salan yadına bizləri
Qoyan ömürdə izləri
Dostlar yanında üzləri
Ağlar, xoş gördük, xoş gördük

Qaracan, Allahdır bilən
Kimdir gedən, kimdir gələn
Yaşadıqca qarşı gələn
Çağlar, xoş gördük, xoş gördük

## ÖPƏM

Allah, keçmişimdən bir gün gələydi
Ağbirçək anamın qaşından öpəm
Kasıb daxmamızda, kül ocağımızda
Onun bişirdiyi aşından öpəm

Həyətdə görünür yeri özünün
Laylalı sözünün, gülər üzünün
Yanan ürəyinin, dolan gözünün
Yanağna süzülən yaşından öpəm

Qaracan, dönəydi bircə anlığa
Analı günlərim çırağbanlığa
Gərək qalxıb gedəm məzarsanlığa
Onun alnındakı daşından öpəm

## ELƏ VURULMUŞAM MƏN

Əsir gözləməkdən, vətən deməkdən
Yollara baxmaqdan yorulmuşam mən
Elə bil dərd üçün yaranmışammış
Dörd yerdən əyilib, qırılmışam mən

Qəlbimdə qeyrət var, üzümdə hayam
Gündüzlər günəşəm, gecələr ayam
Dağlardan çalxanıb, tökülən çayam
Gah bulanıb, gah da durulmuşam mən

Bir qızmış aslanam, bir ac canavar
Ar, qeyrət çəkməyə canımda can var
Alınmaz qalayam, dağılmaz divar
Bir qaya üstündə qurulmuşam mən

Adam var bir şirin dilə vurular
Adam var qönçəyə, gülə vurular
Adam var pərdəyə, telə vurular
El oğluyam, elə vurulmuşam mən

Şən məclislər mərd meydanlar görmüşəm
Gəlin gətirmişəm, qız köçürmüşəm
Qaracanam çox dövranlar sürmüşəm
Indi də qocalıb, qarılmışam mən

## İNSANLIQ XATİRNƏ HÖRMƏT NAMİNƏ

Kədəri, küdrəti atmaq lazımdı
Bəxt yatanda ancaq yatmaq lazımdı
Batanın köməynə çatmaq lazımdı
İnsanlıq xatirnə, hörmət naminə

Gücün çatmayırsa özünü yorma
Milyonun olsa da zamına durma
Xeyir vermirsənsə, ziyan da vurma
İnsanlıq xatirnə, hörmət naminə

Qaracan, özün et hər nə eyləsən
Karvanları qoyma getsin, əylə sən
Yamanlığa da, yaxşılıq eylə sən
İnsanlıq xatirnə, hörmət naminə

## KÖÇÜRSƏN DAHA

"Dost"um, bəsdir çəkil bu zəhrimardan
İçirsən günbəgün şişirsən daha
Meyxoş olub düşürsən bəd hallara
Torpağı burnunla eşirsən daha

Üzürsən şərabın qəm dəryasında
Durubsan yarğanın astanasında
Övladlar yanında dost arasında
Artıq kişilikdən düşürsən daha

Vəzifədən düşdün; bu bir tərəfdən
Qaracandan küsdün digər tərəfdən
İnsanlıqdan, ləyaqətdən, şərəfdən
Dönüb yavaş-yavaş köçürsən daha

## GÜC AL

Boş işin boş sözün qüvvəti olmaz
Zəhmətdən, ilhamdan, hünərdən güc al
Dağlarda havadan, lilpar bulaqdan
Aranda açılan səhərdən güc al

Çəmənli çiçəkli bahar fəslində
Dəstələr dəstində, nəğmə dilində
Cilovu yalmanda, yəhər belində
Atlan yaylaqlara kəhərdən güc al

Bu həyatda bir arzum var yeganə
Çatmalıyam, qalmayacam biganə
Ay Qaracan hər sözün bir dürdanə
Kəlmələri ləli-gövhərdən güc al

## GƏLİBDİ

Qarışıb hamının halı əhvalı
Çox çətin dözülməz zaman gəlibdi
Dönübdü dövranın tərsinə valı
Yaxşılar yerinə yaman gəlibdi

Gözüm inəklərdə, danalardadı
Bir sümük, bir dəri fermalardadı
Arpa, silos, yonca anbarlardadı
Onların əvəzinə saman gəlibdi

Sazında oxuyur Racınan, Rita
Bir yanı Piterdi, bir yanı Çita
Gah "Caz", gah "Şinanay"gah "Veliçita"
Çalan bir aşıq Ataman gəlibdi

İşin rəvan olmaz, olmasa ağıl
Aşıqsan dastan de, söyləmə nağıl
Xəstə canım dur ayağa, səcdə qıl
Ayna camal, qaşı kaman gəlibdi.

Bağlanan günündən sənədlərinə
Vardılar sənətin dərinlərinə
Ustad Əmrah, Kamandarın yerinə
Qaracan tək bir qocaman gəlibdi

## YARADAN VERİBDİ DƏSDİMƏ MƏNİM

Tökülür başımdan yağır yağış tək
Böhtanlar, yalanlar üstümə mənim
Kələfim dolaşıb, işim tərsləşib
Bəxtim yaman durub qəsdimə mənim

Xoşbəxtlikdir Bağban olmaq bar almaq
Bir ömürü xoş yaşamaq, qocalmaq
Kin saxlamaq, könül qırmaq, qaralmaq
Yaraşmaz şanıma, şəstimə mənim

Qaracanam, əldə dəyanətimi
Varlı səxavətmi, xoş niyyətimi
Könül sərvətimi, mərhəmətimi
Yaradan veribdir dəsdimə mənim

## ALLAHA AĞIR GEDƏR

Bəxtim yatıb, taxtım da dönüb, deyib
Ağlamaynan, Allaha ağır gedər
Günahları bələyinə bələyib
Saxlamaynan, Allaha ağır gedər

Saxla elin adətini, dəbini
Alışmada kilidləmə cibini
Məzlum ürəyini, yetim qəlbini
Dağlamaynan, Allaha ağır gedər.

Öyrədibsən haramlığa əlləri
Çox mahirsən bağlamağa dilləri
Ələ salıb, aldadıb bəndələri
Yağlamaynan, Allaha ağır gedər

Axtarma bəndənin cavan, çalını
Düşəndə xəbər al hal əhvalını
Fəqir  qismətini, səqir malını
Bığlamaynan,  Allaha ağır gedər

Qul bəndənin burmalama qolunu
Dürmələyib qarmalama bolunu
Qaracanın haqqa gedən yolunu
Bığlamaynan, Allaha ağır gedər

## VƏTƏN SƏNİN ÖMRÜNDÜR

*(Milli qəhrəman Mübariz İbrahimovun xatirəsinə)*

Vətən sənin mərd ömrünü
Yaşadıbdı, yaşadacaq
Qarı düşmənlər qanını
Axıdıbdı, axıdacaq
Qanlı qılınclar çəkilib
Dizlərindən doğranacaq
Dağlar vurub sinələrnə
Gözlərindən oxlanacaq

Vətəninə deyilməmiş
Hələ çox sözün var sənin
Arxanda dayaq dayanmış
Doxsanın, yüzün var sənin
Əyilməyən, qatlanmayan
Polad tək dizin var sənin
Xatirən xatirələrdə
Ürəklərdə saxlanacaq

İgid libası əynində
Yağıları biçə-biçə
Vətənin dərdi çiynində
Düşmən qanı içə-içə
Keçdi zəfərlər yolunu
İlahi sən pənahında
Saxla bu vətən oğlunu
Tarixlərin səhifəsində
Mübariz adı qalacaq
Hələ vətən, millət üçün
Mərd analar sayəsində
Mübarizlər doğulacaq

## BAX BUDUR...

Gəl dayan arxamda mənim, mən durmuşam səndə dur
Zərbəni bir yerə vuraq, mən vuranda sən də vur
Əldə yumruq bərk olarsa, güclü olar zərbələr
Onda görəcəksən bala, kim uduzur, kim udur

Hansı deşiyi açıram, sən çıxırsan dəlməkdən
Cibində dəsməl qurumur tərləyəni silməkdən
Yorulmadın yaltaqlıqdan, yağlanmaqdan, girməkdən
Sən bunlardan çəkilməsən, bir az məndən gendə dur

Can deyəcəm o vaxdı ki, sözlərimə gələsən
El ağlayanda ağlayıb, güləndə də güləsən
Qayıdıb şeytan yolundan, haqq yoluna dönəsən
Onda sənə deyəcəm ki, keç qabağa, öndə dur

Aşıqlıq sənətim oldu, sinəm üstə telli saz
Biliyim dərin olsa da, qazancım oldu dayaz
Atalar gözəl deyib ki "Varnı verən utanmaz"
Hər nəyim var gətirmişəm, olan-qalan bax budur

Kotan zərbini çəkməyə necə dözsün qara can
Görən gözlərdən, gizlənib, qaçacaqsan hara can
Nə vaxda dək yarasa tək qaranlıqda qalacan
Bəsdir kölgələrdə yatdın, bir azca da gündə dur

Qaracanam yenə düşdü fəryad mənim canıma
Bax bulanan əhvalıma, bu qaralan qanıma
Zəmanənin bir aşığı gəlib mənim yanıma
Mən "Misri" "Cəngi" çalıram, bu da çalır "Həndədur"

**QARACAN**
*(Baməzə)*

Nə üçün adına "Qara" deyirlər
Hər yerdə ki, üzü ağdı, Qaracan
Deyərlər ki, cənnət, behişt bundadı
Özgə bir bağçadı, bağdı Qaracan

Əlləri səxalı, tamahı toxdu
Ürək dolu, arzu, diləyi çoxdu
Bir şah sənətkardı, əvəzi yoxdu
Bir yanı arandı, dağdı, Qaracan

Gözündə şamlanan Haqq çırağıdır
Sinədə sellənən "Gur" bulağıdır
Maşallah, dövrünün oğlan çağıdır
Xoş dövran sürməli çağdı, Qaracan

## BİTİRMİŞƏMMİŞ

Dövran dolandıqca, şən çağlarımdan
Demə boş vədələr ötürmüşəmmiş
Mənalı, ömrümdən keçən günlərin
Çoxunu hədərə itirmişəmmiş

Ömrümün çalxanan qaynar çağında
"Ceyran" dərəsində "lələ" dağında
Tikanı, qanqalı dağlar bağında
Laləni qəlbimdə bitirmişəmmiş

Yalan olmaz Babaların dediyi
Bu yol imiş Qaracanın getdiyi
Tanrı taleyimə qismət etdiyi
Barı, şeir-sənət götürmüşəmmiş

## DAĞLAR

*Bir dostum mənə dedi; - şeirlərinin əksəriyyəti dağlardan bəhs edir. Sizin qədər dağlardan yazan və dağlara vurğun olan görməmişəm. Cavabında dedim:*

"Dağlardan gəl az yaz", deyən a dostum
Tamlı dahanımın dadıdı dağlar
Buğlanan, çağlayan, qaynayan, daşan
Alovmun sönməyən odudu dağlar

Tarixin dolanan qərinələri
Xatırladır bizə çox əsirləri
İgid ərənlərin zərbi səngəri
Vətənsiz oğulun yadıdı dağlar

Koroğlunun "Cəngi", "Misri" nərəsi
Səməndər atəşi, şam pərvanəsi
Mənəm bu dağların bəndi-bərəsi
Qaracanın qoşa adıdı dağlar

*Və mən bu dostuma dağların nə olduğunu şeirdə yox, özündə görməyi təklif etdim.*

Dağlar səfasını, vəfalı dostum
Şeirdə görməynən, gəl özündə gör
Qarlı zirvələrdən üzü aşağı
Doloy enişinnən en, düzündə gör

Çınqıl qayaları, gur bulaqları
Maral oymaqları, el oylaqları
Tərli çiçəkləri, göy yaylaqları
Şəfəq səhərində, gündüzündə gör

Qatığı, qaymağı, kərəsi, üzü
Dillərdə əzbərdi Qaracan sözü
Yaxşını-yamanı, əyrini-düzü
Öz gözündə görmə, el gözündə gör

## TANIDAR

Belədir qayda əzəldən
Aşıqları saz tanıdar
Şairləri sinəsində
Sətirlənən söz tanıdar

İgid olan sözün danmaz
Adam olmaz hər yaramaz
Sönmüş oddan ocaq yanmaz
Ocaqları köz tanıdar

Göydən baxır Haqqın özü
Yaxşı görür əyri-düzü
Dörd sifəti, yeddi üzü
Düz ürəyi, göz tanıdar

Haram mətah yeyənmərəm
Dar libası geyənmərəm
Namərd haqda deyənmərəm
Mərdi çörək-duz tanıdar.

Hər nə yaratsan ellərə
Keçəcək əldən-əllərə
Qaracanı nəsillərə
Öz qoyduğu iz tanıdar

## LAZIMDI

Hər şeyin öz yeri, öz vədəsi var
Gülmək məqamında gülmək lazımdı
Vətənin, torpağın, elin yolunda
Ölmək məqamında ölmək lazımdı

Öz ağlı, öz şüuru vardı hər kəsin
Danışanda dərk eyləsin kəlməsin
İnsan  gərək tutduğundan kəsməsin
Səbr edib, insafa gəlmək lazımdı

Qaracan, ömrünə qaytar gənçliyi
Oynama fələklə dəstə-çiliyi
Qanlı ədavətli, düşmənçiliyi
Aralıqdan tamam silmək lazımdı

## QARDAŞIM MƏHƏRRƏMƏ

Qardaş, badi-meydən gəl tamam əl çək
Bu sağlam canına qəsd eyləməynən
Tanrı ağıl, kamal, şüur veribdi
Onu da mey içib, məst eyləməynən

Eşit daha möminlərin səsini
At kənara bu şeytan badəsini
Ömrünün çiçəkli sən vədəsini
Qəflət yuxusuna dəst eyləməynən

Qaracanam, axır dəydi başıma
Xəyyamdan bir misra gəldi huşuma
"Çox içmə, gizlin iç, meyə alışma"
Nəsilləri meypərəst eyləməynən

***May 2002-ci il***

## DƏYİRMANDA

*Kəndimiz Təkəlidə general Hasan bəyin dağılmış məktəb binasına, məscidinə, dükanına baxıb, dəyirmanına üz tutdum. Yolda Şura dayı rast gəldi və mənə dedi. Yadında olar bu Hasan bəyin dəyirmanıdı:*
*- Cavabında dedim...*

Yaxşı yadımdadı ay Şura dayı
Azmı üyüdmüşəm un dəyirmanda
Bir gecədə üyüdərdim dörd çuval,
Yeddi kisə, beş xurcun dəyirmanda

Çox olurdu bu xanəyə gələnlər
Arabada, beldə dən gətirənlər
Mal novatından gəlib, gecikənlər
Gözləyərdilər yorğun dəyirmanda

Hərdən də dəhnədən su azalırdı
Çarx ləngər vururdu, daş dayanırdı
Buğda kəpəklənib, yarmalanırdı
İndi rahat oturun, dəyirmanda.....

Təkəli, qaytarın yurda çağını
Açsın qollarının gen qucağını
Elin bu müqəddəs nan ocağını
Gəlin yenidən qurun, dəyirmanda

Qaracanam, o günlərə dönəydim
Buğda kimi şırdandan ələnəydim
Kaş indi də unlara bələnəydim
Xəmirnizi yuğurun, dəyirmanda

## DURNALAR

Başım üstən qatarlanıb keçirsiz
Niyə gəlməyirsiz bizə, durnalar
Tanrı qüvvət versin qanadlarnıza
Nur çilənsin gözünüzə, durnalar

Siz bizim ellərin hür-mələyisiz
Məkanlı, məsgənli, məmləkətisiz
Quşların tacısız, səltənətisiz
Duva qıllam ömrünüzə, durnalar

Gəlirsiniz qəriblərin elindən
Aşırsınız qarlı dağlar belindən
Qul Qaracan Borçalının dilindən
Salam deyin o Təbrizə durnalar

## LƏKƏLƏNƏR

Yaman sözü əvvəlindən fikr eylə
Bir kəlmə bəd sözdən dil ləkələnər
Sular qəhərlənər, sellər gələndə
Yağış bulanarsa, gül ləkələnər

Şeytan barmaqlayar, ağlı çaşarsan
Lovğalanarsan, həddini aşarsan
Qəfildən elə bir söz danışarsan
Yüz illik ad-sanın bil, ləkələnər

Qaracan, hər şeyin yeri varıymış
Çaqqal oylağında qurd ulayarmış
“Bir naxırı, bir dana korlayarmış”
Sarsağın əlindən el ləkələnər.

## EYLƏMƏYİN

A dostlar, tanışlar eşidin məni
Bu fani dünyada qəm eyləməyin
Kədərin, sevincin öz yeri vardı
Qəhər olan yerdə dəm eyləməyin

Olub-keçənləri yada salmayın
Qüssəyə qərq olub, qəmə dalmayın
Dəmin gələn zaman kefdən qalmayın
Hədər ömrü, günü kəm eyləməyin

Qatlanmayın üzə gülənlərnizə
Bal-şərbət süzülsün kəlmələrnizə
Qaracan buyursun, məclislərnizə
Hər axmaq, kəmsəri cəm eyləməyin

## YUXU

Mən sənin əlindən sərsələnmişəm
Gəlib vəğələrimə görünmə, yuxu
Xoflar xülyasında xofələnmişəm
Üzünə tor çəkib bürünmə, yuxu

Gah qaralar qarışdırıb, qatıram
Gah qorxudan dirsəklənib yatıram
Suya söyləyirəm, acı atıram
Bəsdir arxam ilə sürünmə, yuxu

Qaracan and verir səni Allaha
Qoy gecəni rahat yatım sabaha
Hər səhər yozmaqdan bezmişəm daha
Çox getmə gəl mənim dərinmə, yuxu

## MƏNƏM PƏRVANƏSİ YANAN ŞAMLARIN

Həyat mənə deyir gəl küsmə məndən
Əvvəl qışın idim, indi yayınam
Tək qalmamısan  ki, xofələnəsən
Arxanda dayanan yurd alayınam

O coşqun təbini havalandıran
Sənət meydanında davalandıran
Dalğın dəryalarda dalğalandıran
Tacını ucaldan şah sarayınam

Qaracan, nurusan qara damların
Sənsən pərvanəsi yanan şamların
İlin  məhvərində bu bayramların
Novruzun, Orucun, Qurban ayınam

## GƏNÇLİYİM

Uşaqlıq yaşlarım keçəndən sonra
Qollarnı üzümə açdı gəncliyim
Sandım ki, atlanıb, qanadlanıram
Nə tez zirvələri aşdı gəncliyim

Qəvvas oldum burulğanda buruldum
Mənzil yordum, demədim ki, yoruldum
Qəmində bulandım, dəmdə duruldum
Xəyal karvanında köçdü gəncliyim.

Qaracanam, pis dövranlar sürmədim
Gəncliyimdə yaman günlər görmədim
Zaman ötdü, heç özüm də bilmədim
Necə gəldi, necə keçdi gəncliyim

## QARŞILADI

Yön çevirdim yaylaqlara
Dağlar məni qarşıladı
Döndüm aran ellərinə
Bağlar məni qarşıladı

Elmizin gənc oğlan, qızı
Bağmızın gülü, yarpızı
Bostanın yemiş, qarpızı
Tağlar məni qarşıladı

Qaracan, keçdi qaranlıq
Açıldı səhər aydınlıq
Ömürdən keçən cavanlıq
Çağlar məni qarşıladı

# OLMASA

Hər yaranan adam olmaz əsli, zatı olmasa
Halal nemət aşar, daşar haram qatı olmasa
Mərdiməzar aralıqda quyruq bulamaqdadı
Qurd quzuynan tən dolanar alaçatı olmasa

Xətirimə dəyməyənin, xətirinə dəymərəm
Süfrəmdə mehman olmasa, nanı yalqız yemərəm
Tüstü çıxan hər xanəyə, hər evə ev demərəm
Yönü qibləgaha doğru, gen həyatı olmasa

Dövlət güdən, var qazanan, yerlə, göylə əlləşər
Həyata nankor baxanlar, oturub mürgüləşər
Şahın, bəylərin, xanların ölkəsi müflisləşər
Bəzirgan, xoca karvanı, tac baratı olmasa

Hər kəsin imkana görə, nəyə çatarsa gücü
Doylaq, təlxək, tülxək olar insanların gülüncü
Qatlanar qalxan qolunda, qında qalar qılıncı
İgidin polad libası, cövlan atı olmasa

Qara zurnanın səsində köhlən atım əylənməz
Qaracan da “mərəkə”də pərdələnməz, köklənməz
Aşıq olan cuşa gəlməz, pərvazlanmaz, ruhlanmaz
İlahidən təb gəlməsə, qalaq qatı olmasa

# GƏRƏK

Arif olan həqiqəti anlasın sözdən gərək
Aqil olan seçə bilsin əyrini, düzdən gərək
İstər qohum, istər yoldaş, istər dostun, sirdaşın
Olanda ürəkdən olsun, olmasın üzdən gərək

Xəngəl üznə həsrət qalan, qazandan həlim içən
Böyüyünə  ağ olanın gözlərinə enər çən
Öz gözündə tiri qoyub, özgə gözdə tel seçən
Gərək özündən incisin, küsməsin bizdən gərək

Yeriyəndə şeytan gözü qoyar ayaq izində
Qan əvəznə zəhər axır damarında vəzində
Nəzəri gözündə olar, çörəyi də dizində
Gen gəzəsən gözü göydən, qırmızı üzdən gərək

Qış keçəndə yay gözləmə, qoyma cana gün dəyə
Aranından köç yaylağa, dağda qur sərin  dəyə
Dərdi-qəmdən uzaqlaşıb, kefin kök olsun deyə
Yeri gələndə vurasan "Əlli"dən "Yüz"dən gərək

Əsil insanlar yaşasın, lap qocalsın, qarısın
Yarıyanlar bəndədən yox, Allahından yarısın
İnsan olan Qaracan tək Tanrısını tanısın
Düz yerisin, öz yolunnan çıxmasın izdən gərək

# ELİN BALASIYAM, EL SƏSİNDƏYƏM

Dostum soruşursan ; – Haralardasan ?..
Başkeçiddə, İsa binəsindəyəm
"Əyri qar" dan beş yüz metr aşağı
Ellər bulağının sinəsindəyəm

Dövranıma döndüm bir anlığıma
Şəfəqlər saçıldı qaranlığıma
San ki, qayıtmışam cavanlığıma
Gülünən, bülbülün həvəsindəyəm

Burda məsgən salıb igid ərənlər
Qürurlu qayalar olubdu səngər
Bu dağlardan ayrı yaşasam əgər
San ki, həyatımın qəfəsindəyəm

Məsgən saldıq Koroğlu qalasında
"Yastı qar"ın çəmənli yaylasında
"Urfanı"nın "Dilqəm"in laylasında
Alının, Abbasın nəfəsindəyəm

Qaracanam, bəhrim teldən olubdu
Sənətim bir şirin dildən olubdu
İlhamım, qüdrətim eldən olubdu
Mən el balasıyam, el səsindəyəm

## MİNNƏTİN OLSUN

A dostum düz davran, gəl el içində
Elə et ki, bir az hörmətin olsun
Əlindən gələni əsirgəməynən
Elin qarşısında zəhmətin olsun

Dostundu türk oğlu, adı “Sultansoy”
Gəzirsən kef əhli, bu nişan, bu toy
Xalqına yadigar bir nişana qoy
Axirət günündə rəhmətin olsun

Görsət görüm, kimdir arxanda duran?...
“Dost”larındır sənə tələlər quran
Mənəm səni bu yollardan qaytaran
Aya, Qaracana minnətin olsun

## İNCİDİR

Ay dostum məni əlin yox
Dilin yarası incidir
Naşı təbibin verdiyi
Dərman-dəvası incidir

Xəstə ağrı naləsində
Təbib onun çarəsində
Mərd kişinin xanəsində
Bayquş yuvası incidir

Qaracan, yoxdur gələnin
Hardadır qədir bilənin
Bu dövranın zəmanənin
Abu-havası incidir

## ARAQ, SƏNDƏN

Adın dillərdə dolaşır
Çox yazıblar araq, səndən
Hər kəsin fikri, zəndi var
Bir az da biz yazaq səndən

Kimiyə ağıl diləyək
Kimini tənbeh eyləyək
Nə çox səni tərifləyək
Nə də qiybət qıraq səndən

Gül camallar saralıbdı
Duru qanlar qaralıbdı
Sönüb, qaranlıq qalıbdı
Neçə evdə çıraq səndən

Bunlardı gözlərmi biçən
Çox danışanla, çox içən
Demirəm ki, boşalt, bir çən
Deyirəm "yüz" vuraq sənnən

Azmı olubdu cavanlar
İçib, sonra savaşanlar
Axıb neçə nahaq qanlar
Qopubdu ah-fəraq səndən

Qaracan ellər dolaşıb
Düzdən keçib, dağdan aşıb
Dövran indi başqalaşıb
Gəl daha qurtaraq sənnən

## QARACAN KİM TƏRƏFDƏDİ

Az da olsa sal əlini cibinə
Satmamışam "qardaş" hələ siftədi
Nırxını soruşmur, torba doldurur
Zalım oğlu elə bilir müftədi

Çox dartılır bu donqarın gədəsi
Elə bil ki, tanınmayır dədəsi
Nə vaxtı bəllidi, nə də vədəsi
Səhər, axşam, gecə, gündüz kefdədi

Səhər-səhər bir "yarımı" yıxıbdı
Altdan qaymaq, üstdən xəngəl tıxıbdı
Mal almaq adınnan evdən çıxıbdı
Hələ qayıtmayıb, düz bir həftədi

"Halal əlli" alverçilər, yanında
Nə mal desən tapılar anbarında
Oturubdu "Axneylim" bazarında
Deyirlər ki, ziyanda döy, nəftədi

Xeyri yoxdu gəl yüz doğra, yüz də yon
Dov gələnməz tökülsə də batalyon
İçkiləri şampan, kanyak, napalyon
Yeməyi də Bozbaş, kabab, küftədi

Biri alandırsa, biri satandı
Biri tutandırsa, biri atandı
Biri yatırdandı, biri yatandı
Qul Qaracan görən kim tərəftədi

# UZAQLAŞDI

*2001-ci ilin yanvar ayında yaşımla əlaqədar olaraq vəzifəmdən təqaüdə çıxdım. O zamandan etibarən aşağıdakıları yaşadım*

Vəzifəmdən ayrılanda
Çoxlar məndən uzaqlaşdı
Aclar dursunlar bir yana
Toxlar məndən uzaqlaşdı

Görməyən qəpik, manatı
İndi əlində var, qatı
Əsli, nəsli, kökü, zatı
Yoxlar, məndən uzaqlaşdı

Bir torpaxda doğulduğum
Soruldduğum, soğulduğum
İyisindən boğulduğum
Qoxlar məndən uzaqlaşdı

Qayalarda çisgin duman
Ovçuluq etdim bir zaman
Qalxan, qılınc, nizə, kaman,
Oxlar məndən  uzaqlaşdı

Bir yandan tüfənglər, toplar
Bir yandan, zənglər, saytlar
Ananim gələn məktublar,
Hoxlar məndən uzaqlaşdı

Qaracan, ömrün əzəli
Keçirdin meyli, məzəli
Ən yaxşısı, ən gözəli
Loxlar məndən uzaqlaşdı

# EL QEYDİNƏ QALANMI VAR

Hər kəs başnın hayındadı
El qeydinə qalanmı var
Xalq nə gündə, nə haldadı
Heç yadına salanmı var

Şeytanın fitnə-felində
Dayanıbdı səngərində
Baxmır kəhərnin belində
Yəhərmi var, palanmı var.

Azdımı eldən yazdığım
Var əllərdən qazandığım
Dolubdu şeir sandığım
Mənim, kimi kalanmı var

Dildən dillərə köçürün
Eldən ellərə uçurun
Alın isbatdan keçirin,
Sözlərimdə yalanmı var

Yığın atlar ilxısını
Tut yəhərlə yorğasını
Dövranın dəm havasını
Qaracan tək çalanmı var

# QALMAYIB ƏZƏLKİ, OĞUL

Hər zaman arxanda duran
Allahındı bil ki, oğul
Yapış onun ətəyindən
Dərgahında bərki, oğul

İgid kürkü əynimdədi
Dünya mülkü eynimdədi
Millət yükü çiynimdədi
Bunlardı mənimki, oğul

Bəxtim məndən küsə bilməz
Külək olub əsə bilməz,
Qərarımı kəsə bilməz
Dəhrə, balta, kərki, oğul

Saxla özündə tamahı
Özgədə görmə günahı
Otur fikirləş sabahı
Gedibdi dünənki, oğul

Həyatda çox şey itibdi
Gül yernə reyhan bitibdi
Qaracandan da gedibdi
Qalmayıb əzəlki, oğul

# GÖRMƏDİK

Yetmiş il boğulduq SSR-idə
İşıqlı dünyanı qəti görmədik
Dilimiz, dinimiz alındı əldən
Müsəlmanlıq ləyaqəti görmədik

Biz baxırdıq binaların küncündən
Qartallar da sarayların bürcündən
Göz açdığımız, yarandığımız bir gündən
Çardaq gördük, imarəti görmədik

Serlər qarşımıza çəkirdi sədlər
Coşurdu hədələr, aşırdı hədlər
Yazılan fərmanlar, verilən vədlər
Yalan oldu, həqiqəti görmədik

Hakim ədalətsiz, məhkum günahsız
Ağ arxalı oldu, qara arxasız
İstər haqlı olsun, istərsə haqsız
Cəza gördük, bəraəti görmədik

Yaşayırdıq "Kommunist"in eşqinə
O da düşdü "Demokratya" köşgünə
Belə getsə düşəcəydik düşgünə
Şükür olsun qiyaməti görmədik

Qaracan, qırıldı düşmənin, simi
Axır ki, ölkəmin quruldu himi
Hal-hazırda yaşadığımız gün kimi
Bu müstəqil siyasəti görmədik

# İTİM
## İşğalçı ermənilərə

Sahibinəm, səni mən saxlamışam
Sənə çox olubdur  hörmətim, itim
Qayğına qalmışam, yekəltmişəm
Axırda heç oldu zəhmətim, itim

Səni zibillikdə bürüşən gördüm
Ürəyim ağrıdı ələ götürdüm
İsti otağıma, evə gətirdim
Dedim ki, yazıxdı qalmasın yetim

O zaman mən cavan, sən küçük idin
Yaşımda mən böyük, sən kiçik idin
Uşaqlar oynadan bir ölçük idin
İndi böyüyübsən itim, ay itim

Səni atmışdılar qarın altına
Gördüm ki, bürüşüb, zığıldayırsan
Gətirdim evimə böyütdüm səni
İndisə üstümə mırıldayırsan

O yediyin çörək gələr burnundan
Sonra nə olacaq, görəcəksiniz
İndi zəbt etdiyiniz o torpaqlardan
Zaman gələcək ki, köçəcəksiniz

Atalar demişdir "İt ilə dost ol,
Amma ağacını qoyma əlindən"
Qaracan, vərəqlə tarixləri, gəl
Türkə dost olmayıb ermənilərdən

## BUNLAR KİMİN KÜÇÜYÜDÜ

Vartan, Vazgen, Qaren, Qurqen,
Aşot, Qıdılyan, Qaragen,
Levon, Movsesyan və Suren,
Qəfildən bizə hürürdü,
Bunlar kimin küçüyüdü?

Əməlləri fəndi-feldi,
Gah tülküdü, gah da fildi,
Boğazında neçə ildi
Qalan ilan sümüyüdü,
Bunlar kimin küçüyüdü?

Yaranıblar bir çalası,
Nə yurdu var, nə yuvası,
Millətlərin maskarası,
Təlxəyidi, düdüyüdü
Bunlar kimin küçüyüdü?

## VAXTIDI

Sarıların günnə ağladıq;-indi
Özümüzə ağlamağın vaxtıdı
Neçə ildir qında qalıb paslanan
Qılıncları yağlamağın vaxtıdı

Kölgələrdə yatanları qaldırıb
Köhnələrdən qalanları yandırıb
Saksafonu, gitaranı sındırıb
Sazı, tarı çaldırmağın vaxtıdı

Dəyirmanda qalan un anbarları
Qoşqu ulaqları, arabaları
Dana – buzovları, mal – qaraları
Fermalarda saxlamağın vaxtıdı

Diri – diri yandıran uşaqları
Varmı görən vicdanı, Allahları
Bizə qarşı tuşlanan silahları
Əllərində sındırmağın vaxtıdı

Qol – qola tutaraq mənzilə varaq
Yığılaq düşmənin bəndini yaraq
Şükür olsun, hər tərəfimiz çıl – çıraq
Ocaqları yandırmağın vaxtıdı

Qarı düşmən hər tərəfi alıbdı
Gəlib yurdumuzda yuva salıbdı
Kafirlərdən burda hər nə qalıbdı
Külüng alıb sındırmağın vaxtıdı

Tələ qurub tərsinə əyənlərin
Darmavoyun şotuna yeyənlərin
Sənə dostum, sirdaşım deyənlərin
Vəfasını yoxlamağın vaxtıdı

Gördün ki, üstünə müşgüllər yağır
Dar ayaqda dadına haqqı çağır
Karvan dolu, yollar uzun, yük ağır
Haqq yolunu haxlamağın vaxtıdı

Axır qovduq bu sarı murdarları
Bunlar üçün çox axıtdıq qanları
Yetmiş ildə yaralanan canların
Yarasını sağlamağın vaxtıdı

Ruh oxşayır el havası, el şəni
O dağların gülüstanı, gülşəni
Bahar gəlib nərgizi, bənövşəni
Yaylaqlarda qoxlamağın vaxtıdı

Vətən oğlu arxanda var sel gücün
Ay Qaracan duman gəlir sür köçün
Millət üçün, Vətən üçün, el üçün
Yanmayanı, yandırmağın vaxtıdı

## MAŞALLAH

Yaradan nə gözəl yaradıb səni
Tər buxaqda xətdi – xala maşallah
Günəşdən nurlanır ayna qabağın
Qaşın qara, gözün ala, maşallah

Dürlü kəlam şirin dilə yaraşır
Gümüş kəmər incə belə yaraşır
Ağ kalağay, gərdən telə yaraşır
Siyah zülfə, gül camala maşallah

Dövranında gah sadlanan, kürlənən
Qaracandı yavaş – yavaş pürlənən
Ləblərində, dahanında dürlənən
Kəlmələrə, pür kamala maşallah

## PƏRİŞAN

*Xovetli Xəstə Hasanın "Gördüm yar gəzdiyi yerlər pərişan"rədifli qoşmasına nəzirə*

Xəstə Hasan, əsirlərimiz dardadı
Ellərdən ayrılan əllər pərişan
Yanaqlarda göz yaşları çağlayır
Qaralar bağlayan tellər pərişan

Səslənməyir çobanların tütəyi
Mələşməyir sürülərin əmliyi
Qaqqıldaşmır qayaların kəkliyi
Sazaqlar, küləklər, yellər pərişan

Qaracan, dəyişir dağlar havası
Hara getdi yaylaqların səfası
İgidlər qalası, qartal yuvası
Çeşmələr, bulaqlar, sellər pərişan

## BİZDƏDİ

Haqq talanın dərgahında dini – islam bizdədi
Məhəmmədin ümmətinə doğru – inam bizdədi
İnsanlığa saf sədaqət, etibar və məhəbbət
Əssalamuəleykum ; Əleykumsalam ; - bizdədi

Böyük yolunu gözləmək, elin qeydinə qalmaq
Axirəti fikirləşmək, Haqqını yada salmaq
Yetim qarnını doydurmaq, fəqir könlünü almaq
Qəlb oxşayan, ürək açan şirin kəlam bizdədi

Bir qazanda qaynamalı başı ancaq bir qoçun
Yetişsin mənzil başına, yolda qalmasın köçün
Sevgimi, məhəbbətimi sübut eyləmək üçün
Odlanam eşqin oduna, gərək yanam, bizdədi

Məhəbbətdən yazdığımı gəlin qoyaq qırağa
El yolunda yazdıqlarım sığmaz kağız, varağa
Oruc, namaz, qiblə, dua, məzlumlara sadağa
Kəlmeyi–şəadət, salavat, müsəlmanam, bizdədi

Ay Qaracan, günah olar, Allaha ağır gedər
Uca Tanrının önündə əyilməsən sən əgər
Adəmdən icad olub, Qorquddan da yadigər
Aşığam, qolça – qopuzu, gərək çalam, bizdədi

## YAZIRSAN

Aşıq dostum, bərəkallah
Sözü sinəndən yazırsan...
Halalları yana qoyub
Haram yeyəndən yazırsan

Dolanırsan sorağında
Məclislərin marağında
Oturub yol qırağında
Gedib-gələndən yazırsan

Qaracanam, zər düzürəm
Ləli sinəmdən süzürəm
Yetmiş ildir ki, yazıram
Sənsə dünəndən yazırsan

## VAXTIDI

Dostum yatma yaraları sağlamağın vaxtıdı
Nəsillərə xoşbəxt bir gün ağlamağın  vaxtıdı
Həm cavanlı, həm qocalı, birgə qalxıb ayağa
Düşmənlərin sinəsini dağlamağın vaxtıdı

Qanmayanın qulağından vurub daşa qandırıb
Nəslini kökündən kəsib, küməsini yandırıb
Torpağıma göz dikənin dizlərini sındırıb
Qollarını gərib daldan bağlamağın vaxtıdı

Belə məqamı, fürsəti, Allah bizə yetirib
İndiyə dək millətimiz çox şeyləri itirib
Ay Qaracan qismətimiz hər nə varsa; - gətirib
Dostlar ilə bir əyləşib bağlamağın vaxtıdı

## NEYLƏYİM

Bir tərlanım uçub gedib, düşüb bəndə neyləyim
Sarğı ilə düyünlənmiş, tor kəməndə neyləyim
Dağları duman alıbdı, çovğun, cisgin çağlayır
Hara gedim mən binəva, qarlı çəndə neyləyim

Ömür keçir, dövran  dönür, vaxt zamanla  döyüşür
Keçirdiyim xoş günlərim xəyalımdan ötüşür
Qocalanda qəlb kövrəlir, yadıma ellər düşür
İndən belə durub qalxıb  gedim kəndə neyləyim

Əllərim simlər üstədi, barmaqlarım sədəfdə
Yay-oxum nişan üstədi, şikarım da hədəfdə
Qaracanam, işim əldə, şeytan da bir tərəfdə
Nəs gələndə, dolaşanda, tərsləşəndə, neyləyim

## DANIŞ

Aşıqsan, nağıl söyləmə, al sazı dastan danış
Həqiqətdən, mərifətdən, ərkəni-yoldan danış
Vətən dərdi, millət dərdi, çəkənlər qeyrətindən
Koroğludan, Cavanşirdən, Rüstəmi-Zaldan danış

Yön çevirmək, əyri baxmaq bayquşların baxşıdı
Şirin zəban, xoş sədaqət, insanlığın naxşıdı
Deyərlər ki, igid sözü mərd-mərdana yaxşıdı
Söz deyəndə üzünə  de, demirəm daldan danış

Var yaradan əllərimiz, qəhrəman ellərimiz
Şükür olsun yaradana, halaldı zəhmətimiz
Tanrı versin ruzumuzu, bol olsun nemətimiz
Əgər əldə imkan varsa, dövləti-maldan danış

Yaxşı sözdür, deyərlər ki, zər qədrin zərgər bilər
Keçmişlərə nəzər eylə, Atalar deyib nələr
"Dəryalarca ağlın olsa, yoxsul olsan gülərlər"
Gəldi-gedər olsa belə, bir az da puldan danış

Mələk donlu bir nazənin səni salar məstinə
Qılınc çəkər cəllad kimi, qənim durar qəsdinə
Siyah zülflər cığalanıb kaman qaşlar üstünə
Tər buxaqdan, gül yanaqdan, camaldan, xaldan danış

Haqq yaradıb bu insanı lap canı-dildən yanan
Qapısı dosta açılar, süfrəsində olar nan
Xalqına sərvət yaradan, millət üçün yaranan
Qaracan tək həm ağadan, həm də ki, quldan danış

## DUSTAĞIDIR

Adam var ki, vicdan, namus, ar, qeyrət, dustağıdır
Adam var ki, çox danışan, söz qiybət dustağıdır
Adam var ki, səxavətli, sədaqətli, kərəmli
Yönü qiblə, üzü haqqa ziyarət dustağıdır

Adam var ki, qatarlanıb, karvanı köçündədi
Adam var ki, özü sənlə fikir hində, çindədi
Adam var ki, gözü çöldə, buynuzu içindədi
Çörəyi diznin üstündə, müxənnət dustağıdır

Yerdə Qarğa qanad çalır, göydə sığırçın səkir
"Arsen" gəlib torpağımda kotan qoşur, turp əkir
Ellərim qanlar ağlayır əsirlərim yol çəkir
Aşıq Qaracan Borçalı Yurd, millət dustağıdır

## ƏYLƏŞMİŞƏM

Sənətimin zirvəsində vaxtında əyləşmişəm
Ələsgərin, Şıx Alının taxtında əyləşmişəm
Çəkilməyib  Haqq talanın nəzəri üstümdədi
Xıdır İlyaz, Koroğlunun atında əyləşmişəm

Hansı dövrü-zamandayam, özüm də bilmirəm ki,
Əməyimlə dolanıram, haram  mal yemirəm ki,
Bir kasıb, çoban kişinin oğluyam;-demirəm ki,
Milyonçunun qalağında, qatında əyləşmişəm

Yaradanmın qarşısında gərək qatlanım, çöküm
Yolum asan olsa belə, çox ağır oldu yüküm
El içində tanınmışam, bəllidir əslim, köküm
Qaracanam bir nəsilin zatında əyləşmişəm

# YAŞIMA BAX

Qocalmağma inanmırsan
Al sənətdə yaşıma bax
Gözlərinin önündəyəm
Bu ağaran başıma bax

Libas tökülür əynimdən
Xülyalar  keçir beynimdən
Uçub gedibdi çiynimdən
Mənim şahlıq quşuma  bax

Yay sınıb, oxum əyilib
Az qalıb, çoxum yeyilib
Gözümdən yuxum çəkilib
Gəl gecələr duşuma bax

Qırışıb üzüm dərisi
Azalıb canım çəkisi
Tökülüb otuz ikisi
Dur ağzımda dişimə bax

Bunlardı qarşımda duran
Önüm dağdı, arxam aran
Sağım bağdı, solum boran
Yazıma bax, qışıma bax

Hərdən çıxıram bələnə
Baxıram gedib, gələnə
Qaracan, gəlir ələ, nə?..
Peşəmə bax, işimə bax

## KÜSDÜRMÜŞƏM

A dostlarım bir könülü özümdən küsdürmüşəm
Bəlkə fikirləşməmişəm, sözümdən küsdürmüşəm
Gələnlərin sırasında gəlib, keçib qarşımdan
Ola bilsin görməmişəm, gözümdən küsdürmüşəm

Əllərimnən verdiyimi  başından endirəni
Sifətini gahdan sağa, gah sola döndərəni
Qədirsiz, qədir bilməzi, dondan-dona girəni
Çörəyimi qıyanmıram, duzumdan küsdürmüşəm

Ay Qaracan çaylar selə, bülbül gülə yaraşır
Saz sinənə, söz dilinə, barmaq telə yaraşır
Qalxan qola, qılınc ələ, xəncər belə yaraşır
Bunlar bir yana dursunlar, izimnən küsdürmüşəm

## GÜLMƏ

Durub xalqın qabağında
Öz-özünə deyib, gülmə
Kasıbların, fəqirlərin
Qazancını yeyib, gülmə

Düzəlt yorğa yerişini
Vurub, sərərlər leşini
Ağartma balta dişini
Peysərini əyib gülmə

Anqırma, batır səsini
Tökmə xalqın zəhləsini
Doylaqların gədəsini
Orda-burda öyüb, gülmə

Burax gəl bu təlxəkliyi
Götür təsbehi, çəliyi
Hərəkətnin əksikliyi
Bizə gəlir eyib, gülmə

Nəyi qandırır surətin
Gör kimdir sirin-sifətin
Ay Qaracan nəsihətin
Xətirinə dəyib;-gülmə

## NƏ MƏNASI VAR

Vəfasız yoldaşa, ilqarsız dosta
Sirrini verməyin nə mənası var
Bəhərsiz bostandan, bağbansız bağdan
Meyvəni dərməyin nə mənası var

Hədər verməyəsən ömrünü bada
Dağlarda qar olar, dəryada ada
Küləkli, çovğunlu susuz səhrada
Karvanı sürməyin nə mənası var

Əgər sən bu yurdda qalmayacaqsan,
Xanəsində, süfrə salmayacaqsan,
Bir evə ki, sahib olmayacaqsan,
Divarnı hörməyin nə mənası var

İnəyin ilk südü yağ-bulamadı
Tula dəyənəyi daş, yalamadı
İt ki, dağıtmadı, parçalamadı
Mırtlayıb hürməyin nə mənası var

Haqqın dərgahından ilham gəlməsə
Qaracan meydanda girənməz bəsə
Ac toyuqlar darını dənləməsə
Yuxuda görməyin nə mənası var

## MƏRDİ – MƏRDANA

*Mən qocaman bir aşığam*
*Meydanda mərdi-mərdana*
*Toy-nişana yaraşığam*
*Hər yanda mərdi-mərdana*

***Xındı Məmməd***

Çağır Haqqı, çək  qılıncı,
Vuranda mərdi-mərdana
Qarı düşmənlə üzbəüz
Duranda mərdi-mərdana

Geyinib polad donunu
Qanrıyıb qartal qolunu
Kəl buğanın kal boynunu
Buranda mərdi-mərdana

Getmə namərdin öyünə
Bağlan mərd açan düyünə
Sidq ürəklə dost küyünə
Varanda mərdi-mərdana

Qaracan yönü qibləyə
Sidqini bağlar Xudaya
Altı min  altı yüz ayə
Quranda mərdi-mərdana

## ÜMÜD ANCAQ YARA QALDI

Çox axtardım, tapammadım
Gəzmədiyim, hara qaldı?...
Nə üzümdə abır, haya
Nə cibimdə para qaldı

Beyqeyrətin dərdin çəkdim
Gah sağa, gah sola səkdim
Yeddi hektar buğda əkdim
Qarğa yedi qara qaldı

Fələk sənə qurar tələ
Ömrü-günü vermə yelə
Ay Qaracan indən belə
Ümid ancaq yara qaldı

## QADAĞANDIMI

Məni qoynunda çağlayan dalğamı, burğandımı
Büründüyüm  yapıncımı, yoxsa ki, yorğandımı
Yaradanın dərgahında şairəm, yazmalıyam
Bu yazdığım şeir, dastan Haqdan ərmağandımı

Gəl mənə nağıl söyləmə "biri yoxdu, biri var"
Yaranan hər bir bəndənin öz dərdi, öz səri var
Borçalıdan qonaq gəlib , gözüm üstə yeri var
Fərqi yoxdur Təkəlidi, yaxud Qaçağandımı

Dağlara gələn qasırğa bərələri bağlayır
Yağış yağır, şimşək çaxır, göydə bulud çağlayır
Millətin müşgül halına təbiyyət də ağlayır
Əsən xəzri, gilavarmı yoxsa urağandımı

Anlamazı anladasan qafasında dərk olsun
Anlamaq istəməyirsə qoy o bizdən tərk olsun
At alıbsan əziz dostum, dırnaqları bərk olsun
İnsanlarla mehribanmı, yoxsa vurağandımı

Səxavəti olan kəsin cibində qatına bax
Qoç igidin yarağına, birdə ki, atına bax
Ay qız sevən cavan oğlan, əslinə, zatına bax
Mələyi-məleykədimi, yoxsa çalağandımı

Qaracanam çatmadığım güc altına girmirəm
Yollar duman çisgindirsə karvanımı sürmürəm
Bir tərəfmi görürəm, mən, bir tərəfmi görmürəm
Sol tərəfim sıldırımdı, sağ tərəf yarğandımı

## ÜSTƏDİ

Bəxtəvərdi o bəndə ki, bəxti ayaq üstədi
Qisməti hər yandan gəlir, əli qalaq üstədi
Gəl ey Məcnun dolanma, bu səhra, biyabanları
Gözəllərlə seyrə çıxıb, leyli bulaq üstədi

Bərəkət bol olsa əgər, xoş keçən dövran olar
Mehribanlıq baş qaldırar, insan canhacan olar
Mərdin xanəsində qonaq, süfrəsində nan olar
Əli əmlik kababında, gözü qonaq üstədi

Həyatın şadlıq günündə sevinib şadlanmışam
Xoş halına bahəm olub, xatasından qaçmışam
Yetmiş ildə doxsan dəfə imtahandan keçmişəm
Aşıq Qaracan Borçalı hələ sınaq üstədi.....

## ÜSTÜNDƏDİ

Ala gözlər xumarlanıb, canımın qəsdindədi
Zalım durub cəllad kimi, qılıncı dəsdindədi
Yay oxları sıralandı köksümün qəfəsində
Yaraları göz-göz olub  sinəmin üsdündədi

Adəm oğlu ömür sənə heç də gəlməsin asan
Qarşı gələn nəsillərə qoymalısan bir nişan
Haqq talanın qüdrətindən yaranan hər bir insan
Dünyaya gəlməzdən əvvəl ruhu ələstindədi

Adam var ki, dəm qaynadır odunda, ocağında
Adam var ki, yuxudadı yatıb fil qulağında
Qul Qaracan Borçalının sirri, sir sandığında
Etibarı yoldaşında, vəfası dostundadı

# GERİ QAYITMAZ

Getdi cavanlıq çağlarım, bir də geri qayıtmaz
Dostlar gördülər qalmışam darda, geri qayıtmaz
Bir zamanlar şahlıq quşu qonmuş idi çiynimə
Vəzifə bir yana dursun, var da geri qayıtmaz

Əyilməzsən o zaman ki, bəxt özünə işləsin
Dözülməzdi, öz küçüyün, öz ayağnı dişləsin
Vay o gündən zaman sənə yurd yükünü yükləsin
Belə bir yükü çəkməyə nər də geri qayıtmaz

Dərdimi pünhan çəkirəm, içimdə qovrulmuşam
Yanmışam ocaq külü tək göylərə sovrulmuşam
Bir qəribi-binəvayam özümdən qovulmuşam
Ay Qaracan açılıbdı pərdə, geri qayıtmaz

# QOCALIQ

Bir qəribəm ayrılmışam doğma elimdən qocalıq
Bülbül tək fəryad eylərəm, qönçə gülümdən qocalıq
Tanrı verib mənə nicat, qüvvəti-taqət qoluma
Hələ yaratmaq, yaşatmaq gəlir əlimdən qocalıq

Bayquş baxır, qarğa yozur, sərçə yuxu söyləyir
Vətən, torpaq, əsir dərdi canımda qovr eyləyir
Quldura bax, öz yolumda karvanımı əyləyir
Nə vaxt qurtaracağıq dərdi-zülümdən qocalıq

"Aşot" "Anuş" gəlib durub Borçalının önündə
Dayanıb qarşımda mənim şeytan, iblis donunda
Əlim çatmır, ünüm yetmir, qılıncım da qınında
Vətən, torpaq, millət yükü düşmür belimdən qocalıq

## YORULMUŞAM

Sözlərimi anlamaza deməkdən yorulmuşam
Gündə dörd dəfə yanına getməkdən yorulmuşam
Bu yekəbaş, hoqqabazın dərdini, azarını
Bağlayıb, atıb çinimə, çəkməkdən yorulmuşam

Bunu yaradan bəndənin lənət gəlsin zatına
Xəcalətimdən girmişəm yerin yeddi qatına
Gahdan özümdən çıxıram, minirəm cin atına
Gah da salıb arsızlığma, gülməkdən yorulmuşam

Qaracanam, boz buludlar başımda şimşək çaxır
Bu yanqırda bir tərəfdən boynunu büküb baxır
Gəlib düşüb ayağıma gözlərindən yaş axır
Qəhərini özüm ilə bölməkdən yorulmuşam

## ƏLDƏN GEDƏR

Gəl düşmə xam xəyallara ismətin əldən gedər
Aza, çoxa şükür eylə qismətin əldən gedər
Çək bazara, sat malını, məzənnə qiymətinə
Baxma ucuz-bahasına kəsmətin əldən gedər

Ərənləri, möminləri yadına sal, yad eylə
Qara-günah xülyaları xəyalından yad eylə
Ye malını canın sağdı dahanında dad eylə
Zaman gələr, dövran dönər, sərvətin əldən gedər

Yaxın olsun, ya yad olsun, dalaşdınmı: tez barış
Dostun, eloğlun, qohumun incik olmasın çalış
Ağır əyləş, səbirli ol, kəlməni düşün danış
Əlli illik qazandığın hörmətin əldən gedər

Xəsdə görsən şəfa eylə, çalış ona çarə ol
Yoldaşın beyilqardırsa, göstər ona qara yol
Çək kəməri qurşağına, əyalında möhkəm ol
Başından düşər papağın, qeyrətin əldən gedər

İndi zaman başqalaşıb, getdi o dövran daha
Qiybət edib, böhtan demə, tez batarsan günaha
Qazandığın az olsa da, şükür eylə Allaha
Halal mala haram qatma, zəhmətin əldən gedər

Ay Qaracan günah etmə haqq-talanın  yanında
Əməli saleh bəndəni saxlayar pənahında
Nə bacarsan yaxşılıq et Tanrının dərgahında
Axirət dünyanı düşün, rəhmətin əldən gedər

# AZƏRBAYCAN GÖRÜRƏM

Düşmənin mənzil yolunun sonunda qan görürəm
Vətən yolunda ölməyə canımı qurban görürəm
Çıxmışam dağlar başına baxıram uzaqlara
Göyçə, Qafan, Zəngəzur, Mehri, Dilican görürəm
Hansı yana boylanıram Azərbaycan görürəm

Neçə Vətən oğulları canlarını əridib
Diyarı-qürbət ellərdə əzib, doğrayıb, didib
Həsrətinin hərarəti vicdanını göynədib
Dönüb ana torpağını öpüb qucan görürəm
Hansı yana boylanıram Azərbaycan görürəm

Vətənin yurd keşiyində dayanmalıyıq sayaq
Ki, müqəddəs torpağmıza düşmən basmasın ayaq
Xalqım bayram ruhundadı, atəşfəşanlıq, çıraq
Hər tərəfdə şadlıq, sevinc, gülüş, həyəcan görürəm
Hansı yana boylanıram Azərbaycan görürəm

Səfərdəyəm sərhədimdən çıxmışam kənarlara
Baxıram yol kənarında boylu sərv çinarlara
Yetmiş ildi bağlanmışdı, axır açıldı ara
Anadolda Qars, Qazıman, İranda Zəncan görürəm
Hansı yana boylanıram Azərbaycan görürəm

Karvanımı gah sürürəm, gah da ki, əyləyirəm
İki kəlmə danışanda, dördünü dinləyirəm
Əlimdə dastan kitabi, açıb vərəqləyirəm
Hansı vərəqi açıram orda Qaracan görürəm
Hansı yana boylanıram Azərbaycan görürəm

## DƏYİŞİB

Əlli ildi kəndimizdən çıxmışam
Baxıram Kəndimiz yaman dəyişib
Adət-ənənəmiz öz yerindədi
Dövran həmən dövran, zaman dəyişib

Gördüm ki, az qalıb tanıdıqlarım
Əllərimlə qurub, yaratdıqlarım
Məktəb yoldaşlarım, məhlə dostlarım
Əvvəlki səliqə-səhman dəyişib

Yandırmağa o hisli çıraqları
İsinməyə kərmə, çöp ocaqları
Qaytarmağa o cavanlıq çağları
Ay Qaracan yoxdu güman, dəyişib

## ƏZİZİM

Özümə yer tapıb dura bilmirəm
Məndən üz döndərən gündən əzizim
Əhvalım qarışıb səbrim tükənib
Çıxmışam imandan-dindən əzizim

Bəşər aləmində mən də bir bəyəm
Aşığam, şairəm bilmirəm nəyəm
Məhəbbət əhliyəm, sevən bəndəyəm
Dolanma, yazığam, gendən əzizim

Bilə bilməyirəm neyləmişəm mən
Könlünün budağnı əyməmişəm mən
Sənin xətrinə dəyməmişəm mən
Niyə yan keçirsən məndən əzizim

Nə dostum görünür nə də sirdaşım
Kövrəlir ürəyim, süzülür yaşım
Müddətdi çəkilmir bəlalı başım
Borandan, çovğundan, çəndən əzizim

Oxuyuram "Qoşma"dan "Gəraylı"dan
Dərs almışam Ələsgərdən, Alıdan
Sən ayrılsan Qaracan Borçalıdan
Qaracan ayrılmaz səndən əzizim

## SƏNİNKİ DEYİL

Gözəlim nə deyim, nədən danışım
Bu günkü dövranmız dünənki deyil
Yaş həddini aşıb, ömür qocalıb
Cavanlıq geriyə dönən ki deyil

Şamın pərvanəsi, bülbülün səsi
Gülün təravəti, eşqin nəfəsi
Aşıqlıq həvəsi, şairlik dəsi
Allah mənə verib, səninki deyil

Məni öz dünyamdan alan eşqinin
Çölü-biyabana salan eşqinin
Sənin Qaracanda olan eşqinin
Odu sinəsində sönən ki deyil

## HARA TƏLƏSİRSİZ

O qarlı dağlardan axan
Sellər, hara tələsirsiz
Sinəmdə çağlayan, çaxan
Tellər, hara tələsirsiz

Dövran zamanı izləyir
Dünya sirrini gizləyir
Nəsil nəsli əvəzləyir
Ellər, hara tələsirsiz

Qaracandı qəmlər biçən
Dəmin şərbətini içən
Karvan tək ömürdən keçən
İllər hara tələsirsiz

## KÖPƏK

Hürənmirsən, mırıldama, düşübsən haldan köpək
Sümüksüz ət axtarırsan, doymusan yaldan köpək
Sallaxxana tulası tək sallanır qulaqların
Tulamazdı atır sənə hər ötən yoldan köpək

Gözlərindən zığ tökülür, canına düşüb gənə
Aşağı əyilib başın, yana sallanır çənə
İndən belə əllərə bax, gör nə atıllar sənə
Daha gəl üz ümüdünü, kərədən, baldan köpək

Qaracanam, çətin daha əlim bir yana yetsin
Əvvəlki tək bəxtim mənim başımnan ləl ələtsin
Pişik ki, gəlib köpəkdən vəsiqə tələb etsin
Bax elə belə şeylərdi məni qocaldan köpək

## LAZIMDI

A dostum işləri başlamaq üçün
Bir az əlimizdə maya lazımdı
Mal-qaranı yaza çıxarmaq üçün
Hündür, ilanyalı taya lazımdı

Aqil bəndə yerini dar eyləməz
Halal yığar, haramdan var eyləməz
Alnamaza dəyənək kar eyləməz
Təpəsnə vurmağa qaya lazımdı

Bilək güclü olsa palıdı əyər
Minnət edirlərsə qalmağa dəyər
Atasız, anasız yetim böyüyər
Kimsəsiz körpəyə daya lazımdı

Xatadan uzaq ol, saxla başını
Hər şeyə kövrəlib, tökmə yaşını
İsti bir otaqda keçir qışını
Kölgəlik, sərinlik yaya lazımdı

Adam var ki, girib şeytan donuna
Üyünüb, dönübdü buğda ununa
Söz deyirsən, verir "peysər" boynuna
İnsanın üzündə haya lazımdı

Ay Qaracan "dost"un torpaq alıbdı
Çəpər çəkib, içində yurd salıbdı
Şitil əkib, o da yerdə qalıbdı
Dayaq basdırmağa paya lazımdı

# ÜÇ RƏNGLİ BAYRAĞIM

Vətən oğlu dillərdədi igid sədan, sorağın
Ürəklərdən axıb gedir çeşmələrin, bulağın
Bir yaradan, bir yaranan silinməz sinələrdən
Tarixlərin yaddaşında yazılacaq varağım
Dalğalanır başım üstə üç rəngli al bayrağım

Qarı düşmən qalmalıdı fəryadında, ahında
Nizam ordu yaratmışam igid qərargahında
Zəfərlər bizi gözləyir ilahi dərgahında
Alayım arxamda dayaq, əlimdə də yarağım
Dalğalanır başım üstə üç rəngli al bayrağım

Analar oğul böyüdər vətənin beşiyində
Düşmənimi axtarıram köstəbək deşiyində
Ayıq-sayıq dayanmışam yurdumun keşiyində
Əlimdə ayna tüfəngim, qurşağımda darağım
Dalğalanır başım üstə üç rəngli al bayrağım

Yurd-yuvasna yön çevirər ağır ellər-obalar
Bacalarmız tüstülənər, alovlanar sobalar
Torpağımız təmizlənər, yurdumuz azad olar
ŞöləlLənər şam-çırağım, od közərər ocağım
Dalğalanır başım üstə üç rəngli al bayrağım

Lazım bilib, qələm alıb, şərəfinə yazmışam
İgid, karlı oğulların qanına qan qatmışam
Torpağımın sərhədinin səngərində yatmışam
Vətən və millət yolunda çox olubdu sınağım
Dalğalanır başım üstə üç rəngli al bayrağım

Qaracanın ürəyinin alovusan, odusan
Zəfərinin uğurusan, dahanının dadısan
Millətimin şərəfisən, şöhrətisən adısan
Şərəfini qorumasam ağır olar qınağım
Dalğalanır başım üstə üç rəngli al bayrağım

## AZƏRBAYCAN OLMASA

Mən bu ömrü yaşamaram Azərbaycan olmasa
Sızlayar qan verər yaram, Azərbaycan olmasa
Çörəyi burnumdan gələr əgər itirsəm onu
Demərəm dünyada varam, Azərbaycan olmasa

Zalım fələk qoşa dura mənim ilə qol-qola
Malım, mülküm aşıb daşa, gah boşala, gah dola
Dağlarda bürcü qalam, dəryada səngərim ola
Heç yerdə dövran qurmaram Azərbaycan olmasa

Vətən yükü çəkə bilməz hər qeyrətsiz, yaramaz
Yad eyləyib, yada salmaz, nə axtarmaz, aramaz
Ürəyimdən təpər olmaz, əlim işə yaramaz
Çətin ki, yaradam, quram Azərbaycan olmasa

Keçər xəzan, gələr bahar, bağlar yetişər bara
Qoca canım dön vətənə, sən hara qürbət hara
Elsiz, obasız, vətənsiz, canı çəkəm kənara
Qalmayıb özgə bir çaram Azərbaycan olmasa

Mərd ananın döşlərindən mənəm halal süd əmən
Hər tərəfim çəmən, çiçək, lalə, nərgiz yasəmən
Yağışım, kölgöyüm, günüm, olarsa da, yenə mən
Bağbansız bir bağda baram, Azərbaycan olmasa

Çarx dolana, dövran dönə ya qovulam, ya qovam
Oxlarına tuşlanmışam, şikarına bir ovam
Qaracanam bu diyarda yerləşib yurdum, yuvam
Getməyə haram var, haram, Azərbaycan olmasa

## KEÇƏSƏN GƏRƏK

Bəd qohumun, pis qonşunun dilindən
Yurdu tərk eyləyib, köçəsən gərək
Yaxşı dostun badə alıb əlindən
Zəhər olsa belə içəsən gərək.

Düşmən gəlib ayaq alsa üstünə
Kəmənd atıb, əgər dursa qəsdinə
Qılınc alıb qollarına, dəsdinə
Bədəndən boynunu biçəsən gərək

Dərk eylə, fikirləş Qaracan lələ
Bir "dost" ki, yoluna qurubdu tələ
Onunla duz-şörək kəssən də belə
O duzdan, çörəkdən keçəsən gərək.

## QAYIT

Bir dəli şeytan deyir ki,dur get kəndi gəz qayıt
Gör hələ yerindədimi o od, ocaq, köz, qayıt
Atamın qoyduğu himi, hördüyü divarları
O doğma yurd-yuvasını baxışınla süz qayıt.

Zamandır ki, ayrılıbsan doğma eldən,Borçalı
Zər-zibalı dövranın var, vermə əldən, Borçalı
Ləli-dürlü kəlmələrin yağır dildən, Borçalı
Bu sözləri deyib mənə şair dostum Alqayıt.

Qaracanam, səxavətim əlimdədi, əzəldən
Şirin-zəban kəlamlarım dilimdədi əzəldən
Fikrim,xəyalım, diqqətim elimdədi əzəldən
Baxma ki, məsgənim olub Bakı, Saray, Sumqayıt.

## OLAR

Elin qəhərni, çəkənlər
Ağsaqqal, ağbirçək olar
Bağda qərənfil, yasəmən
Çəməndə gül, çiçək olar

Sinən şeir, qəzəl ola
Bahar ola, xəzəl ola
Bütün aləm gözəl ola
Könül sevən göyçək olar.

Yad bələyni bələyənin
Ələyini ələyənin
Güləyənin, söyləyənin
Ayaqları sürçək olar.

Yurdum dağlar damənində
Gah da güllü çəmənində
Hərdən-bir mərd düşmənində
Sağlığına içək;..... olar.

Daşqın çaylar bəndə baxır
Gah çalxanır, gah lal axır
Ay Qaracan əzəl-axır
Elin sözü gerçək olar.

# GÖZƏL

Bahar, yaz fəslidir, hər yan gül-çiçək
Lalədən, nərgizdən dəstələ, gözəl
Siyah tellərini sal sinən üstə
Xalların eşqinə bəstələ, gözəl.

Qarşımda nazlanan sər-sərbazınla
Göylərə şahlanan şux pərvazınla
Qaşınla, gözünlə, işvə nazınla
Az məni bu qədər məst elə, gözəl.

Meyvə salxımısan ay şirin gilas
Geyibsən əyninə zər libas, atlas
O mina əndama, cana qulaq as
Demirəm özünə qəsd elə, gözəl.

Başının üstunə bulud gəlməmiş
Uğur yollarına nəs dilənməmiş
İfritələr səni üstələməmiş
Onları qabaqla üstələ, gözəl.

Demirəm şad könlü pərişan eylə
Qanlı düşməni də barışan eylə
Mehribanlıq yarat xoş nişan eylə
Xalqı bir-birinə dost elə, gözəl.

Qaracanam, kefim, damağım, dəmim
Mən səni sanmışam dostum, həmdəmim
Deyirəm məlhəm ol dərdimə mənim
Demirəm sağ canmı xəstələ, gözəl

## HƏYAT YOLDAŞIM BALLI XANIMA

Mən sənin ömür-gün yoldaşınam, bil
Belə dönüb mənə qıyqacı baxma
Yad əllərdən daha şəfa gözləmə
Özmüzük dərdmizin əlacı, baxma.

Kimsəsiz bəndəyəm, yoxdur yananım
Nə halım duyanım, nə dərd qananım
Ətrafım dağılıb, boş qalıb yanım
Nə qardaş axtarır, nə bacı, baxma.

Ömür yaşamısan Qaracan bəylə
Cavanlıq köç edir, karvanı əylə
Şümşət qollarını həmayıl eylə
Gətir sal boynuma qulacı, baxma.

**Dekabr, 2017**

## ÜSTÜMƏ QURD ULAYIBDI

İşlərim getmir, elə bil
Üstümə qurd ulayıbdı
Bəlkə aralıqda yenə
Şeytan quyruq bulayıbdı.

Aralığı qatana bax
Kölgələrdə yatana bax
Şər - böhtana batana bax
Çuğul xəbər culayıbdı.

Bu qisası axıracan
Əl çəkmərəm alanacan
Qoy desinlər ki, Qaracan
Haqlı meydan sulayıbdı.

# İNŞALLAH

O gəzdiyim yaylaqları, dağları
Birdə gedib gəzməliyəm inşallah
Gözəllərin tellərinə gülləri,
Çiçəkləri düzməliyəm inşallah

Dolanardım doloyların uzunu
Otarardım körpə, əmlik quzunu
Duzdaxlıxda sürülərin duzunu
Daş götürüb əzməliyəm inşallah

Xram çaynın kənarına yollanıb
Çaylağında çadır qurub hallanıb
Yarğanından başı üstə millənib
Burğanında üzməliyəm inşallah

Şan gətirib mənə bu el, bu oba
Xəzinədir, saysam gəlməz hesaba
El yolunda hər möhnətə, əzaba
Əziyyətə dözməliyəm inşallah

Çəkilmişəm bu elin sınağına
Hörmətim var hər gələn qonağına
Gördüklərmi sinəmin varağına
Qaracanam, yazmalıyam inşallah

# BİR YANDA MATƏMDİ, BİR YANDA TOYDU

Vətən sarayının himi çöküldü
Dayağı əyildi, daşı töküldü
Zaman-zaman divarları söküldü
Hər tərəf atəşdi, oddu, aloydu
Bir yanda matəmdi, bir yanda toydu

Bilmirdik ki, zəhmətimiz hədərdi
Dərdimiz, qəmimiz dünya qədərdi
Borçalı həsrəti, Göyçəli dərdi
Qanmızda göynəyən buzdu, quroydu
Bir yanda matəmdi, bir yanda toydu

Axdı dəryalara elin sərvəti
Göynədi vicdanı, qırdı qaməti
Şəhidlər qisası, torpaq həsrəti
Didib parçaladı, qəlbimi oydu
Bir yanda matəmdi, bir yanda toydu

Dərimizi çəkib soyduq, görmədik
Nökəri, bəy yernə qoyduq, görmədik
Qəflət yuxusuna uyduq, görmədik
Axır görəcəymiz bax elə buydu
Bir yanda matəmdi, bir yanda toydu

Qərarlarna dur bax gəl bu "Bəy"lərin
Düşgünü, xəstəsi vəzifələrin
Torpağı, milləti görməyənlərin
Gözləri ya kordu, yada qaroydu
Bir yanda matəmdi, bir yanda toydu

Boğazına bir zəncir sal bu itin
Ki, yeməsin sonra canının ətin
Ay Qaracan altındakı bu atın
Başındakı noxta, yoxsa culoydu
Bir yanda matəmdi, bir yanda toydu

## VERMİŞƏM

Çox mənalı bir həyat yaşamışam
Demərəm ki, ömrü yelə vermişəm
Cavanlıq çağımda, sevda başımda
Eşqi-məhəbbətmi gülə vermişəm

Yurd elimdə qurmuşam səngərimi
Dalğalar qoynunda söz ləngərimi
Şirin sözlərimi, kəlmələrimi
Zəbanı bir şirin dilə vermişəm

Qaracanam sənətimdə həvəsdə
Məclisim, alayım başımda dəsdə
Telli sazı alıb sinəmin üsdə
Gahdan bəmə, gahdan zilə vermişəm

## GÖZƏLLƏŞİBDİ

Dostum, indi zaman, başqa zamandı
Gördüyün hər bir şey özəlləşibdi
Dövran tərsə dönüb, qayıdır dala
Adət, ən-ənəmiz əzəlləşibdi

Fələyin gərdişi fəsillərindi
Nəs günün, nəs ayın, nəs illərindi
Dövran bizdən keçdi, nəsillərindi
Ömür baharımız xəzəlləşibdi

Qarışmaram mən Tanrının işinə
Tarixin, dövranın pul vərdişinə
Baxıb zamananın qul gərdişinə
Qaracan Borçalı "gözəlləşib"di...

## ALLAHA PƏNAH

Bu günkü gününü düşün a dostum
Sabah nə olacaq, Allaha pənah.
Mənzili haqlayan ömür karvanın
Harda dayanacaq, Allaha pənah

Meylini nəzərni kəsən iqbalım
Külək tək hər yana əsən iqbalım
Məndən üz döndərib, küsən iqbalım
Haçan qayıdacaq, Allaha pənah

Dağlarda sel oldum, çaylara axdım
Ömrüm səmasında çalxandım, çaxdım
Qaracanam, illərlə yatan baxtım
Nə vaxt oyanacaq, Allaha pənah

## GÖR

Dostum, Qaracanı, görmək istəsən
Halı qəmdən dəmə dəyişəndə gör
Kamil ustadlarla qarşı-qarşıya
Sənət meydanında deyişəndə gör

Şanalı dilləri, qönçə gülləri
Sədəf barmaqları, sinə telləri
Hicran ürəkləri, həsrət əlləri
Bir-birinə çatıb, qovuşanda gör

Cövlandım "Cəngi"yə aslan donunda
Qaracanın el yüküdü qolunda
Torpaq uğurunda, vətən yolunda
Düşmənlə üzbəüz döyüşəndə gör

## QOCALDIM

Bütün arzularım yetdi kamına
Dolandım hər yanı gəzdim qocaldım
Yaxşını, yamanı, əyrini, düzü
Nəzəri-diqqətlə sezdim qocaldım

Çox bağladım bərələrin bəndini
Anlamazın nə imanı, nə dini
Gözəllərin vəfasını, əhdini
Süzgün baxışlarla süzdüm, qocaldım

Əyrilərin düzəlməz əllərinə
Fitnələrin zəhərli dillərinə
Kəm həyatın dözülməz günlərinə
Mətin qürurumla dözdüm qocaldım

Çox dolandım obaları, elləri
Yola saldım fəsilləri, illəri
Vəfadarmın tellərinə gülləri
Zərif əllərimlə düzdüm qocaldım

Qaracana Tanrının buyurduğu
Bunlar oldu yaratdığı, qurduğu
Ozan babaların miras qoyduğu
Sənət dəryasında üzdüm qocaldım

## EHTİYACI VAR

Yurd ocağnı yandırmaqda yurdun ehtiyacı var
Qoyunu parçalamaqda qurdun ehtiyacı var
Vətən, torpaq müqəddəsdi, dayağında durmalı
Milləti qorumaq üçün ordun ehtiyacı var

Yaratmaq, qurmaq istəsən əlindəərman gərək
Bəndəyə qəyyum eyləmək Tanrıdan fərman gərək
Sağlamlara can sağlığı, xəstəyə dərman gərək
Təbibə, dərman-davaya dərdin ehtiyacı var

Yağıların yağılarna bizdən olsun ərğamaq
Nəşlərinə lənət deyib, ruhlarına qarğamaq
Yüz "Petros"un kəlləsini bir qazana doğramaq
Qul Qaracan Borçalı tək mərdin ehtiyacı var

## BACARMADIQ

Oturduq, matəm saxladıq, gülməyi bacarmadıq
Dörd eşşəyin arpasını bölməyi bacarmadıq
"Aratunyan" məsgən saldı torpağımda, yurdumda
Gendən baxıb hırıldadıq, ölməyi bacarmadıq

Bu nə dərddir Tanrı göydən baxdı bizə göndərdi
Öz yurdunda, ocağında qul olmaqda bir dərddi
Əsir dərdi, torpaq dərdi, millət dərdi, el dərdi
Eylədiymiz günahları silməyi bacarmadıq

Ay Qaracan yaradansan, al qələmi yaz, yarat
Bəd işlərdən uzaq dolan, ömrünü yaşa rahat
Olanları, keçənləri yığ torbaya kənar at
Dil tapıb ortaq məxrəcə gəlməyi bacarmadıq

## BƏRİ

Papaq qoyub, kişiləşib "dost"um dünəndən bəri
Ağsaq qabağa düşübdü, sürü dönəndən bəri
Beşikdə körpə səsi var, çağası vığıldayır
Özünə ata dedirdir körpə dinəndən bəri

Vaxt var idi barmaqları divarları deşirdi
Ayaqları göylə gedib, yerlərlə əlləşirdi
Zərbəsi dağlar topası, pənci pələngdi, şirdi
Bir az havası alınıb, taxtı enəndən bəri

Deməyin ki, qul Qaracan meydanlarda təhləni
El sözüdü deyərlər ki, "Kor kölgöydən şəhləni"
Yorğası yorğun qalıbdı, çorta gedir köhləni
Atdan düşüb, boz eşşəyin belnə minəndən bəri

## MƏN

Haqq-taalanın bəndəsiyəm, hər kiməmsə buyam mən
Yaranmışam söz sərrafı, anlayan mən, duyan mən
Yönüm Kəbeyi-qibləyə, ya Məhəmməd-hümməti
Çox çətindi fitnə-fələ qoşulam mən, uyam mən

Əllərimi ərənlərdən çətin ki, cəkəm, üzəm
Əyrilərdən gen gəzərəm, düz olanlarla düzəm
Dost gözündə çıraqlanan günəşli bir gündüzəm
Düşmən hədəfnə tuşlanan nizə, kaman, yayam mən

Verdiyimi unutmuşam, bilmirəm aldığımı
Öz bağımda zəhmətimlə, becərib satdığımı
Qaracanam sənətimdə qazanıb yığdığımı
İllərlə oturub gərək bircə-bircə sayam mən

## MƏNİM

Dünən camal açan bir xanım, bu gün
Açdı əllərini üstümə mənim
Dünya tara döndü, halım dəyişdi
Təbiyyət büründü tüstümə mənim

Fələk də mənimlə düz gətirməyir
Nə əldə saxlayır, nə itirməyir
Əllərimi ellərə yetirməyir
Elə bil durubdu qəsdimə mənim

Qaracanın qəlbi sudan durudur
Nə müsgül hal götür, nə boynunu bur
Uzaqda dayanma, yaxınımda dur
Bəlkə isinəsən istimə mənim

## TANIMADI

Kəndə getdim becərdiyim
Bağlar məni tanımadı
Cavanlıqda keçirdiyim
Çağlar məni  tanımadı

Eşləyib tumarladığım
Yanlara daraqladığım
Səhər, axşam yağladığım
Bığlar məni tanımadı

Dəryazım köşən biçində
Karvanım doloy köçündə
Şamama, bostan içində
Tağlar məni tanımadı

Yal-yalına dolaşdığım
Nəm şehinə bələşdiyim
Bir vaxt boynundan aşdığım
Dağlar məni tanımadı

Qaracanam, qocalmışam
Hövsələdən daralmışam
Günəş vurub qaralmışam
Ağlar məni tanımadı

## GÖRƏSƏN NƏ GÖRMÜŞÜK RUSİYADA, AVROPADA BİZ

Baxıram dövlətimə başdan aşır sərvətimiz
Azərbaycandı bizim məkanımız, məsgənimiz
Bolluca nemətimiz, daşır ruzi-qismətimiz
Yenədə çəkilməyir yad əllərdən gözlərimiz
Görəsən nə görmüşük Rusyada, Avropada biz

Şükür olsun, yatanlarmız yuxusundan oyanıb
Gözlərini açıb görüb, Vətən qana boyanıb
Sağımda sarı "ivan", solumda "axber" dayanıb
Yenə də görmürük  kimdi bizim düşmənimiz
Görəsən nə görmüşük Rusyada, Avropada biz

Dayaq bildik, dirəymizi söykədik ermənlərə
Dörd qətnamə, yeddi qərar atıldı arxivlərə
Qərarları qar suyu tək axıb getdi sellərə
Xaçpərəstin əllərində budur aqibətimiz
Görəsən nə görmüşük Rusyada, Avropada biz

Torpaq, millət qeyrətində kölgədə örtülmüşük
Vəzifələr masasına qalay tək sürtülmüşük
Çağrılmamış yerlərə də minnətsiz dürtülmüşük
Görüşlər görüş dalınca, yorulmadı çənəmiz
Görəsən nə görmüşük Rusyada, Avropada biz

Yaradanın yaranana bəxş etdiyi paya bax
Bar bəhərli anbarına, tayalanan taya bax
Ay Qaracan sərin üstə sərinlənən saya bax
Dalğalanan zəmilərmiz, burğalanan neftimiz
Görəsən nə görmüşük Rusyada, Avropada biz

## YURDU VAR, DƏDƏ

Sizə söhbət açım Borçalıdan mən
Gör neçə qeyrətli mərdi var, dədə
Yurdu talan olmuş Qarabağ kimi
Bəlkə də çox ağır dərdi var, dədə

İnsan, insan ilə ayrıla bilər
Bostan uralanar, sovrula bilər
Torpaq ayrılanda qovrula bilər
Torpağında tamah qurdu var, dədə

Doğuldum, boy atdım, yaşadım burda
Bağlandım, isindim, sarıldım yurda
Borçalı deyilən doğma diyarda
Qərib Qaracanın yurdu var, dədə

## NƏ SƏN MƏNDƏN, NƏ MƏN SƏNDƏN YARIDIM

Qoca dünya ilqarında durmadın
Mürvət qılıb əhvalımı sormadın
Müşgüllərmin üstünədə varmadın
Ömür keçdi, lap qocaldım, qarıdım
Nə sən məndən, nə mən səndən yarıdım

Tale mənə qarşı durdu, üz oldu
Əlli dərdim artıb doxsan, yüz oldu
Mən sayan yox, fələk sayan düz oldu
Qəm varına lap batıldım, barıldım
Nə sən məndən, nə mən səndən yarıdım

Qaracanam, dost dərdimi bilmədi
Dönən bəxtim dönüb üzmə gülmədi
Xəstə oldum həkim, loğman gəlmədi
Yaralarmı əllərimlə Sarıdım
Nə sən məndən, nə mən səndən yarıdım

## DAĞLAR

Qayıdırdım səfərimdən
Sizdən düşdü yolum, dağlar
Önə gəldi keçmişlərim
Tarixlərim, ulum dağlar

Hal-əhvalım tarazlandı
Bülbül səsim avazlandı
Asimanda pərvazlandı
Qanadlandı qolum dağlar

Güllər gözəllər dəsdində
Gözəllər canım qəsdində
Dolanır başım üstündə
Bulud bulum-bulum dağlar

Naxır sürən çobanların
Şümşət boylu cavanların
Qatarlanan karvanların
Sər sarvanı olum dağlar

Dolaylardan dolaşığı
Çiçəklərdən sarmaşığı
Gicitkanı, cırmaşığı
Əllərimlə yolum dağlar

Qaracanam, qəlbə qalxım
Boylanım ellərə baxım
Çağlayım, şimşək tək çaxım
Bulud kimi dolum dağlar

## TÜRKÜN ÇÖRƏYİ, DUZU

*Nankor ermənilərə*

Yaxşılığı sizlərə biz nəyə görə eylədik
Nəyin xatirinə sizi torpağmızda bəylədik
Yersiz, yurdsuz qalmışdınız, yanımızda əylədik
Sizin kimi səhralarda ilan yeyən qunduzu
Burnunuzdan gələcəkdi Türkün çörəyi, duzu

Gözünüzə sürmə çəkib, bürünübsüz qumaşa
Aranqutan meymunu tək oynayırsız şabaşa
Sarıların fitvəsinnən başlayıbsız savaşa
Bir gün dəyər başınıza dəyənəyi, topuzu
Burnunuzdan gələcəkdi Türkün çörəyi, duzu

İsindiniz ocağıma, boğuldunuz tüstümə
Yurdumda yuva saldınız, dirəşdiniz qəsdimə
İndi çıxıbsız başıma hürürsünüz üstümə
Nahaq zəncirmə bağladım sizin kimi quduzu
Burnunuzdan gələcəkdi Türkün çörəyi, duzu

Deyəsən keçməyibsiniz hələ onun cənginə
Zərbələri dəyməyibdi kəllənzinənginə
Dönüb gəl bir bax özünün irzinə-irənginə
Gecələrə nur çiləyir millətimin ulduzu
Burnunuzdan  gələcəkdi Türkün çörəyi, duzu

Ölməz adı, tarixi var bu sənət Allahının
Ağkilsədə Ələsgərin,Qızılvəngdə Alının
Türk balası, Azər oğlu Qaracan Borçalının
Qanmazı qandırmaq üçün var əlində qopuzu
Burununuzdan gələcəkdi Türkün, çörəyi, duzu

## YALTAQ

Gözə bəsdi, çək sürməni qaşına
Papaq yoxdur, yaylıq bağla başına
Nə qoyarsan oda çıxar aşına
Əlinlə əkdiyin bitər a yaltaq

Çənən sazdır, qarğa kimi ötürsən
Yaltaq payı kim nə versə götür, sən
Bu sənəti övladlarna ötür sən
Səndən beş qat artıq ötər a yaltaq

Şair Qaracandan gəl mərdlik öyrən
Gələnlə qarşılan, gedənlə əylən
Az bu qədər baş əy, təlxəklən, teylən
Bəsdi, həyan olsun, yetər a yaltaq

## MƏCLİSLƏR OXŞAYAN OZANMIZ YOXDU

A dostum "Helloza", "Caz" zamanıdı
Məclislər oxşayan Ozanmız yoxdu
Yediymiz, içdiymiz hamsı haramdı
Halallıq qaynadan qazanmız yoxdu

Cavanlar gözəlin əlinə uyur
Qaşına, gözünə, telinə uyur
Göz açan şeytanın felinə uyur
Həqiqət yolunu gəzənmiz yoxdu

Yaltaqlar arada quyruq bulayır
Qarğa qırıldayır, bəyquş ulayır
Təriflər, yalanlar meydan sulayır
Daha düzgünlüyü yazanmız yoxdu

“Varmış ismət üzdə haya çəkənlər”
Millət qeyrətini guya, çəkənlər....
Ördək göyə, balıq suya çəkənlər
Əyənlərimiz var, düzənmiz yoxdu

Sənət dünyasında qoyubdu himi
Var bu şah sənətin loğman, həkimi
Haqqı, həqiqəti Qaracan kimi
Yazanlarımız var, pozanmız yoxdu

## DOST AĞLAYAN YERDƏ DÜŞMƏN GÜLMƏSİN

Duva qıllam dost-aşnalar, qohumlar
Bəd nəzərlər üstünüzə gəlməsin
Hər ağrıya, acıya dözmək olar
Bala ağrısını ana görməsin

Adam var ki, yaraq alıb dəsdinə
Əhdi basıb dayanıbdı qəsdinə
Yad itləri qoy hürüsün üsdünə
Öz itlərin öz üstünə hürməsin

Dərd əhlinin dərdi öznə yetərdi
Tənə sözlər qılıncdan da ötərdi
Ay Qaracan ölümdən də betərdi
Dost ağlayan yerdə düşmən gülməsin

# NƏ GÜNDƏDİ

Döndüm ata yurduna mən
Qapı-baca nə gündədi
Acından hində qırılır
Toyuq-cücə nə gündədi

Qapıda qanqal bitibdi
Yurddakı yurddan itibdi
Sən demə yurdu atıbdı
Bir il öncə nə gündədi

Yanan görmədim çırağı
Nə odunu, nə ocağı
Qaralan qara torpağı
Qoyub dincə nə gündədi

Anamın xəlbir, ələyi
Görmədim qara inəyi
Atamın ot biçənəyi
Alaf, yonca nə gündədi

Tutubdu hörümçək, güvə
Divardan asılmış gəvə
Girdim, nəzər saldım evə
Bucaq, küncə nə gündədi

Halsızlıq gəldi dizimə
Qaranlıq çökdü gözümə
Dönüb baxdım öz-özümə
Qul Qaracan nə gündədi

**İyul 2017-ci il**

## YANIMDA

Qoca təbiyyətin mənzərəsnə bax
Yaylaq bir yanımda, qar bir yanımda
Sol yana boylandım, sağ yana baxdım
Bağban bir yanımda, bar bir yanımda

Bahar fəsli, yazın oğlan çağında
Ata-babaların yurd ocağında
Çeşmə dərgahında, çay qırağında
Dost bir yanımdadı, yar bir yanımda

Qaracan biləni bilənlər bilir
İlhamı yaradan Tanrıdan gəlir
Mizrab telə dəyir, pərdələr dinir
Saz bir yanımdadı, tar bir yanımda

## EY KÖNÜL

Cənnət, cəhənnəm deyilən əfsanədir, ey könül
Əlimdəki dəm şərabı, piyalədir ey könül
Dəryaların  dərinindən incilər axtarıram
Kəlmələrim ləl-cəvahir, dürdanədir ey könül

Öz dəvası, dərmanı var, hər xəstənin, naçağın
Pənahına sığınmışam ağuşu gen qucağın
Durğun, düşgün xəyallarım, gurlayan bir ocağın
Ətrafında dövrə vuran pərvanədir ey könül

İnsan gərək var əlini arxaya çöndərməsin
Dosta, eloğla, qohuma bəd, nifaq göndərməsin
Bir füqara görən zaman üzünü döndərməsin
Məzlumlara verilən pay iyanədir ey könül

Yaratdığnın pənahında dursun bizi yaradan
Çox ağırdı, əziyyətdi, ağrı çəkmək yaradan
Əllərində kağız-qələm, çoxdu yazıb, yaradan
Borçalının yaratdığı mərdanədir ey könül

Çobanlar dağlar qoynunda, dəryaz çəkən biçində
Yönü "Yallı" yaylağına, köç karvanım köçündə
Yurd alayım ətrafımda telli sazım döşümdə
Aşıq Qaracan Borçalı divanədir ey könül

## GÖYƏRÇİN

Quşların ən gözəlisən
Lələkləri göy göyərçin
Açıqdır sənin üzünə
Qapı, baca, öy göyərçin

Bir yaxın gəl nazlı Afaq
Silinsin qəlbimdən nifaq
Gözlərimə gözün şəfəq
Qanadın kölgöy göyərçin

Qaracan halın bilməyə
Utanma bizə gəlməyə
Dən tapmasan dənləməyə
Gəl qapımı döy göyərçin

## HƏLƏ YETMİŞİMDƏ SÖNDÜRƏNMİRƏM

Bir dərdim var ellər, pünhan çəkirəm
Açıb dərd bilənə bildirənmirəm
Nə səbrim qalmayıb saxlayan, dözəm
Nədə ki, sinəmdən sildirənmirəm.

Sənbur gədiklərdən aşan canımı
Günahsız odlarda bişən canımı
Kəhər yəhərindən düşən canımı
Köhlən yalmanına qaldıranmıram.

Karvan çəkən bir sarvanın yoluyam
İsbat olsa tarixlərdə uluyam
Qananında, qanmazında quluyam
Kəmsər yarımçığı qandıranmıram.

Təbib nə eyləsin vaxtı çatmışa
Taleyi dönmüşə, bəxti yatmışa
Qalxıbdı təziqim yüz altımışa
Nə eyləyirəmsə endirənmirəm.

Qaracanam dəmdən dinən eşqimi
Bir vəfasız qəlbdən dönən eşqimi
Gənclik illərimdə yanan eşqimi
Hələ yetmişimdə söndürənmirəm.

# QUL QARACAN PUL QIRIR

Xatirələr keçmişlərmi andırır
Ağ saçlarım qocalığmı qandırır
Atəşim var, alovum var, odum var
İçim özmü, çölüm yanmı yandırır

Ömür verdim həftələrə, illərə
Şükür dedim yaxşı, yaman günlərə
Əllərimlə nəsillərə, ellərə
Yaratdığmı daş-qayalar sındırır

Zaman keçir yaş özünü bildirir
Var qismətim hərdən məni dindirir
Yorğun bəxtim gah görürsən endirir
Gah görürsən asimana qaldırır

Məsgən saldım yaylaqlarda, binədə
Dastanlarım sıralandı sinədə
Hansı kökə köklənirəm, yenə də
Zalım fələk öz havasnı çaldırır

Mal-qoyunu, at-eşşəyi satmışam
Novxanıda bir az torpaq almışam
Daldanmağa bir kümə qaraltmışam
Deyirlər ki, qul Qaracan pul qırır

# GETDİLƏR

Bu məclisdən iki nəfər qəfil qalxıb ayağa
Əyləşən məclis əhlini saymadılar getdilər
İnsanlığa layiq olan mərifəti, hörməti
Nə özlərnə, nə məclisə qoymadılar getdilər

İnsan olan ürəyində bağlamasın xofəti
Tək yaranan hər bəndənin olmasın dörd sifəti
Arada xətir – hörməti, insanlığı, ülfəti
Atdılar ayaq altına, duymadılar getdilər

Tanrıya təpik atanın taleyi bağlar yara
Ruhu xəstə olan kəsin dərdinə olmaz çara
Ağsaqqallar ağ dedilər, bunlar anladı qara
Möminlərin haqq yoluna uymadılar getdilər

İllər boyu məclisimizdə söhbət olub, saz olub
Gözəllərdə işvə olub, qəmzə olub, naz olub
Aqil – mömin məclisində badə-şərab az olub
O səbəbdən bu meyxoşlar doymadılar getdilər

Nər oğulsan ay Qaracan ağır əyləş, sal binə
Haqq yaradan heç kimsənin dəyməyibsən xətrinə
Əllərini salmadılar şabaşa ciblərinə
Beşcə manat pullarına qıymadılar getdilər

# TİKANLI MƏFTİLLƏR

*İttifaq dövründə gedirdim Araz çayının o tayına cənubu Azərbaycanda yaşayan qohum – qardaşlara həsrət gözlə boylanırdım. Allah bu qərib həsrətliyi gördü və tezliklə aralığa çəkilən tikanlı məftilləri çəkənlərin öz əlləri ilə üzümüzə açdırdı.*

Min doqquz yüz on yeddidə, ittifaq yarananda
Sərhədimizə səd çəkdiniz ay tikanlı məftillər
O tay, bu tay, qohum – qardaş həsrət ömür yaşadı
Bir – birindən ayırdınız ay tikanlı məftillər

Yarandınız, güc verdiniz "yağlı-buğlu" dillərə
Nə qurdunuz, yaratdınız ölkələrə, ellərə?
Bir nişanə belə, sizdən qalmadı nəsillərə
Yer üzündən silindiniz ay tikanlı məftillər

Zəbt etdiniz, bağ saldınız, bağ da bar gətirmədi
Eylədiyniz zülümləri Allah da götürmədi
Yetmiş ilin tamamından bircə gün ötürmədi
Aradan götürüldünüz ay tikanlı məftillər

Alında piştonлüləsi, barmaqda çaplı çaxmaq
Əsirlikdən qurtulmuşuq birdə olmarıq axmaq
Yalan vədlər, sərt çıxışlar, yaltaqlanmaq, yağlanmaq
Açıldı astar üzünüz ay tikanlı məftillər

Qaracanam, könül açır ürək dolu sevincim
Yuxum ərşə çəkilibdi, yox yorğunluğum,dincim
Bir əlimdə al bayrağım, bir əlimdə qılıncım
Daha kəsildi diziniz ay tikanlı məftillər

## BU KƏNDİN KOXASI, AĞASIYAM MƏN

Baxma ömür yaşım keçib yetmişi
Hələ beşiyimin çağasıyam mən
Baba- nənələrmin nəvə balası
Gənclik dostlarımın qağasıyam mən

Sənətimin möhür bəndi vurulub
Səngərimin səddi saldan qurulub
Bulud kimi səmalarda durulub
Çəmənlər üstünə yağasıyam mən

Qaracanam kamdı kamalım, zəndim
Bir sənətin hikmətinə bəzəndim
Borçalı mahalım, Təkəli kəndim
Bu kəndin koxası, ağasıyam mən

## QAN TÖKƏN QANINA BƏLƏNƏCƏKDİ

Dar gündə hər kişi, hər insan oğlu
Əslinə, nəslinə söykənəcəkdi
Namərd darda dala daldalanacaq
Mərd olan qeyrətnə güvənəcəkdi

Bağlamaz hicabı, geyməz əbanı
Anlamaz kəlamı, duymaz zəbanı
Geydirsəndə atlas, zəri-zibanı
Qaraçı yenədə dilənəcəkdi

Qaracan, şah dayan, gəl olma üzgün
Dövran taleyinə boylanma süzgün
Qisasçı qisasnı alacaq bir gün
Qan tökən qanına bələnəcəkdi

# CEYRAN BALASI

Gözlərim gözün şövqündən
Gülər a ceyran balası
Kirpiklərin bağrım başın
Dələr a ceyran balası

Baxar aylar aynasınnan
Üzər göllər sonasınnan
Ayrı düşən anasınnan
Mələr a ceyran balası

Ömrü gözəl, dövranı şən
Açar güllər, gülər gülşən
Eşq odunu eşqə düşən
Bilər a ceyran balası

Dərd əhlinə vurma yara
Qıl dərdinə dərman, çara
Ürəyini para-para
Bölər a ceyran balası

Barıldım dövlət varımdan
Gəncliyimdən, dövranımdan
Keçir ömür xəyalımdan
Nələr a ceyran balası

Qaracan qurban ayına
Dövranına, alayına
Nə vaxt desən harayına
Gələr a ceyran balası

# BİZİM DOSTLUĞUMUZ BURA QƏDƏRMİŞ

İnsan oğlu dinlə məni bir anlıq
Müdrik babalarımız gör nələr demiş
Qalan yaxşılıqdı,birdə yamanlıq
Dövlətdə,sərvətdə gəldi-gedərmiş

Zəhmət çəkdim qala qurdum qansıza
Nurlu gözlərimə qan sıza-sıza
Namussuza,şərəfsizə,arsıza
Çəkdiyim əziyyət demə hədərmiş

Əzəl gözlərimə mələk göründü
Sonra dönüb şeytan donna büründü
Kürzə kimi qabarlandı, süründü
Sən deməynən ağzı dolu zəhərmiş

Eşq olmayan bir ev quru xanədir
"Könülsüz bir həyat bir viranədir"
Alnamaz nə qanır zər-ziba nədir
Zərin qədrini zərgər bilərmiş.

Qaracanla ülfət qıldığın gündən
Şeytanla dost olub dolandın gendən
Sən məndən incidin,məndə ki,səndən
Bizim dostluğumuz bura qədərmiş

## BƏRİ BAŞDAN

*Turşməzə*

Kirvə məclisini keçirməyimə
Hələ ki, bir beh ver, yüz bəri başdan
Mənim haqqım nədir, özün bilirsən
Qoy olsun hesabmız düz bəri başdan

Başlayar məclisin, yığılar alay
Şadlanar dost-qohum, şənlənər saray
Mənim qabağıma bir pürrəngi çay
Özünə bir “ əlli “ süz bəri başdan

Deyirlər inciklik dildən gələcək
Yaxşılıq, yamanlıq əldən gələcək
Qaracan, qismətin eldən gələcək
Bu “xər“ dən əlini üz bəri başdan

## BİLMİRƏM

Yaman durub fələk mənlə üzbəüz
Qaldıracaq, endirəcək, bilmirəm
Od-ocağmın dövrəsində dolanır
Yandıracaq, söndürəcək, bilmirəm

Həsrət yollarında qalan gözümü
Gah nurlanan, gah da solan gözümü
Bulud kimi daşıb, dolan gözümü
Ağladacaq, güldürəcək, bilmirəm

Ay Qaracan söz sinəndə sirdimi?
Çək hesaba əllidimi, birdimi
Ürəyimdə pünhan olan dərdimi
Yaşadacaq, öldürəcək, bilmirəm

## DAŞDI SƏBİR KASAM

*Baməzə*

Ulqumsuz alçaqla davamız düşdü
Səbrimi, hirsimi yeyə bilmədim
Cin təpəmə vurdu, şeytan dizimə
Qolumu qatlayıb əyə bilmədim

Bir yaxşı dərs verdim mən bu nəpəyə
Tuşladım zərbəyə, saldım kötəyə
Nəki var budadım kəllə, təpəyə
Bel sapı bilmədim, paya bilmədim

Qaracan səngəri sal qayasında
Səliqə-səlqarı el arasında
Daşdı səbir kasam son damasında
Abır gözləmədim, haya bilmədim

## NEYLƏSİN, NEYLƏSİN

Hicran dərdini çəkməyə
Ürək neyləsin, neyləsin
Hər dərdə sinə gərməyə
Kürək neyləsin, neyləsin

Qəm-kədərə uğramışa
Dövranını doğramışa
Haqq-yaradan qarğamışa
Fələk neyləsin, neyləsin

Peymanını dananlara
Haram süfrə salanlara
Diznin üstə alanlara
Çörək neyləsin, neyləsin

Məhəbbətə yoxdu dava
Başına gətirər hava
Eşqidən yanan alova
Külək neyləsin, neyləsin

Rəhim eylə binavaya
Gün var ki, dəyər min aya
Himi batmış bir binaya
Dirək neyləsin, neyləsin

Dağıldı sərhədmin posdu
Taxtım döndü, bəxtim susdu
Qaracanın ömür dosdu
Mələk neyləsin, neyləsin

## ŞƏYİRDİM SAMİRƏYƏ

Aylı gecələrin şamı, çırağı
Gündüzlərin nur sabahı Samirə
Sədası dolanır asimanları
Sonsuz fəzaları, mahı Samirə

Belə hikmət, sirli sənət kimdədi?..
Şah sənətin qədrini biləndədi
Vəfalı insandı, mömin bəndədi
Bağışlayar hər günahı Samirə

Sinə dolu, sənət xiridarıdı
Günəşdən nurludu, aydan arıdı
Sərraf meydanıdı, söz bazarıdı
Aç xırd eylə, sat mətahı, Samirə

Tərif eyləmirəm, bircə dənəsən
İlhamın göylərdə, zirvələrdəsən
Əslisən, Pərisən, Ərəbzəngisən
Xanım aşıqların şahı Samirə

Arzusu, diləyi var Qaracanın
Mürvəti olarmı şahmar ilanın
Sənə kəm baxanın "nəzər" qılanın
Qalsın ürəyində ahı,  Samirə.

**29.09.2018**

## DÜNYA

Qatarlanıb karvan kimi
Gəldi, getdi kimlər dünya
Aqil, möminlər yurdunda
Qaldı əqli kəmlər dünya

Qul nə batdı, nə ucaldı
Beləcə ömrü qocaldı
Yal içən yaltağa qaldı
Dəbdəbələr, dəmlər dünya

Ömrün bihal vədəsində
Dövran dərdi sinəsində
Gördüm mərdin xanəsində
Qüssə kədər, qəmlər dünya

Babaların bel yorduğu
Yaradıb, tikib, qurduğu
Bizlərə miras qoyduğu
Dağılıbdı himlər dünya

Kor dövrana qalmışam mat
Gecələr yatmıram rahat
Yüz manata beş yüz manat
Qalxıbdı sələmlər dünya

Ay Qaracan, saz al dəsdə
Dillənsin tellər ahəstə
Oxusun pərdələr üsdə
Gül barmaqlar, simlər dünya

# DİLCAN DƏRƏSİ

Arzularam, birdə səni
Görəm a dilcan dərəsi
Çəmənlər üstə süfrəni
Sərəm, a dilcan dərəsi

Açam bəndi,bərələri
Gəzəm çınqıl dərələri
Barmaqlara pərdələri
Hörəm, a dilcan dərəsi

Seyr eyləyəm çeşmələri
Yada salam keçmişləri
Yaylağında binələri
Quram a dilcan dərəsi

Dəmim birdi, qəmim beşdi
Xəyalımdan nələr keçdi
Heyif sizdən uzaq düşdü
Aram a dilcan dərəsi

Qurşağa çəkəm darağı
Dəstimə alam yarağı
Düşmən sinəsinə dağı
Vuram a dilcan dərəsi

Bəxtim üstümə çiləyir
Dövranım zaman diləyir
Qaracanam, qövr eyləyir
Yaram a dilcan dərəsi

## GÖRDÜKLƏRİM YUXUYMUŞ

Nə ağada, nə hakimdə, nə bəydə
Haqq, ədalət,insaf yoxuymuş Allah!
Quldur zəmanənin, zalım dövranın
Dədə yox, gədəsi çoxuymuş Allah!

Biləklər qatlayan, boyunlar buran
Zəli kimi damarlardan qan soran
Sinədən tuşlayan, kürəkdən vuran!
Qanlı qatillərin oxuymuş Allah!

Geriyə dönən döy, dövran əzəlki
Sabah dəyişəcək, getdi dünənki
Qaracanam, indi dərk eylədimki
Bütün gördüklərim yuxuymuş Allah!

## AŞIQ ŞENLİYƏ

Alı, Abbas, Qurban, Ələsgər kimi
Vurdun möhürbəndi ay dədə Şenlik.
Açılmaz düyündü sözlərinizin
Hər kəlməsi, bəndi ay dədə Şenlik.

Qalxan pillələrin var astanası
Tanrıdan quruldu Şenlik qalası
Şenlik yadigarı, Şenlik dünyası
Bəşərə büləndi ay dədə Şenlik.

Bir yanı Dilican, bir yanı Zəncan
Şöhrətin yayılıb hardan haracan
Borçalı balası şair Qaracan
Qədrini biləndi ay dədə Şenlik.

## FAYDASI YOXDU

*(şərəfsizə)*

Körüklə yandırıb dağladın məni
Üstən yağlamağın faydası yoxdu
Dillərindən yaralanan yarama
Sarıq sarımağın faydası yoxdu

Daha dolanmaynan həndəvərimə
Gecdə olsa, axır dəydi sərimə
İndən belə nə xeyrimə, şərimə
Gəlib yaramağın faydası yoxdu

Qılıncın qınında qana bələndi
Havalı dövranın göylərdən endi
İki əlin olub bir başın indi
Döyüb, budamağın faydası yoxdu

Obadan ayrılıb, eldən üzüşüb
Boynun büküb, küncə girib büzüşüb
Qohumdan, qardaşdan aralı düşüb
Tənha ulamağın faydası yoxdu

Qaracan, gedibdi gənclik, ucalıq
Alıbdı üstünü qartal qocalıq
Fayda verməz sonuncu peşmançalıq
Kor-peşman olmağın faydası yoxdu

## BAŞINA DƏYSİN

Hərdən xəyalına düşəndə;-məni
Gəlib yoxlamağın başına dəysin
On ildə bir dəfə dostu, qohumu
Yadına salmağın başına dəysin

Arxa kürəyindən vurandan sonra
Bonalıb üzünə durandan sonra
Günahsız bir qəlbi qırandan sonra
Peşiman olmağın başına dəysin

Qul Qaracan adətində, dəbində
Gövhər gəzir dəryaların dibində
Şüşə kimi sındırılan qəlbində
Saraylar qurmağın başına dəysin

## HEÇ OLMASIN

Gözlədim yolun, gəlmədin
Gələn günün heç olmasın
Əziyyət çəkdim bilmədin
Bilən günün heç olmasın

Dedin ki, gözlə gələcəm
Səninlə deyib-güləcəm
Dəmimi sənlə böləcəm
Bölən günün heç olmasın

Oturub səssiz-səmirsiz
Qaracan kimi səbirsiz
Deyirdin ölərəm sənsiz
Ölən günün heç olmasın

## NƏ XEYRİ VAR

Səndən üz döndərən baxtı
Gözdəməyin nə xeyri var
Boş keçən vədəni, vaxtı
İzdəməyin nə xeyri var

Yağlanıb yala hürənə
Sabınlanmamış girənə
Qulaq ardına verənə
Söz deməyin nə xeyri var

Zəhmət yükünü əl çəkər
Kotan yükünü kəl çəkər
Eşşək yerimirsə əgər
Bizdəməyin nə xeyri var

Danışanda, danış düzü
Açılacaq geci, tezi
Astarı dağılmış bezi
Üzdəməyin nə xeyri var

Çalış uca tut hörməti
Saxlama qəmi, möhnəti
Ay Qaracan həqiqəti
Gizdəməyin nə xeyri var

## QOCALIQ

Cavanlıq, gənclik çağlarım keçdi firavan qocalıq
Görünməyir qatarlarım, düzülmür karvan qocalıq
İndən belə həyat deyir ixtiyar dövranındır.
Ömür ağır əzabları görməyir rəvan qocalıq

Hey baxıram igidlərin oynayan atlarına
Səmalarda pərvazlanan qartal qanadlarına
Boylanıram vətənimin sərhəd hüdudlarına
Əldən gedib Zəngəzur, Göyçə, İrəvan qocalıq

Tərk olunduq obamızdan, aralı düşdük eldən
Qorumadıq torpaqları düşmənə verdik əldən
Qaracanam, doğma yurdum Borçalıdı əzəldən
Bir tərəfi Qarayazı, Başkecid, Sarvan qocalıq

## ŞƏHİDLƏR XİYABANINDA

Siz bu xalqın, bu Vətənin övladısız, şəhidlər
Tarixlərdə yaşanacaq mərd adınız, şəhidlər
Bu qisası qiyamətə qoymayacaq nəsillər
Axıb yerdə qalmayacaq nahaq qanınız, şəhidlər.

Fəryadı var, naləsi var, hər bir qarış torpağın
Dizlərindən kəsməliyik qarı düşmən ayağın
Başımız üstə dalğalanan bu şərəfli bayrağın
Şərəfisiz, şöhrətisiz, vicdanısız, şəhidlər.

El oğluyam, el yaşadır, övladı Qaracanı
El yolunda verməliyəm qurban, bu qara canı
Doğulmuşam, sevməliyəm yurdum Azərbaycanı
Rəhmət olsun, nurla dolsun məzarınız, şəhidlər

## BULUDLAR

Buxarlanıb dəryaların üzündən
Mavi səmalara qalxan buludlar
Qubarlanıb yaş tökülən gözünnən
Həsrət diyarına baxan buludlar

Parladı od şimşək, çaxdı ildırım
Titrədi qayalar, sındı sıldırım
Yağdı daş dolular hey qırım-qırım
Tayamı, talvarmı yıxan buludlar

Günəşin hüsnünə çəkəndə pərdə
Varlı kainatı salırsan dərdə
Tala qarlar dağlardan əriyəndə
Sellənib çaylara axan buludlar

Zirvələr başına qarı ələyib
Çəmənli çölləri şehə bələyib
Meşə dağlara leysan çiləyib
Səhranı yandırıb, yaxan buludlar

Az qalıb çatmağa yol, diləyimə
Tanrıdan güc gəlir qol-biləyimə
Ax, süzül sinəmə, dol ürəyimə
Qaracan qəlbində çalxan buludlar

# TİFLİS

Min beş yüz əlli il əvvəl
Bünövrəsini salan Tiflis
Qədim tarixin var sənin
Mən demirəm yalan Tiflis

Kraliça Tamara, çar
Axır oda qaldı naçar
Şah Abbas, Məhəmməd Qacar
Çox vurublar talan Tiflis

Fəsillərin yaz, bahardı
Yurdun gözəl bir diyardı
Qaracanam, bax bunlardı
Yaddaşımda qalan Tiflis

***08.08.2018***

# OĞLUMA NƏSİHƏT

Əsil bağbanın bağında
Açan güllər solmaz, oğul.
Bar verən ağac, barını
Budağından salmaz, oğul.

Halal südə su qatanın
Haram sələmlər yığanın
Tərəzidə aldadanın
Yurdu abad olmaz, oğul

Qaracan, sözün qısası
Bay olmaz bayquş yuvası
Buynuzlu qoçun qisası
Buynuzsuzda qalmaz, oğul.

## OĞLUM VÜQARA

İlqarımın yar aşığı
Gözlərimin nur işığı
Ev-eşiyimin yaraşığı
Mənim körpə Vüqar balam

Ziyafətimin ziynətidir
Qollarımın qüvvətidir
Dizlərimin taqətidir
Mənim ərkə Vüqar balam

Ömrümün yaz-baharıdı
Anasının nübarıdı
Qaracanın Vüqarıdı
Vüqar balam, Vüqar balam

**06.12.1975**

## AĞILSIZIN AXIRI

Səxavətli, kərəmətli bir dostum
İndi başqa yana yumarlanıbdı
Olannı, qalannı, qoyub oyuna
Kazino damında qumarlanıbdı

Badə şərabları götürdü dəstə
Şeytan libasında başladı qəsdə
Duz-çörək kəsdiyi dostların üsdə
Zərbələr endirib, damarlanıbdı

Cibində qalağnı yedi, əritdi
Sonra bəd işlərin dalınca getdi
Söyüşlər işlətdi, təhqirlər etdi
Məmurlar qolunda qamarlanıbdı

"Pastavoy"lar dəyənəyi çaxdılar
Qollarını burub, küncə sıxdılar
Əvvəl bığnı, sonra başnı qırxdılar
"İyrimi dörd saat tumarladılar"

Nədir sənə xeyri bu zəqqutumun
Budur nəticəsi bircə qutumun
Qaracanam, baxdım, gördüm "dost"umun
Çənə düşüb, burnu hamarlanıbdı

## KƏMSƏRKƏLƏ

(*Turşməzə*)
*Ömrünü kolxoz bazarlarında qocaldan alverçi Kəmsərkələyə*

Hər bazarda beş piştaxta, dörd daxıl
Bərk salıbdı lövbəri Kəmsərkələ
Sağa, sola süzdürüb gözlərini
Hey axtarır müştəri Kəmsərkələ

Gör nə satır bu yaramaz qurumsaq
Bibər, kəvər, turşu, soğan, sarımsaq,
Qarın, qursaq, kəllə-paça, bağırsaq,
Toyuq, cücə, gön, dəri Kəmsərkələ

Tanrı bunun qismətini saxlasın
Alverində müştərləri çoxlasın
Qaracanda hərdən gəlib yoxlasın
Bazar əhli əntəri Kəmsərkələ

## DƏRD-AZARIN ƏNGİNƏ

Dəli könül bu dünyanın, dövranın
Nəzər eylə surətinə, renginə
Dağlardan böyükdü, dəryadan dərin
Çalış keçmə çərxi-fələk cənginə

Deyirəm ki, halal qazan, nəf eylə
Demirəm ki, çıx yolundan səhf eylə
Kef əhlisən, nəki varsan kef eylə
Xam xülyalar salma sərin səngine

Qaracan, hikmətin çələngin toxu
Həqiqəti danış, söyləmə yuxu
Dastan başla, şeir yarat, söz oxu
Bir təpik vur dərd-azarın ənginə

## DƏDƏ ƏMRAH

Hicran dünyasının qəm diyarında
Nə yatıbsan oyan ay dədə Əmrah
Qürur qamətinin şah sənətini
Bəşər aləminə yay dədə Əmrah

Meydanların Aslanısan, Nərisən
Sənət ordusunun sərkərdəsisən
Alının, Abbasın bərabərisən
Dahi Ələsgərə tay dədə Əmrah

Dərsin dərin oldu, olmadı üzdən
Sənətgarlar keçdi siz salan izdən
Azman sənətnizdən, mərhəmətnizdən
Düşüb Qaracana pay dədə Əmrah

## AĞLIM ÜSTÜMDƏDİ, HUŞUM BAŞIMDA

Baxma ömür yaşım keçib yetmişi
Ağlım üstümdədi, hüşüm başımda
Düşünürəm gələcəyi, keçmişi
Ağlım üstümdədi, hüşüm başımda

Dərd sandığnı gərək vuram sındıram
Qəm evinin şam-çırağnı yandıram
Alnamazı qulağından qandıram
Ağlım üstümdədi, hüşum başımda

Bir işə ki, gücün çatmır, girişmə
Gülüşmə yoxdursa, orda irişmə
Qaracanam, bax duruşma, yerişmə
Ağlım üstümdədi, hüşum başımda

## LƏLVƏR DAĞI

*Bu dağın bütün fəsillərində zirvəsində qar olur. Ətəklərində isə qış fəslindən başqa hər fəsli güllü çiçəkli bahar – yazdı.*

Dövr eyləyir dövranında illər a ləlvər dağı
Seyr eyləyir yaylağında ellər a ləlvər dağı
Fəsillərin baharı var, yayı, zimistanı var
Hər fəsildə ətir saçır güllər a ləlvər dağı

Ağuşunda bəsləyirsən bar-bəhərli bağları
Ürəklərdə səsləyirsən ötüb keçən çağları
Dərgahına yön çevirən köç karvan qatarları
Güzarını gəlib sizdən salar a ləlvər dağı

Tarixlərə miras qoyur yaradanlar quranlar
Qoçlar yan-yana kəsilir, ehsan olur qurbanlar
Açılır bəndlər, bərələr, qatarlanır karvanlar
Köç eyləyir bəy, ağalar, qullar a ləlvər dağı

Haqq tanıyan, rəhim qılan, yananları söndürən
Tilsim qıran, bəndlər yaran, dərd-azarı öldürən
Ürək açan, qəlb oxşayan, könülləri güldürən
Taleymizə bir xoş dövran gələr a ləlvər dağı

Hərdən-hərdən sizdən düşür Qaracanın güzarı
Camalından ilham alır Borçalının yazarı
Açılıb sinə bəndinin mətah dolu bazarı
Saz qolumda, söz dilimdə çağlar a ləlvər dağı

## BİR DONDA, BİR LİBASDAYAM

Bir şair ömrünü yaşamışam mən
Amma şair adını qazanmamışam
Qoşmalar, dastanlar yaratmışam mən
Şairlər yazanı yazanmamışam

Sənətgaram,çox mahallar gəzmişəm
Sədəf üstən mirvarilər düzmüşəm
Dözülməyən hər dərdlərə dözmüşəm
Yurd, millət dərdinə dözənməmişəm

Qaracanam, sənətimdə ustadam
Dəryalarda dalğa vuran adayam
Kişiyəm, bir donda, bir libasdayam
Yeddi dona girib bəzənməmişəm

## BULAQ BİR TƏRƏFDƏ, ÇAY BİR TƏRƏFDƏ

Belədir həyatın qanunu başdan
Toy bir tərəfdədi, vay bir tərəfdə
Açılmır başımız dərddən, təlaşdan
Hoy bir tərəfdədi, hay bir tərəfdə

Can ətdəndi, yaranmayıb dəmirdən
Hökm budur, çıxmaq olmaz əmirdən
Asta-asta gəlib keçir ömürdən
İl bir tərəfdədi, ay bir tərəfdə

Ahal ömrüm, heç nə gəlmir əlimdən
Qara zəli qanmı sorur dilimdən
Asılıblar qollarımdan, belimdən
Torba bir tərəfdə, tay bir tərəfdə

Gəlir keçir dövranımın illəri
Əvəzlənir ömrümün nəsilləri
Təbiyyətin barışmaz fəsilləri
Qış bir tərəfdədi, yay bir tərəfdə

Bəzən ziyan çəkib qəhərlənmişəm
Bəzən də nəf edib bəhərlənmişəm
Dağlar yaylağına kəhərlənmişəm
Bulaq bir tərəfdə, çay bir tərəfdə

Pozanmaram Tanrı yazan varağı
Söndürə bilmərəm yanan çırağı
Ay Qaracan qazandığın qalağı
Bağlar bir tərəfdə, say bir tərəfdə

## AĞIL BAŞDA KEYLƏNƏNDƏ

Dərd əhlinin dərdi gedər
Əyalında eylənəndə
Səslənər büllur badələr
Məclis əhli meylənəndə

Qədəh daşar, həddin aşar
Hüş qarışar, yolun çaşar
Kəlamın dildə dolaşar
Ağıl başda keylənəndə

Qaracan, dəyişər halın
Pozular şərif - əhvalın
Qoca aslan kor çaqqalın
Qabağında teylənəndə

## QARACANAM

Qeyrətim, ləyaqətim var
Yorulmayan taqətim var
Əyilməyən qamətim var
Dağ vüqarlı Qaracanam

İlham çağlayır canımda
Məlhəm qaynayır qanımda
Dost önümdə, el yanımda
Etibarlı Qaracanam

Gərən qolum, qucağım var
Yanan şamım, çırağım var
Şenlənən yurd, ocağım var
Ömrü barlı Qaracanam

Var əllərim səxavətli
Yar – yoldaşa sədaqətli
El yolunda dəyanətli
Hallı, karlı Qaracanam

Aqil, möminlərə tayam
Halaldan tutulub mayam
Vicdanım, namusum, hayam
Abır – arlı Qaracanam

Ola bilməz pozan; - ömrü
Haqq – yaradan yazan ömrü
Yaşayıram Ozan ömrü
Bir qərarlı Qaracanam

## QARACANDAN – QARACANA

Sənətinlə zirvələrə ucaldın
Daha yüksəklərə ucal Qaracan
Alınmaz qalasan, əyilməz polad
Tanrı qüdrətindən güc al Qaracan

Ləl süzülür kəlmələrnə, bəndinə
Zərbə vurdun anlamazınənginə
Çəkdin meydanına, saldın cənginə
Qaçmağa vermədin macal Qaracan

İnsana qaynayan qaynar qanın var
Yorulmaq bilməyən hallı canın var
Mahalda hörmətin, adın-sanın var
Beləcə ömür sür, qocal Qaracan

## BORÇALIDANAM

Bağlanıb hər yandan hər bərə, hər bənd
Bir yanım Göyçədi, bir yanım Dərbənd
Dağıldı əsarət, açıldı ürbənd
Şimallı Cənublu Azərbaycanam
Mən bu məmləkətdən, bu mahaldanam.

Bağlansa yollarım, örtülsə pərdə
Qatlannam dözməyə, dözülməz dərdə
Hansı bir məkanda, hansı bir yerdə
Salınsa yurd-yuvam, ucalsa binam
Bax o xanədənəm, o torpaxdanam.

Tanrı mələkləri ev-eşiyimdə
Dayanıblar Qaracan keşiyimdə
Layla çarpayımda, yurd beşiyimdə
Harda bələyimi bələyib anam
Çətin ki, o yurdu unudam, danam
Ozanlar diyarı, Borçalıdanam.

# BAYATILAR

Əzizim dağda duman
Daha qalmayıb guman
Ümidim, pənahımsan
Türk oğlu möhkəm dayan

Yanır, sönmür odumuz
Var ağamız, qulumuz
Ziyarətə gedirdik
Sizdən düşdü yolumuz

Qansıza qada gəldi
Keçmişlər yada gəldi
Vətəndə zəhər yedim
Ağızım dada gəldi

Əzizim, hara düşdü
Bağlarım bara düşdü
Dağdan enən karvanım
Dərədə, qara düşdü

De, nəyə layıqıq biz
Hələ ulayırıq biz..
Torpağa, əsirə bax
Kimə, yaşayırıq biz?..

Əzizinəm, gülmədi
Dərdimi yar bilmədi
Qəmdən dəstə topladım
Şələmizə gəlmədi

Əzizinəm əyməsin
Xətrinə dəyməsin
Qoy səni atan döysün
Amma Tanrı döyməsin

İstədiyini gəl götür
Məni bu yoldan ötür
Özümə bir yol seçdim
Oda ki, kələ-kötür

Aşıq, çoxdur qəhərin
Köhlənsizdi yəhərin
Qəlbimdə izi qalıb
Şirin xatirələrin

Evinizin danəndi
Qoca baban, nənəndi
Aradan on ol keçib
Elə billəm dünəndi

Karvan yola düzüldü
Mey qədəhlər süzüldü
Mən sənə nə dedim ki,
Dodaqların büzüldü

Ağ kağıza qara yaz
Kür, Qardaban, Qarayaz
Məni elə üşütdün
Üşütməzdi qar, ayaz

Əzizim bostan, yemiş
Var hələ yetişməmiş
Yazdıqlarmı heç etdin
Hədər şairiyəmmiş...

Aşıq, sazın kimdədi?...
Hansı kökdə, simdədi?...
Dedi bəmdə "sem sorok"
Zildə "Sorok sem"dədi...

Bağçalarda bar kimi
Zirvələrdə qar kimi
Bir sənətkar olaydam
Əmrah, Kamandar kimi

Sazı havasında gör
Dağı səfasında gör
Həkimin əllərini
Xəstə şəfasında gör

Aşıq, dön yazıya bax
Qurd qovan tazıya bax
Canavarın ağzında
Mələyən quzuya bax

Dayaz yox dərin olsun
Zəkalı sərin olsun
Ağılının yanında
Bir az da zərin olsun

Dur çıx Məcnun dağına
En leyli bulağına
Ömür gənclik ruhunda
Baxma saçın ağına

Köç uçrum qaşındadı
Ömür hal yaşındadı
Gəl dağa-daşa düşmə
İş pulun başındadı

Aşıq sözdən olmasın,
Ərkan izdən olmasın,
Tanışlıq üzdən olsun,
Dostluq üzdən olmasın.

Aşıq deyər sazmışıq
Sizdən də çox yazmışıq
Bu yer, o yerlər deyil
Yəqin ki, yol azmışıq

Əzizim, tək adamı
Sirri açaq yadamı?
Durursan get öndə dur
Olma yedək adamı

Eşitdik Ozan səsi
Ovsunlayıb hər kəsi
Dadlı və halal olar
Kasıbların süfrəsi

# RÜBAİLƏR

Könlüm havalanıb yenə a dostum
Məni tez mindirin köhlən belinə
Qalxım zirvələrnə mən o dağların
Baxım Borçalımın  doğma elinə

Qaracanam, əqli sərrastam, cəməm,
Dostlar sağlığına meyxoşam, dəməm.
Haqqın dərgahından ilham gəlməsə,
Qafiyə söyləmək asandı bəyəm?...

Məhkum olsan bir günahın ucundan
Asandır çəkəsən zindan əzabı
Əridər, çürüdər, axır məhv edər
Çətindi çəkəsən vicdan əzabı

Ay ellər o gedən, o nakəm  köçən
Ozan səhnəsinin səltənətidir
Göyləri titrədən, yeri ağladan
Sənət dünyasının Ədalətidir ***(14.09.17)***

Düşməni olmuşam iki üzlərin
Tələ quran yollarına düzlərin
Boyunduruq çəkən boz öküzlərin
Bir dənəsi beş qanmazdan yaxşıdı

Deyirlər ki dünən  toyda Keçəlnən
Kosa arasında dava düşübdü
Keçəlin əlinə çəpər payası
Kosanın əlinə yava düşübdü

Qismətim yazıldı ana bətində
Yarandım, yaşadım, qaldım çətində
Bəxti kəm olmasın adi itin də
Bəxti tərs gələnin təxti düz olmaz

Sözümü az dedim, çox da dinlədim
Fikir eyləməkdən başım ağardı
Dolandım, öyrəndim, aradım bildim
Gördüm ki, çox yerdə daşım ağırdı

Nə müddətdi gözləyirəm yolları
Yol çəkirəm, gözüm xiyabandadı
Leyli köçüb gedib fani dünyadan
Bu divanə Məcnun biyabandadı

İstər oda qala, istər dara çək
Mərd igid yalanı deməz a dostum
Aylarla ac qalar, yan üstə yatar
Aslan it yediyni yeməz a dostum

Bir zamanlar gözəllərin örpəyi
Xanımların da yaşmağı var idi
Cahalların çəkmələri, kulası
Ahalların da papağı var idi

Meyvə-tərəvəzin, bostan barının
Hər birinin öz dadı var, yeri var.
Alma, heyva, xurma, üzüm bir də nar
Bax bunların insanlara xeyri var

Baş qaldırıb gəzə bilmir bu kosa
El içində xar-xəcalət olubdu
Taleyinin bəxti batıbdı yasa
Muqavvadı quru alət olubdu

Səndə qılınc, məndə söz kəsəri var
Danışsam dağılar huşun ay Gədə
Sən mənim yanımda hələ cocuqsan
Baxma ki, əllidi yaşın ay Gədə.

Düz sözümü sən anladın tərsinə
Müxənnətin ovandı nə, tərsi nə
Dedim getmə nanəcibin dərsinə
El içində olacaqsan bir cudam.

Dəm gələndə qəm çəkilər qınına
Dalğa vurar dərya adalarına
Bu dağlar oğlunun sədalarına
Düşmən ağlar, dost sevinər şad olar.

Heyif- o boyuna, yekəliyinə
Səndə kişiliyin əsəri yoxdu
Arvad qarşısında, övlad yanında
Ağzının , dilinin kəsəri yoxdu

Oğru var bank yarır, ambar dağıdır
Oğru var  mal-qara, at oğrusudu
Oğru var nə görsə dürtür cibinə
İraq üzünüzdən, it oğrusudu.

## DUVAQQAPAMA

Tanrıdan budur diləyim
Eyş-işrətim, dəmim ola
İşlərim səhil-sahmanlı
Nə kədərim, qəmim ola
Bol-bəhrəli, bərəkətli
Tarlalarda zəmim ola
Dərya, tufanlar qoynunda
Dalğa vuran gəmim ola
Köç karvanlar qatarlana
Gedənim gələnim ola
Düşmənlə duram üzbəüz
Qayalar səngərim ola
Buludlar kulam, yapıncım
Daraqlar kəmərim ola
Zəhmətimə qiymət verən
Qədrimi bilənim ola
Könül açan, qəlb güldürən
Ürəkdən gülənim ola
Kövrəlib gözlər dolanda
Təsəllim, həmdəmim ola
Kin-küdurəti, qaraları
Qəlbimdən silənim ola
Qaracanam, günlər gördüm
Zaman yordum, dövran sürdüm
İndən belə yaradandan
Arzularım budur mənim
Qolumda saz, sinəmdə söz
Əlimdə qələmim ola

# HAQQIMDA DEYƏNLƏR

## ASİF ASİMAN

Şair-publisist

Mən səndə görmədim könül darlığı
Yox dünya malında gözün, Qaracan!
Sazınla, sözünlə, sənətgarlığı
Təstiq eyləmisən özün, Qaracan.

Əyilən görmədim səni bu sində
Sehir var, mehir var sənin səsində
Nəgməli duygular əhatəsində
Ucalır söhbətin, sözün, Qaracan!

Sən Vətən sevgili Ər oğlusan, Ər
Hər kəlmən, ifadən,rəvan, təzə-tər
Hardandır içində bu coşqu, təpər?
Sönməzdi alovun, közün, Qaracan.

Barmaqlar gəzdikcə pərdələr üstə
Tellər həzin-həzin dinir ahəstə
İlahi, nələr yox, bu xoş  nəfəsdə…
Od tutub alışır sazın, Qaracan!

Hörmətin, izzətin aləmə bəlli
Borçalı oğlusan, bizə təsəlli
Gəl demə yetmiş yaş ömrümün həlli
Hələ qarşıdadır yüzün, Qaracan!

## ELBRUS QARAQOYUNLU – şair

Sənətin ustadı, xiradarısan
Üzə gülür hər zamanın Qaracan
Borçalı elinin əziz oğlusan
Bir zirvəsən var dumanın, Qaracan

Taleyin qisməti ömrünə yazmış
Odlu nəfəsinə müşgülər yağmış
Tanrının üstündə nəzəri varmış
Sənin kimi bir insanın, Qaracan

Çal qardaş, avazın, dilin oxusun
Sənə kəm baxanın qəlbi qurusun
Duası var sizə bu Elburusun
Pənah olsun yaradanın, Qaracan

## KAZIM QAÇAĞANLI- şair

Dərdliyəm, danış dərdimi
Dərd qanana, ay Qaracan.
Yanıq Kərəm harda qaldı
Yana-yana, ay Qaracan.

Səsin gəlsin dağ başından,
Keç yurdun hər qarışından.
Salam yetir qardaşından
Zəlimxana, ay Qaracan.

Sən ol, bir də sazın olsun.
Bal kimi avazın olsun.
Bir qardaş da Kazım olsun
Bu gün sənə, ay Qaracan!

*1973-cü il. Bakı*

## MEHDİ CƏLAL – şair

Elə alov tutub yandı barmaqlar,
"Nə qaldı atəşdən- qaracan"- dedi
İqlimlər dəyişdi tellərin üstə,
Təşnə ürəyimiz qara can, - dedi.

Zülməti göylərə qalxan pər dələr,
Kim Qorqud sehrini pozar, pərdələr?
Dəmirçi kürəsi oldu pərdələr,
Qopuza qurbandı, - qara can, - dedi.

Ay Mehdi, sənətdə söz ündən olmaz,
Saman sərçəsinə sözün dən olmaz,
Dogruluqda elin sözündən olmaz,
El də yerbəyerdən Qaracan dedi.

## XÜRRƏM QAFANLI – şair

Saz sənə yaraşır, sən də ki, saza
Toy etdin gör neçə oğlana, qıza
Çatdırdın çoxunu arzu, muraza
Görüm səni var olasan, Qaracan,

Barmaqların gümüş, simdə titrəsin
Getmir qulağımdan ecazkar səsin
O dəsti-şəstindən yoxdu heç kəsin
Varlığınla bir qalasan Qaracan,

Meydangir oğulsan, karlı kişisən
Vaxtında görürsən hər bir işi sən
Ustaddan öyrəndin hər vərdişi sən
Meydanlarda bac alasan Qaracan,

## AVTANDİL AĞBABALI

Keçdi xəyalımdan Ağbaba, Sarvan,
Əsdi dağ yelləri hey karvan-karvan
Sazı sinəsində etdikcə dövran,
Hələbdən Qarsa yol aldı,  Qaracan.

Ağır, yüngül çox yığnağa düşübdü
Gah tərifə, gah qınağa düşübdü
Dəfələrlə min sınağa düşübdü
Ozan elimindən boldu Qaracan

Haqdan səda gəlsə, onu saz çəkər,
Ustad meydanında sözü söz çəkər.
Avtandil, ocaqda odu köz çəkər
Tanrı dərgahında doldu Qaracan.

## DÖNMƏZ - ŞAİR

*Tiflis*

"Kərəm"i çalanda qanım qaynayır,
"Misri"nin səsində düşmən ağlayır,
Dəniz dalğalanır, bulud çağlayır,
Mizrab telə dəysin, pərdə barmağa
Saz ilə söz səndə, Qaracan qağa.

Borçalı yurdundur, Təkəli elin,
Gənclər kama yetsin, olsun bəy-gəlin,
Dastanlar söyləsin bülbül tək dilin,
Şöhrətin yayılıb elə, oymağa,
Saz ilə söz səndə, Qaracan qağa.

Dönməz şeir yazdı sənə ürəkdən,
Yaxşını, yamanı söylədi qəlbdən,
Demirəm misralar çıxdı qəlibdən,
Düşürdü, qaldırdı bilmirəm dağa,
Saz ilə söz səndə, Qaracan qağa

## FƏRHAD DİLİCANLI

Ay Qaracan surətində, üzündə
Ulu Ozanların izini gördüm
Səndə şıx Alının,qul Ələsgərin
Sənət dünyasının özünü gördüm

Eşqindir sinəndə coşub, çağlayan
Barmaqları pərdələrə bağlayan
Ürəkdən odlanan, dildən ağlayan
Əslinin, Kərəmin közünü gördüm.

Ömrü yüz yaşayar səbirli qulun
Zatı olmaz fitnəkarın, çuğulun
Fərhad deyər Qaracan tək oğulun
Dostluq ilqarında düzünü gördüm

***1992-ci il***

## ƏLİ QULİYEV

Aşıq-şair

Tərif eyləmirəm;-Dasdan sənətin
Qaracan Borçalı qartal dağıdır.
Təbi ilhamının qaynayan, daşan
Coşqun sinəsinin gür bulağıdır.

Yayda seyrangahı “Ağrı” nın dağı
“Ardanış” dərəsi, tərlan oylağı
“Murov”meşələri, ceyran bulağı
Çoban binələri, el yaylağıdır.

Danışır qolunda qolca-qopuzu
Halaldı hər kəsə çörəyi, duzu
Qaracan, bəşərin parlaq ulduzu
Ozan dünyasının şam-çırağıdır.

## Mündəricat

ÖN SÖZ ........................................ 3
DİVANİLƏR GƏRAYLILAR QOŞMALAR ........................................ 11
SALAM OLSUN ........................................ 12
BORÇALI ........................................ 13
YAYLAQ ........................................ 15
DAĞLAR ........................................ 16
YAZIM A DAĞLAR ........................................ 17
DAĞLAR ........................................ 18
DAĞLAR ........................................ 18
YERİNDƏMİ ........................................ 19
GÜNLƏR OLAYDI ........................................ 20
HARDA QALDI FƏHLƏLİYİM ........................................ 21
GƏLƏ ........................................ 22
MƏNDƏDİ ........................................ 23
GECƏLƏR ........................................ 24
ŞEYTAN ........................................ 25
YERİNDƏMİ ........................................ 25
ZAMANMI DƏYİŞİB, ÇAĞMI DƏYİŞİB ........................................ 26
SALAMƏLEYKÜM ........................................ 27
AĞIL VERMƏDİYİNİ ALLAH DA VERMƏZ ........................................ 28
QARALANMASIN ........................................ 28
BİLMİRƏM ........................................ 29
DİLİM ........................................ 30
BU GECƏ YUXUMDA ANAMI GÖRDÜM ........................................ 30
DAĞLARA, DAĞLARA ........................................ 31
NİYƏ MƏN BU QƏDƏR KÖVRƏK OLMUŞAM ........................................ 32
AĞRIMA, DİŞİM ........................................ 32
BU GECƏ DƏ ATAM GİRDİ YUXUMA ........................................ 33
BACILAR ........................................ 33
QALDI ........................................ 34
ÜRƏYİM CAVANDI, YAŞ YETMİŞDİ ........................................ 35
TƏKƏLİDƏDİ ........................................ 36
BAĞIŞLA A KƏNDİM, BAĞIŞLA MƏNİ ........................................ 37
QARĞALAR ........................................ 39
SƏHƏR YELLƏRİ ........................................ 40
DÜNYA ........................................ 40

İNDƏN BELƏDİ ..........41
"KİŞİ"LƏNİBSƏN ..........42
HAQQ AŞIĞIYAM MƏN ..........43
.....BALA ..........44
XORUZ ..........45
SABAH KƏNDİMİZDƏ QONAQ OLACAM ..........45
HƏLƏ BU USTADDAN YAZMAMIŞAM MƏN ..........46
DƏMİR ATIM ..........48
YAĞILCANIN YAYLAĞINDA ..........49
OZANLARIN XƏLƏFİYƏM ..........49
DANIŞAQ ..........50
İLANLAR ..........50
KEÇƏCƏKDİR ..........51
BAHALIQ ..........52
ÖZÜNƏ GƏL ..........53
QORU ..........54
KÖÇƏSGƏRDƏ ..........55
QONAQLAR ..........56
BÜLBÜL VƏ BAYQUŞ ..........58
OĞUL ..........58
GƏRƏK ..........59
GƏDƏ ..........60
NƏSİHƏTNAMƏ ..........61
MÜXƏNNƏT ..........62
BARIŞANMIRAM ..........63
VERMƏMİŞƏM ..........64
BAXIN ..........64
DOSTUM ABBASA ..........65
MƏNƏ DƏ DÜŞDÜ ..........66
SAÇLARIM ..........67
BAYRAM GÜNLƏRİ ..........68
GÖZLƏRİM ..........70
QƏLYANÇILAR ..........71
ÖLMƏZ SƏNƏTİ OLSUN ..........72
XOŞ GÖRDÜK ..........72
ÖPƏM ..........73
ELƏ VURULMUŞAM MƏN ..........73
İNSANLIQ XATİRNƏ HÖRMƏT NAMİNƏ ..........74

KÖÇÜRSƏN DAHA ....75
GÜC AL....75
GƏLİBDİ....76
YARADAN VERİBDİ DƏSDİMƏ MƏNİM....77
ALLAHA AĞIR GEDƏR....77
VƏTƏN SƏNİN ÖMRÜNDÜR....78
BAX BUDUR... ....79
QARACAN....80
BİTİRMİŞƏMMİŞ....81
DAĞLAR....81
TANIDAR ....82
LAZIMDI....83
QARDAŞIM MƏHƏRRƏMƏ....84
DƏYİRMANDA....84
DURNALAR ....85
LƏKƏLƏNƏR....86
EYLƏMƏYİN....86
YUXU ....87
MƏNƏM PƏRVANƏSİ YANAN ŞAMLARIN ....87
GƏNÇLİYİM....88
QARŞILADI ....88
OLMASA ....89
GƏRƏK....90
ELİN BALASIYAM, EL SƏSİNDƏYƏM ....91
MİNNƏTİN OLSUN ....92
İNCİDİR....92
ARAQ, SƏNDƏN....93
QARACAN KİM TƏRƏFDƏDİ ....94
UZAQLAŞDI ....95
EL QEYDİNƏ QALANMI VAR ....96
QALMAYIB ƏZƏLKİ, OĞUL ....97
GÖRMƏDİK....98
İTİM ....99
BUNLAR KİMİN KÜÇÜYÜDÜ ....100
VAXTIDI....100
MAŞALLAH....102
PƏRİŞAN ....103
BİZDƏDİ....103

YAZIRSAN ....................................................................104
VAXTIDI....................................................................105
NEYLƏYİM....................................................................105
DANIŞ....................................................................106
DUSTAĞIDIR ....................................................................107
ƏYLƏŞMİŞƏM ....................................................................107
YAŞIMA BAX ....................................................................108
KÜSDÜRMÜŞƏM....................................................................109
GÜLMƏ....................................................................109
NƏ MƏNASI VAR ....................................................................110
MƏRDİ – MƏRDANA ....................................................................111
ÜMÜD ANCAQ YARA QALDI ....................................................................112
QADAĞANDIMI....................................................................112
ÜSTƏDİ....................................................................113
ÜSTÜNDƏDİ ....................................................................114
GERİ QAYITMAZ ....................................................................115
QOCALIQ....................................................................115
YORULMUŞAM ....................................................................116
ƏLDƏN GEDƏR ....................................................................116
AZƏRBAYCAN GÖRÜRƏM ....................................................................118
DƏYİŞİB ....................................................................119
ƏZİZİM....................................................................119
SƏNİNKİ DEYİL ....................................................................120
HARA TƏLƏSİRSİZ....................................................................121
KÖPƏK ....................................................................121
LAZIMDI....................................................................122
ÜÇ RƏNGLİ BAYRAĞIM....................................................................123
AZƏRBAYCAN OLMASA ....................................................................124
KEÇƏSƏN GƏRƏK ....................................................................125
QAYIT....................................................................125
OLAR ....................................................................126
GÖZƏL....................................................................127
HƏYAT YOLDAŞIM BALLI XANIMA ....................................................................128
ÜSTÜMƏ QURD ULAYIBDI....................................................................128
İNŞALLAH ....................................................................129
BİR YANDA MATƏMDİ, BİR YANDA TOYDU ....................................................................130
VERMİŞƏM ....................................................................131
GÖZƏLLƏŞİBDİ ....................................................................131

ALLAHA PƏNAH....132
GÖR....132
QOCALDIM....133
EHTİYACI VAR....134
BACARMADIQ....134
BƏRİ....135
MƏN....135
MƏNİM....136
TANIMADI....136
GÖRƏSƏN NƏ GÖRMÜŞÜK RUSİYADA,
AVROPADA BİZ....137
YURDU VAR, DƏDƏ....138
NƏ SƏN MƏNDƏN, NƏ MƏN SƏNDƏN YARIDIM....139
DAĞLAR....139
TÜRKÜN ÇÖRƏYİ, DUZU....140
YALTAQ....142
MƏCLİSLƏR OXŞAYAN OZANMIZ YOXDU....142
DOST AĞLAYAN YERDƏ DÜŞMƏN GÜLMƏSİN....143
NƏ GÜNDƏDİ....144
YANIMDA....145
EY KÖNÜL....145
GÖYƏRÇİN....146
HƏLƏ YETMİŞİMDƏ SÖNDÜRƏNMİRƏM....147
QUL QARACAN PUL QIRIR....148
GETDİLƏR....149
TİKANLI MƏFTİLLƏR....150
BU KƏNDİN KOXASI, AĞASIYAM MƏN....151
QAN TÖKƏN QANINA BƏLƏNƏCƏKDİ....151
CEYRAN BALASI....152
BİZİM DOSTLUĞUMUZ BURA QƏDƏRMİŞ....153
BƏRİ BAŞDAN....154
BİLMİRƏM....154
DAŞDI SƏBİR KASAM....155
NEYLƏSİN, NEYLƏSİN....155
ŞƏYİRDİM SAMİRƏYƏ....156
DÜNYA....157
DİLCAN DƏRƏSİ....159
GÖRDÜKLƏRİM YUXUYMUŞ....160

AŞIQ ŞENLİYƏ ........................................................................160
FAYDASI YOXDU........................................................................161
BAŞINA DƏYSİN........................................................................162
HEÇ OLMASIN ........................................................................162
NƏ XEYRİ VAR........................................................................163
QOCALIQ........................................................................164
ŞƏHİDLƏR XİYABANINDA ........................................................................164
BULUDLAR........................................................................165
TİFLİS........................................................................166
OĞLUMA NƏSİHƏT ........................................................................166
OĞLUM VÜQARA........................................................................167
AĞILSIZIN AXIRI ........................................................................167
KƏMSƏRKƏLƏ ........................................................................168
DƏRD-AZARIN ƏNGİNƏ ........................................................................169
DƏDƏ ƏMRAH........................................................................170
AĞLIM ÜSTÜMDƏDİ, HUŞUM BAŞIMDA........................................................................170
LƏLVƏR DAĞI........................................................................171
BİR DONDA, BİR LİBASDAYAM ........................................................................172
BULAQ BİR TƏRƏFDƏ, ÇAY BİR TƏRƏFDƏ........................................................................172
AĞIL BAŞDA KEYLƏNƏNDƏ........................................................................174
QARACANAM........................................................................174
QARACANDAN – QARACANA........................................................................175
BORÇALIDANAM ........................................................................176
BAYATILAR........................................................................177
RÜBAİLƏR........................................................................182
DUVAQQAPAMA ........................................................................186
HAQQIMDA DEYƏNLƏR........................................................................187
ASİF ASİMAN........................................................................188
ELBRUS QARAQOYUNLU – şair........................................................................189
KAZIM QAÇAĞANLI- şair ........................................................................189
MEHDİ CƏLAL – şair........................................................................190
XÜRRƏM QAFANLI – şair ........................................................................190
AVTANDİL AĞBABALI ........................................................................191
DÖNMƏZ - ŞAİR........................................................................192
FƏRHAD DİLİCANLI ........................................................................192
ƏLİ QULİYEV ........................................................................193

**Qaracan Borçalı**

# OZAN ÖMRÜ


***Nəşriyyatın direktoru:*** **Ceyhun Xəlilov**
*Dizayner:* Vüsalə Qəribova
*Operator:* Cəmilə Nəsirova
*Texniki redaktor:* Şahnaz Əbdülrəhmanova

Azəri
POLİQRAFİYA

*Çapa imzalanmışdır: 02.07.2019*
*Kağız formatı 60x84. Ofset çapı 1/16.*
*Fiziki ç.v. 12,5 Tiraj 200.*
*Ünvan: Sumqayıt şəh., 13-cü mkr. Niyazi küç. bina 234*
*E - mail: bilik-2008@mail.ru*
*Tel.: (012) 408 39 51; (018) 656 50 42*